Xalqın qəzeti!
# Xalq qəzeti
№ 190 (30306) 5 sentyabr 2023-cü il, çərşənbə axşamı
Gündəlik ictimai-siyasi nəşr
1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Qarabağdakı ermənilərə gəlincə, onlar qondarma liderlərinin arxasınca getməməlidirlər. Onlar Xankəndidə hakimiyyəti ələ keçirmiş və əsas məqsədi öz maraqlarını güdmək olan bugünkü rejimin girovuna çevrilməməlidirlər.**

## Azərbaycan–Qazaxıstan – Orta Dəhlizin “bel sütunu”



**Uzaq Çindən Türkiyəyə və Avropa ölkələrinə, eləcə də əks istiqamətdə yük axınının artırılmasını təmin edən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) region ölkələrinin ticarət-iqtisadi əlaqələrinin səmərəliliyinin yüksəldilməsində mühüm rol oynayır. Orta Dəhliz Asiya və Avropanı birləşdirən, regionunu bir neçə ölkəsinin ərazisindən keçən nəqliyyat və ticarət marşrutudur. Çindən başlayan bu marşrut Mərkəzi Asiya ölkələri – Qazaxıstan, Özbəkistan və Türkmənistanın ərazilərindən keçir, sonra Xəzər dənizi ilə Azərbaycana, oradan isə Gürcüstana, Türkiyəyə uzanır və Avropaya çatır.**

Xatırladaq ki, Orta Dəhliz ideyası 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə irəli sürülüb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa da qoşulub. Hazırda marşrut Çin – Qazaxıstan sərhədindən başlayır və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif yaradılıb, “vahid pəncərə” prinsipi tətbiq olunur.

(ardı 7-ci səhifədə)

## BBC-nin erməni separatizminə xidmət “tərəfsizliyi”

**BBC erməni separatçılarının təbliğinə son qoymalıdır. Bu fikir Azərbaycan Mətbuat Şurasının bəyanatında yer alıb. Bəyanatda bir çox məqamlar var ki, onlardan söz açacağıq. Hələlik isə dünyada məşhur olan media qurumunun “fəaliyyəti” barədə Azərbaycan Prezidentinin köməkçisi, Prezident Adminstrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin söylədiklərinə, daha doğrusu, sosial şəbəkə hesabında bölüşdüklərinə diqqət yetirək.**




Cənab Hacıyev, faktiki olaraq, bildirir ki, BBC özünün bəyan etdiyi qərəzsizlik şüarına dönükdür. Məsələyə mövcud prizmadan baxdıqda, media orqanının erməni separatizminin təbliğinə yönələn dəst-xətti, əslində bəşəri dəyərlərə və həmin dəyərlərdən irəli gələn beynəlxalq hüquq normalarına aşkar sayğısızlıqdır. Amma demək olarmı ki, bu, BBC-nin fəaliyyətində bir ilkdir. Təəssüf ki, media qurumunun, yumşaq desək, yanlışlıqlarının sayı-hesabı yoxdur. Dünyanın diqqət mərkəzinin Azərbaycan–Ermənistan münasibətlərinin axarında, Cənubi Qafqazda sülhün qərarlaşmasında olduğu bir vaxtda, yol verdiyi böyük “yanlışlıq” üzərində dayanaraq deyə bilərik ki, BBC-nin tərəfsiz davranması heç lazım da deyil. BBC özünün, onsuz da əməl etmədiyi, etik kodeksində yer alan gözəl ifadələri bir kənara qoyub, konkret tərəf tutmalıdır – ya haqqın və ədalətin yanında olmaq, ya da nahaqqın və ədalətsizliyin...

(ardı 5-ci səhifədə)

## Lindsi Snell öz ampluasındadır



**Sosial şəbəkələrdə vaxtaşırı Azərbaycan və Türkiyə əleyhinə təxribat xarakterli paylaşımları ilə tanınan ermənipərəst lobbiçi, amerikalı jurnalist Lindsi Snell Ermənistanın çirkin təbliğatının girovu olduğunu növbəti dəfə təsdiqləyib. Onun budəfəki qarayaxma kampaniyasının hədəfi Azərbaycan Silahlı Qüvvələri olub. Jurnalist adına ləkə olan bu zat “X” sosial şəbəkəsindəki mikrobloqunda yazıb ki, guya, Azərbaycan Silahlı Qüvvələrində gördüyü qədər zorakılıq və qəddarlığı heç yerdə görməyib.**

(ardı 3-cü səhifədə)

## “Azəriqaz”: bir addım irəli, iki addım geri

**Azərbaycanda kommunal ödənişlərin elektron hesablaşma vasitəsi ilə həyata keçirilməsi əhalidə böyük məmnunluq doğurur. Çünki bu sistemin tətbiqi istənilən mübahisələrin yaranmaması, eyni zamanda, vaxta qənaət edilməsi baxımından daha əlverişlidir. Elektron sayğaclarda qeydə alınan istehlak həcminə görə su, qaz və elektrik enerjisi ödənişlərinin həyata keçirilməsi sivil dünya təcrübəsinə də uyğundur.**



(ardı 6-cı səhifədə)

## Ermənistan dövləti: nə üçün yarandı və nə səbəbdən yox ola bilər?

Səhifə ⇨ 3

## Çin dördüncü böyük ticarət tərəfdaşımızdır



**İqtisadiyyat naziri Mikayıl Cabbarov özünün “X” (“Twitter”) sosial şəbəkə hesabında rəhbərlik etdiyi nazirliklə Çinin Milli İnkişaf və İslahat Komissiyası arasında “İstehsal gücləri və investisiya əməkdaşlığının gücləndirilməsi haqqında Çərçivə Sazişi”nin imzalanması haqqında məlumat verib. Nazir daha sonra sazişin icrasının ikitərəfli iqtisadi əlaqələrin gücləndirilməsinə və investisiya sahəsində əməkdaşlığın möhkəmləndirilməsinə töhfə verəcəyinə əminliyini ifadə edib.**

(ardı 7-ci səhifədə)

## Humanitar böhran varsa, nə üçün göndərilən yardımları qəbul etmirlər?



Səhifə ⇨ 6

## Paşinyan sülhə qarşı – Ermənistan yeni müharibə istəyir



Səhifə ⇨ 4

## Ukraynada müharibə: Sülh işartıları görünmür



Səhifə ⇨ 10

## San-Marino Respublikasının Regent Kapitanları Zati-aliləri cənab Alessandro Skarano və xanım Adele Tonniniyə

Zati-aliləri,

San-Marinonun milli bayramı – Respublika Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə müvəffəqiyyətlər, dost San-Marino xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

Hörmətlə,

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 31 avqust 2023-cü il**

## "Xınalıq və Köç yolu" Dövlət Tarix-Mədəniyyət və Etnoqrafiya Qoruğunun yaradılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Quba rayonunun Xınalıq kəndindən Pirsaat su anbarınadək uzanan və Qusar, Quba, Şamaxı, Qobustan, Abşeron və Hacıqabul rayonları ərazisindən keçən 200 kilometrdən artıq köç yolu yüz illər boyu Şirvan və Quba bölgəsinin köçəri heyvandarlıq təsərrüfatlarının istifadə etdiyi əhəmiyyətli yol olmuşdur. Köçəri heyvandarlıq təsərrüfatları tərəfindən indi də istifadə edilən həmin köç yolu üzərində yüksək tarixi-mədəni dəyərə malik çox sayda abidəyə rast gəlinir. Bu yolun Azərbaycanın mədəni sərvətlərinin qiymətli nümunələri sırasında özünəməxsus yeri vardır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və Azərbaycanın mədəni irsi üçün əhəmiyyətini nəzərə alaraq, köç yolunun yerləşdiyi ərazinin qorunması, vahid idarəetmə modelinin yaradılması və burada turizmin inkişaf etdirilməsi məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının "Xınalıq" Dövlət Tarix-Memarlıq və Etnoqrafiya Qoruğunun ərazisi və Qusar, Quba, Şamaxı, Qobustan, Abşeron və Hacıqabul rayonlarından keçən tarixi köç yolunun ərazisi "Xınalıq və Köç yolu" Dövlət Tarix-Mədəniyyət və Etnoqrafiya Qoruğu (bundan sonra – Qoruq) elan edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti beş ay müddətində:

2.1. Qoruğun sərhədlərini və mühafizə zonasını müəyyənləşdirib təsdiq etsin;

2.2. Qoruğun ərazisinin xüsusi rejimini müəyyən edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi:

3.1. Qoruğun idarə olunmasını təmin etsin;

3.2. bu Sərəncamdan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**4.** Qoruğun fəaliyyətinin təmin edilməsi ilə bağlı tələb olunan zəruri xərclərin maliyyələşdirilməsi Azərbaycan Respublikasının dövlət büdcəsində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi üçün nəzərdə tutulmuş vəsait hesabına həyata keçirilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 4 sentyabr 2023-cü il**

# Hərbi qulluqçulara orden və medallar təqdim olunub



**Dövlət Sərhəd Xidmətinin hərbi hissələrində Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin olunması, dövlət sərhədlərinin mühafizəsi və müdafiəsi zamanı xüsusilə fərqləndiklərinə görə və Azərbaycan Sərhəd Mühafizəsinin 104-cü ildönümü münasibətilə Prezident, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyev tərəfindən təltif olunmuş hərbi qulluqçulara orden və medallar qurumun rəisi general-polkovnik Elçin Quliyev tərəfindən təqdim edilib.**

Bu münasibətlə təşkil olunmuş təntənəli mərasimlərdə Azərbaycan sərhədçilərinin istənilən döyüş tapşırığını bundan sonra da şərəflə yerinə yetirəcəklərinə, müqəddəs torpaqlarımızın müdafiəsini və mühafizəsini böyük əzm və fədakarlıqla təmin edəcəklərinə, Prezident, Silahlı Qüvvələrin müzəffər Ali Baş Komandanı İlham Əliyevin əmrlərini ən yüksək səviyyədə icra edəcəklərinə əminlik ifadə olunub.

**XQ**

## Xanlar Vəliyev Naxçıvanda hərbçilərlə görüşdü

**Baş prokurorun müavini-Hərbi prokuror, ədliyyə general-leytenantı Xanlar Vəliyev, müdafiə nazirinin müavini general-polkovnik Kərəm Mustafayev, eləcə də Hərbi Prokurorluğun və Müdafiə Nazirliyinin səlahiyyətli şəxsləri Naxçıvanda yerləşən hərbi hissələrdə qulluqçularla görüşüblər.**



Hərbi Prokurorluğun Mətbuat xidmətindən XQ-yə bildirilib ki, Hərbi prokuror Xanlar Vəliyev 2023-cü ilin "Heydər Əliyev İli" olduğunu vurğulayaraq, nəhəng şəxsiyyətin dünya tarixindəki rolundan, eləcə də milləti və Vətəni qarşısındakı müstəsna xidmətlərindən bəhs edib.

Ardınca hüquqi maarifləndirici mövzularda çıxışlar olunub, hərbi qulluqçuları maraqlandıran suallar cavablandırılıb, üzərilərinə düşən vəzifələri nümunəvi icra etməklə xidmətdə fərqlənənlərə qiymətli hədiyyələr təqdim edilib.

**XQ**

## İƏT-in nümayəndə heyəti Gəncədə



**Ölkəmizdə səfərdə olan İslam Əməkdaşlıq Təşkilatının Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının sədri Muhammad Laval Sulaimanın rəhbərlik etdiyi nümayəndə heyəti növbəti birgə faktaraşdırıcı missiyanı 44 günlük Vətən müharibəsi dövründə Ermənistan silahlı qüvvələri tərəfindən raket hücumlarına məruz qalmış Gəncə şəhərində həyata keçirib.**

Nümayəndə heyətinin üzvləri müharibə dövründə beynəlxalq humanitar hüququn qaydalarına zidd olaraq yaşayış məntəqələrinin atəşə tutulması faktları ilə yerində tanış olublar.

Nümayəndə heyətinin üzvləri Ermənistan silahlı qüvvələrinin raket hücumları nəticəsində zərərçəkmiş sakinlərlə görüşüblər. Qonaqlara İkinci Qarabağ müharibəsi zamanı Ermənistan tərəfindən qadağan olunmuş silahlardan istifadə etməklə mülki əhaliyə qarşı törədilmiş, çoxsaylı insan itkisi və ciddi dağıntılarla nəticələnən müharibə cinayətləri barədə məlumat verilib.

İslam Əməkdaşlıq Təşkilatı Müstəqil Daimi İnsan Hüquqları Komissiyasının sədri Muhammad Laval Sulaiman Deyib:

– Biz Gəncəyə edilən amansız raket hücumunun fəsadlarının şahidi olduq. Bu dağıntıların bir sübut kimi saxlanılması məsləhət görürəm. Biz bu raket hücumları nəticəsində həlak olmuş insanlara Allahdan rəhmət diləyirik. Bu, bəşəriyyətə qarşı törədilmiş cinayətdir.

Daha sonra qonaqlar Ermənistan silahlı qüvvələrinin raket hücumları nəticəsində zərər dəymiş "İmamzadə" ziyarətgah kompleksində monitorinq apariblar.

**XQ**

# Azərbaycan – İsrail dostluğu tarixin sınaqlarından çıxıb

**Dünən Milli Məclisin Sədri Sahibə Qafarova İsrail–Azərbaycan parlamentlərarası əlaqələr üzrə dostluq qrupunun üzvləri – Yevgeni Sova, Osher Şkalim, Tatiana Mazarski və Almoq Koheni qəbul edib.**



Görüşdə Azərbaycan və İsrailin dost və tərəfdaş ölkələr olduğu diqqətə çatdırılıb, ölkələrimiz arasındakı fəal siyasi dialoq, yüksək səviyyəli səfər və görüşlərin münasibətlərin inkişafında müstəsna rolu vurğulanıb. Eyni zamanda, azərbaycanlılar və yəhudilərin əsrlər boyu sülh, dostluq və qarşılıqlı anlaşma şəraitində birgə yaşadıqları qeyd edilib.

Görüşdə, həmçinin Azərbaycan və İsrail parlamentləri arasında əməkdaşlıq məsələləri müzakirə olunub. Qanunverici orqanlarımız arasında münasibətlərin inkişafında dostluq qruplarının fəaliyyəti, parlament üzvlərinin qarşılıqlı səfərlərinin əhəmiyyəti diqqətə çatdırılıb.

***

Həmin gün Milli Məclisin Azərbaycan-İsrail parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Anatoliy Rafailov və qrupun üzvləri ölkəmizdə səfərdə olan İsrail–Azərbaycan parlament dostluq qrupunun üzvü Yevgeni Sovanın rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən XQ-yə bildirilib ki, Anatoliy Rafailov Azərbaycanla İsrailin dost dövlətlər olduğunu, iki ölkə arasında münasibətlərin yüksələn xətlə inkişaf etdiyini söyləyib. O, 44 günlük Vətən müharibəsi zamanı İsrailin dəstəyini yüksək dəyərləndirib.

İsrail–Azərbaycan parlament dostluq qrupunun üzvü Yevgeni Sova dövlətlərimiz və xalqlarımız arasında olan dostluq münasibətlərini məmnunluq doğurduğunu qeyd edib, ölkəsinin müxtəlif sahələrdə Azərbaycanla əməkdaşlıqda maraqlı olduğunu söyləyib.

***Ə.BƏDƏLOV,***
**XQ**

## Müdafiə Nazirliyi

## Mövqelərimiz Kəlbəcər və Naxçıvanda atəşə tutulub

**Sentyabrın 4-ü saat 07:20-də Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Yellicə yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan atəşə tutub.**

***

Dünən saat 09:50-də Ermənistan silahlı qüvvələrinin bölmələri Dəvəli rayonunun Arazdəyən yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad yaşayış məntəqəsi istiqamətindəki mövqelərini atıcı silahlardan atəşə tutub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, hər iki halda ordumuzun bölmələri tərəfindən cavab tədbirləri görülüb.

## Xocavənd istiqamətində səngər qazmaq cəhdi

**Sentyabrın 4-ü saat 11:20-də Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Havuş yaşayış məntəqəsi istiqamətində yerləşən mövqeləri Ermənistan silahlı qüvvələrinin üzbəüz istiqamətdəki bölmələri tərəfindən atıcı silahlardan atəşə tutulub. Ordumuzun bölmələri qeyd olunan istiqamətdə cavab tədbirləri görüblər.**

Bundan başqa Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində fəaliyyət göstərən qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun Xocavənd rayonu istiqamətində yerləşən mövqelərinə yaxınlaşmaq məqsədilə yeni səngər yolları qazmağa cəhd göstəriblər.

Ordumuzun bölmələri görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan qazıntı işlərini dərhal dayandırıb.

## Döyüş hazırlığı yarışları



**Bu ilin hazırlıq planına əsasən, Azərbaycan Ordusunda döyüş hazırlığı həftəsi çərçivəsində tabor, bölük, divizion və batareya səviyyəsində yarışlar keçirilir.**

Bir neçə mərhələdə keçiriləcək yarışların əsas məqsədi bölmələrin döyüşə hazırolma vəziyyətini yüksək səviyyədə saxlamaq, hərbi qulluqçuların praktiki vərdişlərini təkmilləşdirmək və şəxsi heyətin sağlam rəqabət əzmini artırmaqdır.

**XQ**

# Lindsi Snell öz ampluasındadır

## Başabəla jurnalist-casus bu dəfə müzəffər ordumuza böhtan atıb

(əvvəli 1-ci səhifədə)

Qırx dörd günlük Vətən müharibəsində nəinki Ermənistan silahlı qüvvələri və Qarabağdakı qondarma rejimin "müdafiə ordusu", eləcə də Azərbaycana və bütün Türk dünyasına qənim kəsilən daşnaklar, dünya erməniliyi, sexakronizm (nasistləgiləyirlər: "Biz Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi olaraq, Azərbaycan jurnalistləri adından belə qarayaxma kampaniyasını pisləyir, bunu azad sözə və jurnalistikaya qarşı terror kimi qiymətləndirir, peşəkar prinsipləri rəhbər tutaraq keçirilmiş və yalnız müa-



rin əlaltısı Qaregin Njdenin işləyib hazırladığı irqçiliyi təbliğ edən erməni millətçiliyi ideologiyası-S.H.) üzərində zəfər çalan Azərbaycan Ordusu haqqında ermənilərin pul kisəsindən asılı olan təbliğatçının bu cür fikirlər səsləndirməsi gözlənilən idi. Çünki ilk cümlədə qeyd etdiyimiz kimi, L.Snell bundan öncə də dəfələrlə Azərbaycana və Türkiyəyə böhtan atıb. Onun son qarayaxmalarından biri iyulun 21-23-də Şuşada keçirilən "4-cü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Qlobal Media Forumu ilə bağlı olmuşdu. O, sosial şəbəkə hesabında forumda iştirak edən xarici jurnalist və ekspertləri siyahısını dərc etmişdi. L.Snell beynəlxalq ictimaiyyəti forum iştirakçılarını təqib etməyə çağıraraq, onların reputasiyasına xələl gətirməyə çalışmışdı. Bunu onların, guya, "Qarabağda 120 min sakini bloklayan" ölkədə forumda iştirak etmələri ilə "əsaslandırmışdı". L.Snell, faktiki olaraq, forum iştirakçılarını təhdid etmişdi.

Qeyd edək ki, Prezident İlham Əliyevin tapşırığına əsasən, "Heydər Əliyev İli" çərçivəsində və Azərbaycan Milli Mətbuatının 148-ci ildönümü ilə bağlı keçirilən forumda 49 ölkədən 150 xarici qonaq, o cümlədən, dünyanın 34 ölkəsinin dövlət informasiya agentliyi, 12 beynəlxalq təşkilat və media strukturlarının təmsilçiləri iştirak etmişdilər. Bundan əlavə, 60 yerli media rəhbəri və nümayəndəsi də iştirakçılar arasında idi. Təbii ki, bu qədər xarici jurnalistin Şuşada keçirilən media forumunda iştirakını, işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və quruculuq işlərini öz gözləri ilə görmələrini, obyektiv, sağlam düşüncə nümayiş etdirmələrini, L.Snell, sadəcə olaraq, qəbul edə bilməzdi. Yeri gəlmişkən, qeyd edək ki, Medianın İnkişafı Agentliyi (MEDİA) avqustun 3-də forum iştirakçılarına qarşı sosial şəbəkələrdə aparılan təhdid kampaniyası ilə bağlı bəyanat yaymışdı. MEDİA-nın bəyanatında təəssüf hissi ilə bildirilirdi ki, forumun mahiyyətini bilərəkdən siyasiləşdirməyə çalışan Ermənistan hökuməti və ona yaxın dairələr öz məhdud merkantil maraqlarından çıxış edərək, bu mötəbər tədbirdə iştirak etmiş yüksək səviyyəli ekspertlər, beynəlxalq ictimai rəydə nüfuza malik olan jurnalistlər haqqında sosial şəbəkələrdə qarayaxma və nifrət kampaniyası aparır, onların reputasiyasına xələ salmağa cəhd edərək media etikası ilə heç bir halda uyuşmayan mövqe sərsir medianın problemlərinə, inkişaf perspektivlərinə həsr olunmuş forumun nifrət nitqinə alət edilməsinin yolverilməz olduğunu bəyan edirik".

***

Ümumiyyətlə, L.Snellin "jurnalistlik" fəaliyyəti xəbər istehsal etməkdən, yaradıcılıqla məşğul olmaqdan daha çox, Azərbaycan və Türkiyə əleyhinə fəaliyyət göstərmək üzərində qurulub. Bunun şahidi olmaq üçün onun ad-soyadını yazıb internetdə axtarışa vermək kifayətdir. Bu zaman qarşımıza çoxlu anti-Azərbaycan və anti-türk paylaşımı çıxacaq. Bütün hallarda görünür ki, jurnalistika onun üçün sadəcə, fon yaratmağa xidmət edir. O, 2016-cı ilin avqustunda Suriya ərazisindən Türkiyəyə qanunsuz daxil olarkən saxlanılıb. Elə həmin il hərbi qadağa zonasını pozmaq və casusluq ittihamı ilə həbs edilib. Müəyyən müddət həbsdə qaldıqdan sonra Türkiyənin müvafiq orqanları tərəfindən ölkədən deportasiya olunub.

İndi belə bir şəxsin Azərbaycan Ordusu haqqında hədyanlar yağdırması, əslində, bizim üçün təəccüblü olmamalıdır. İndiyədək Qərbdə müxtəlif ermənipərəst dairələr ordumuza böhtan atmışdılar. Ancaq L.Snellin yanaşması, "Mən hələ də Suriyaya gedirəm. İraq, Liviya, Fələstin, Ukrayna da daxil olmaqla, 30 ölkədən reportaj hazırlamışam, xəbərlər vermişəm. Onlarca orduya–hərbi qrupa, o cümlədən, terrorçuların arasına girmişəm. Lakin mən Azərbaycan Silahlı Qüvvələrində gördüyüm qədər zorakılıq və qəddarlığı heç yerdə görməmişəm", – deməsi, zənnimizcə, Azərbaycan Silahlı Qüvvələrinə atılan böhtanın "zirvə nöqtəsi"dir. Çünki bu, bir faktdır ki, Azərbaycan Ordusu 2020-ci ildə 44 günlük Vətən müharibəsini beynəlxalq humanitar hüququn bütün norma və tələblərinə riayət etməklə aparıb. Müharibə zamanı işğal olunmuş ərazilərdə qanunsuz məskunlaşan mülki şəxslərdən birinin də necə deyərlər, burnu qanamayıb. Ordumuzun əsir götürdüyü şəxslər alçaldılmayıb, qeyri-insani rəftara məruz qalmayıb. Ümumiyyətlə, humanizm Azərbaycan xalqının canında-qanında, genindədir. Ordu da xalqın bir parçasıdır. Belə bir xalqın ordusu başqa cür ola bilməz. Azərbaycan Ordusu ermənilərin Birinci Qarabağ müharibəsi zamanı Xocalı, Meşəli, Kərkicahan, Bağanis-Ayrım, Malıbəyli, Quşçular, Ballıqaya, Başlıbel kimi yaşayış məntəqələrimizdə törədilən müharibə cinayətlərinin qisasını döyüş meydanında alıb. İndi belə bir orduya ancaq Lindsi Snell kimi vicdan və ədalət hissini itirmiş şəxslər böhtan ata bilər. Ancaq o bilmədir ki, vicdanını pula satmış, ədalət hissini itirmiş, obyektivlikdən uzaq şəxslərin nə deməsinin, nəinki, Azərbaycanda, beynəlxalq ictimaiyyət yanında da çürük qoz qədər dəyəri olmayacaq.

Xanım Snell, heç olmasa, hərdən beynini işə salmalı, ayılmalı, hansı informasiya selində necə deyərlər, üzdüyünü anlamalı, erməni tərəfinin manipulyasiyalarına alət olmağı dayandırmalı və Qarabağda hansısa "blokada"nın, "humanitar fəlakət"in olmadığına, bölgədə 120 min nəfərin yaşamadığına əmin olmalıdır. Reallıq ondan ibarətdir ki, Azərbaycan Qarabağ iqtisadi rayonunun erməni sakinlərinin ölkə cəmiyyətinə yenidən inteqrasiyasında sadiqdir və onlara digər vətəndaşlar kimi bərabər hüquqlar təmin edəcəkdir.

*Səxavət HƏMİD,*
*XQ*

### Replika



**Azər HƏSRƏT,**
**siyasi şərhçi:**

– Lindsi Snell adlı bu qadın, əslində, jurnalist yox, böhtançıdır. Həm də anti-türk xarakterli. Şəxsən özüm onu yetərincə uzun müddətdir izləyirəm. Həmişə də görürəm ki, paylaşımları, yazıları bu və ya digər şəkildə, həm də açıq ifadələrlə türk millətinə qarşıdır. Belə anlamaq olar ki, onun arxasında anti-türk mərkəzlər – şəxslər dayanıb. Anti-türk deyəndə də ilk ağıla gələn erməni təbliğat maşınıdır. Bunu onun paylaşımlarından da açıq şəkildə görmək olur. Elə Qarabağ məsələsi ilə bağlı paylaşımları açıq şəkildə təktərəfli – erməni yönlü təbliğat xarakterlidir. Hətta, bir çox hallarda bu təbliğat paylaşımları ilk sözündən Lindsini ələ verir ki, o, kimlərinsə çirkin təbliğatına könüllü alət olub.

Son paylaşımlarından birində işlətdiyi ifadələr də onun nəyə xidmət etdiyini göstərir. Deyir ki, Suriyaya, Liviyaya, İraqa və Fələstinə gedib, oradakı silahlı qüvvələrin əməllərini görüb. Ardınca da iddia edir ki, "hələ də Azərbaycan Silahlı Qüvvələri və onun arxasındakı rejimdən gördüyüm qəddarlıq və nifrətin həddi ilə qarşılaşmamışam". İndi baxaq görək bu qadının iddia etdiyi qəddarlıq və nifrət özünü nədə göstərir? Yaxud da Azərbaycan Ordusu və "rejimi" onun iddia etdiyi kimi dinc erməni sakinlərini qırırmı, onların evlərini dağıdırmı? Axı İraq, Suriya, Fələstin, Livanda olduğu kimi Azərbaycanda belə faktlar yoxdur. Bəs necə olur ki, bu təbliğat aləti belə iddia irəli sürür? Əlbəttə ki, ona verilən tapşırıqları yerinə yetirmək üçün utanmadan ağ qara deyir. Deyir ki, ağaları səxavət dağarcıqlarının ağzını bir qədər də geniş açsınlar...



# Ermənistan dövləti: nə üçün yarandı və nə səbəbdən yox ola bilər?

## Yaxud "hay cəmiyyəti"nin düşüncə sistemindəki çatlara baxış

**Bir müddət əvvəl Ermənistanın baş naziri Nikol Paşinyan maraqlı açıqlama verimişdi. O bildirmişdi ki, ölkəsinə kadastr şəhadətnaməsi almaq istəyir. Hətta, məsələni gələcək nəsillər üçün dövlət mirası şəklində izah etmişdi. Bu, nə demək idi? Əslində, Paşinyan bildirirdi ki, onun ölkəsinə aid heç nə yoxdur. Əlbəttə, baş nazirin belə bir fikir söyləməsi Ermənistanda geniş ajiotaj doğurmuşdu. O qədər böyük səs-küy qalxmışdı ki, həmin dalğanın fonunda heç kəs Nikolun söylədiklərinin reallıq olduğunun fərqinə varmamışdı.**

***



Əvəz RÜSTƏMOV
evez.rustemov@gmail.com

Görəsən, Ermənistanın özününkü olan nəyi var? Heç nəyi. Ümumən, ölkənin heç nəyi olmadığından, bundan irəli gələn düşüncə tərzi də erməni varlığının alt şüuruna yol tapıb. Həqiqətən, yalnız özünə məxsus heç nəyi olmayan qövm yırtıcı kimi ətrafa hücum çəkməyə, nə isə qoparmağa, özününküləşdirməyə çalışar. Ermənilər də Qafqazın yırtıcılarıdır. Baxın, onların ölkələrinin konstitisiyasında qonşulara qarşı ərazi iddiası yer alır. Dünyada ikinci belə bir dövlət varmı? Yox!

Əlbəttə, regionumuzda nəhəng imperiyalar olub. Bu gün həmin imperiyaların varisləri qonşularına münasibətdə yaramaz mövqe tuturlarmı? Xeyr. Ən azından Ermənistan qədər iddialı deyillər. Çünki tarixdə yaşanmışların tarixdə qaldığı reallığı ilə qəbullanır, gələcəyə baxırlar. Ermənilər isə iddilar irəli sürməkdə pərgardırlar. Axı, dövlətçilik görməyiblər. Axı, özlərində nə isə olmayıb. Onlar üçün özününkülük hissi yaddır. Ona görə itirməyə heç nələri yoxmuş kimi davranırlar. Elə dövlətçiliyi itirmək də ermənilərə diskomfort hissi yaşatmır. Loru dildə deyək, sənin olmayanı itirməkdən niyə qorxasan ki?

***

O zaman, gəlin görək, Ermənistan adlı dövlətin mövcudluğunu zəruriləşdirən hansı amillər olub? Uydurduqları və artıq gülüş predmetinə çevrilmiş rəvayət və hekayələrmi?! Erməni ictimai şüurunun, belə demək mümkünsə, dərki platforması kilsədir. Onun yanaşma tərzi isə fundamentallıqdan uzaqdır. Tutalım, erməni kilsəsini dövlətçiliyin ideoloji məktəbi rolunda təsəvvürə gətirək. Görürük ki, təlqin etdiyi fəlsəfilikdən, yeni gerçək dövlətçilik ruhundan uzaq şeylərdir – nifrət, qəzəb, quldurluq, soyğunçuluq, qətllər və sair... Yəni, fəlsəfi əsasda üstünlük qazandıran dövlətçilik ruhu tipik erməni anlayışından uzaq məsələdir.

Əslində ermənilərə ideya-fəlsəfi çıxış nöqtəsi heç lazım da olmayıb. Oğurluqlar, quldurluqlar, qətllər gerçəkləşdirmək üçün nə fəlsəfə? Digər tərəfdən, erməni qövmünün dövlətçilik ruhuna sahiblənməməsinin bir səbəbi də millətin daxili dünyagörüşüdür. Ermənilər hər zaman çalışıblar ki, kimlərsə onlar üçün nə isə etsinlər? Bu gün də eyni xarakterdədirlər. Onu da deyək ki, elə həmin o kimsələr ermənilərı çox asanlıqla oyunlarına daxil edə biliblər. Baxın, erməni varlığının son iki yüz ilə yaxın müddətdəki fəaliyyəti kimlərinsə onlar üçün nəyisə etməsinin doğurduğu mənzərələr toplusudur. Daha doğrusu, söhbət kimlərinsə onlardan istifadəsinə dair "nümunələrdən" gedir. Maraqlıdır, əslində, faciəvi haldır ki, ermənilər həmin "nümunələri" də tarix kimi qələmə verirlər...

***

1830-cu ildə Cənubi Qafqaza "istifadə olunmaq" üçün köçürüldülər. Köçürüldülər ki, türk dünyası arasında xristian bufer zonası yaransın. "Plan" Qərbdə işlənilmişdi. Məqsəd Osmanlı dövlətini zəifləmək, onun açılım nöqtələrinin qarşısını kəsmək idi. Bu, Rusiyaya da sərf edirdi, fars şovinizminə də. Və "plan" kifayət qədər yaxşı işlədi. O qədər yaxşı işlədi ki, erməni qövmü 1918-ci ildə dövlət qazandı. Azərbaycanın əzəli və əbədi torpaqları, qədim türk yurdları hesabına formalaşmış bir dövlət.

...Özünə aid olmayana sahiblənmək iddiasını içində daşıyan erməni qövmü əldə olunmuşlarla kifayətlənmədi, yeni torpaqlar ələ keçirməyə qalxdı. Elə o zamandan XX əsrdə Azərbaycanla münaqişənin, belə demək mümkünsə, yeni "əsasları" meydana çıxdı. Bu münaqişə SSRİ-nin yarandığı ilk illərdə daha bir ulu türk yurdunun–Zəngəzurun Ermənistana güzəştə gedilməsi ilə "ahəngdarlıq" qazandı. Növbədə isə Qarabağ idi.

Nəhayət, XX əsrin sonlarına doğru sabiq SSRİ-nin süqutu yeni reallıqlar doğurduğu kimi, ermənilərin Qarabağ avantürasına da məxsusi "çalarlar" qazandırdı. Həmin "çalarlara" göredir ki, Azərbaycan xalqı otuz ilə qədər davam etmiş işğalla üzləşdi. İşğal Türk dünyası qarşısındakı bütövləşmə maneələrini dərinləşdirdi. Deməli, haqqında söz açdığımız "plan" daha "məhsuldar" oldu.

***

Zaman ötdü. Azərbaycan gücləndi. Bu güclənmə, bütövlükdə, Türk dünyasının təşəkkülü müstəvisində getdi. Diqqət yetirək, ölkəmizin möhtəşəm zəfəri ilə başa çatmış 44 günlük müharibədən sonra sözügedən trayektoriya fərqli şəkil aldı. Bu şəkillənmənin adı Zəngəzur dəhlizidir. Zəngəzur dəhlizi, mahiyyətcə vaxtilə türk dünyasının bütövləşməsinə qarşı çıxarılmış "erməni pazının" aradan qaldırılmasını diktəyə çevirir.

Amma bu gün pis-yaxşı Ermənistan dövləti var. Azərbaycan 2020-ci ilin müharibəsindən sonra Ermənistanı, faktiki olaraq, "pazlıqdan" çıxmağa çağırır. İrəvan bunu anlamır, yaxud anlamaq istəmir. Üstəlik, Bakı İrəvana Zəngəzur dəhlizində iştirak təklif edir. Yenə də xeyri yoxdur. Deməli, Ermənistan dövlətçiliyi üçün böhran qaçılmazdır. Böhran həm də ona görə qaçılmazdır ki, erməni cəmiyyəti də məsələnin mahiyyətini anlamır. Anlamır ki, vaxtilə erməni dövlətinin varlığını zəruriləşdirən səbəb bu gün yoxdur.

Erməni cəmiyyəti onu da dərk edə bilmir ki, hazırda türk dünyası qlobal faktordur və Ermənistan onun qarşısında dayanmaq üçün çox xırda, əzib-keçilməsi asanlıqla mümkün olan maneədir. Erməni cəmiyyəti miflərin, əsatirlərin, rəvayət və hekayələrin təsirindən çıxmağı bacarmır. O cəmiyyət hələ də Tiqran, Njde, Aşot kimi yolkəsənləri, Andranik kimi tayqulaq cəlladları qəhrəman qiyafəsində görür. Bu qövm üçün saxta tarix, sərsəmliyi gələcəyə daşımaq vasitəsi olduğundan, vəziyyətlə barışa bilmir. Nəticə etibarilə Ermənistan cəmiyyəti daxilində baş verənlər aqonik mərhələyə çatır. Şovinist-revanşistlər, sanki içərilərində özlərinin oturduqları qazanın altını qalamaqla məşğuldurlar. Halbuki, obrazlı desək, onların həmin qazanın altından odunları götürmələri lazımdır.

***

Bəli, Ermənistan dövləti özünün məhvinə doğru gedir. Ermənilər isə bunu dərk etməyəcək qədər acınacaqlı durumdadırlar, iflic vəziyyətindədirlər. Bugünkü Ermənistan dövlətçilik təfəkkürünün işləmədiyi bir toplumun faciə yaşantısındakı dramatik tamaşanı xatırladır. O tamaşanı ki, onun ssenari müəllifi və quruluşçuları ölkədən kənardadırlar. Onlar öz qlobal oyunlarını oynamaqda israrlıdırlar və beləlari üçün bu coğrafiyada Ermənistan dövlətinin var olub-olmayacağı heç bir əhəmiyyət daşımır. Erməni cəmiyyətinin isə bu biganəliyə qarşı çıxacaq nə ideoloji sistemi, nə də həmin sistemə bağlı daxili müqavimət hissi var. Onda olan yalnız budur – sabun köpüyü.

*Əvəz RÜSTƏMOV,*
*XQ*

# Nümayəndə heyətimiz Çində görüşlər keçirib

**İqtisadiyyat naziri Mikayıl Cabbarovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti Çində səfər çərçivəsində bir sıra görüşlər keçirib.**



Mikayıl Cabbarovun Çin Xalq Respublikasının kommersiya nazirinin müavini Linq Ci ilə görüşündə Azərbaycanın müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində Çinlə fəal əməkdaşlıq etdiyi, Çinin ölkəmizin əsas ticarət tərəfdaşlarından biri olduğu və iki ölkə arasında ticarət, investisiya və nəqliyyat-tranzit sahələrində əməkdaşlıq əlaqələrinin durmadan inkişaf etdiyi diqqətə çatdırılıb. Tərəflərin məqsədi iqtisadi və ticarət əlaqələrini siyasi əlaqələrimizlə eyni səviyyəyə çatdırmaqdan ibarətdir.

Nazir müavini Linq Ci bildirib ki, Çin şirkətlərinin Azərbaycanda uğurlu fəaliyyəti məmnunluq doğurur və Çin şirkətləri Azərbaycanın biznes və investisiya mühitini dəyərləndirərək tərəfdaşlığı dərinləşdirməkdə maraqlıdırlar.

Nazir müavini qeyd edib ki, 2022-ci ilin əvvəlindən etibarən Azərbaycan onlayn ticarət evi Çinin e-ticarət landşaftının tanınmış platforması JD.com-da fəaliyyətə başlayıb. Azərbaycan məhsullarının bu platformada təmsil olunması Azərbaycan məhsullarının Çin istehlakçılarına çatmasında və daha çox tanıdılmasında əhəmiyyətli olacaqdır.

ÇXR-in sənaye və informasiya texnologiyaları nazirinin müavini Sin Quobin ilə görüşdə Çinin aparıcı şirkətləri ilə işgüzar dialoqun genişlənməsinin önəmi qeyd edilib, Azərbaycanın əlverişli biznes və investisiya mühiti, sərmayədarlar üçün yaradılan imkanlar, ölkəmizdə alternativ və bərpa olunan enerji sahəsində reallaşdırılan və perspektiv layihələr barədə məlumat verilib.

İqtisadiyyat naziri Çinə səfər çərçivəsində "Envision Energy" şirkətinin vitse-prezidenti Con Li ilə də görüşüb. Tərəflər alternativ enerji sahəsində yeni texnologiyaların tətbiqi, müvafiq avadanlıqlarla təchizat, sıfır emissiyalı sənaye parkının yaradılması məqsədilə əməkdaşlıq qurulmasını müzakirə ediblər.

Sentyabrın 4-də Pekin şəhərində CIFTIS sərgisi çərçivəsində təşkil olunan "Summit Forum on China's International Economic Cooperation - Going Global" tədbirində çıxış edən iqtisadiyyat nazirinin müavini Sahib Məmmədov ölkəmizin iqtisadi uğurları barədə məlumat verib.

*XQ*

# Paşinyan sülhə qarşı – Ermənistan yeni müharibə istəyir

## Nikolun “Qarabağ kartı” ilə oynamaq həvəsi, İrəvanın “Brüssel formatı”ndan imtinası və yeni separatçılardan gələn təhlükə

**Bəli, Ermənistan baş naziri Nikol Paşinyan göstərir ki, onun Azərbaycanın, Qarabağ da daxil olmaqla, ərazi bütövlüyünü tanımasına dair bir deyil, bir neçə dəfə səsləndirdiyi bəyanat yalnız spekulyativ səciyyə daşıyan sabun köpüyüdür. Nikol siyasi riyakarlığın zirvəsindədir. Baş nazirin İtaliyanın “La Repubblica” nəşrinə müsahibəsində səsləndirdiyi fikirlər bunu bir daha deməyə əsas verir.**



Birincisi, Ermənistan heç vaxt qondarma “Dağlıq Qarabağ Respublikasının” müstəqilliyini tanımayıb. Ona görə ki, ərazini özününkü sayıb. Ancaq Paşinyana qədərki iqtidarın təmsilçiləri məqsədlərini ört-basdır edib, vaxt udmağa çalışıblar. Nikol isə hakimiyyətə gələndən sonra “Qarabağ Ermənistandır və nöqtə” bəyanatını verdi. Nəticədə sonluğu Ermənistan və dünya erməniliyi üçün faciəyə çevrilmiş 44 günlük müharibə yaşandı. Bu, öz yerində.

Müharibədən sonrakı danışıqlar prosesində, daha doğrusu, Brüssel formatı çərçivəsindəki görüşlərdə Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bəyan etdi. Ancaq bu tanıma yalnız sözdə oldu. Gördük ki, İrəvan nizamlama prosesində sırf Qarabağ ermənilərinə yönəlik manipulyasiyalara baş vurur. Nəticə etibarilə hazırda danışıqların davamı üçün münbit zəmin, demək olar ki, yoxdur.

Nikolun “La Repubblica”ya müsahibəsindən gəlinən qənaət isə budur ki, guya, hazırkı duruma görə günahkar Azərbaycandır. Sən demə, ölkəmizin təmsilçiləri də erməni baş nazir kimi boşboğazlıq etməli imişlər. Yəni, biz də deməli idik ki, Ermənistanın müstəqilliyini tanıyırıq. Axı, tanımaq dildə yox, əməldə olur. Əməl isə sülh müqaviləsidir ki, bu da Qarabağdakı erməni avantürizminin davamının Ermənistan rəhbərliyi və dünya ermənipərəstləri tərəfindən dəstəklənməsi səbəbindən gerçəkləşmir. Paşinyan vəziyyəti gözəl anlayır.

İkinci məqamda söyləyəcəklərimiz, müəyyən mənada, indiyədək vurğuladıqlarımızın davamıdır. Nikol və onun komandası Qarabağ mövzusunda manipulyasiyalara yol verirsə, hesab edirik ki, Paşinyanın “La Repubblica”ya müsahibəsində səsləndirdikləri yaramazlığın və həyasızlığın pik həddidir. Hərçənd, daha böyük həyasızlıqların nəzərə çarpacağını da istisna etmirik.

Bəli, Paşinyan Azərbaycanın, Qarabağ da daxil olmaqla, ərazi bütövlüyünü tanımasına dair bütün söylədiklərini, faktiki olaraq, inkar edir. O, italyan müxbirin “Siz hesab edirsinizmi ki, Qarabağın Azərbaycanın olması, bu, məsuliyyətini dünyanın çəkməli olduğu məsələdir?” sualına cavabında bunları bildirir: “Dağlıq Qarabağda vəziyyət həmişə Dağlıq Qarabağ hakimiyyətinin nəzarətində olub. Hər halda, 2018-ci ildən sonra belə idi. Bugünkü duruma Dağlıq Qarabağın seçilmiş hakimiyyətinin nümayəndələri nəzarət edirlər. Rusiya sülhməramlıları da oradadırlar. Söhbət tamamilə başqa məsələdən gedir: əgər Ermənistan və Azərbaycan bir-birindən ərazi bütövlüyünü qarşılıqlı şəkildə Alma-Ata Bəyannaməsinə əsasən tanımırlarsa, bu, o deməkdir ki, sülh heç vaxt olmayacaq”.

***

Erməni baş nazirin ikiüzlüyünə tarixin ən böyük siyasi dələduzları da paxıllıq edə bilərlər. Deməli, o, əvvəlki mövqeyindən geri çəkilir. Buna bəhanə də uydurub: Azərbaycan Ermənistanın müstəqilliyini tanımırsa, Ermənistan da Azərbaycanın suveren haqlarını tanımır. Yəni, o cümlədən, Qarabağı da ölkəmizin ərazisi kimi qəbul etmək istəmir. Halbuki, məsələnin konstruktiv qoyuluşu belə olmalı deyildi. Nikol aşkar şəkildə Qərb tənzimlənməsi xəttinə qarşı çıxır. Yəni, ümumən, Cənubi Qafqazda sülhün olmasını istəmir.

Digər yandan, tutalım, Azərbaycan bildirə bilər ki, Ermənistanın 29,8 min kvadratkilometr ərazidə suveren haqlarını tanıyır. İlk baxışdan, bu, hazırda prinsip etibarilə heç nəyi dəyişmir. Ancaq baş nazir Nikol Paşinyanın əvvəl dediyi o anlama gəlirdi ki, Ermənistan ölkəmizə qarşı ərazi iddiasından geri çəkilir və bu deyimin davamı gəlməli idi, ancaq gəlmədi. Və indi Paşinyan Azərbaycandan 29,8 min kvadratkilometrlik ərazinin qəbul edilməsini istəyirsə, deməli, Qarabağ avantürasının davamı “ssenarisində” yalnız öz təhlükəsizliyini düşünür. Paralel olaraq, bölgədə erməni ambisiyalarının qalacağını göstərir. Nikolun səfehliyi isə ondadır ki, həmin ambisiyaların mövcudluğu şəraitində Azərbaycanın ona dinclik verəcəyini, yaxud veməli olacağını ağlına gətirir. Çox güman, xarici havadarlarına güvənir. Bütün dünya onun güvəndiyi dağlara qarın necə yağdığını 2020-ci ildə yaxşı gördü...

Daha bir məqama nəzər salaq. Paşinyan 2018-ci ildən danışır. Demək istəyir ki, 2018-ci ilədək Qarabağ Ermənistandakı iqtidarın təsir zonası olub. Həmin ildən sonra isə guya, müstəqilləşib. Sən demə, seçilmiş hakimiyyəti də var imiş. Nikol həmin hakimiyyəti separatçı quruluş kimi qəbul etmədiyini ortaya qoyur. Nəhayət, Paşinyan göstərmək istəyir ki, Qarabağ müstəvisindəki problem bölgənin “seçilmiş hakimiyyəti” ilə Azərbaycanın arasında olan məsələdir. O zaman sual yaranır: bir halda ki, 2018-ci ildən sonra Qarabağda “seçkili hakimiyyət” olub, 2019-cu ildə “Qarabağ Ermənistandır və nöqtə” bəyanatını verən kim idi?

***

Ermənistan baş nazirinin onsuz da qeyri-ciddi olan siyasətçi obrazına yeni “rəng çalarları” qatan səbəb nədir? Birincisi, Paşinyan xəstə erməni cəmiyyətinin revanşist-şovinist baxışlar sisteminə təsir göstərə bilmir. Hazırkı dövrdə onun, bu xəstəliyin ayrı-ayrı təzahürlərinə diqqət yetirib müsbət anlamda ara-sıra söylədikləri, dilə gətirdiyi obyektiv reallıqlar, ən yaxşı halda, onun məsələyə ziyalı və publisist münasibətdir, siyasətçi baxışı deyil. Yəni, siyasətçi Paşinyanla jurnalist Paşinyan arasında fərq böyükdür. İkinci xeyli mütərəqqidir.

Eyni zamanda, bildirməliyik ki, Nikol hakimiyyətini itirməkdən qorxur. Ona görə “Qarabağ kartı”na güc verir. Çalışır ki, xəstə təfəkkürlülərin məntiqi ilə getsin. Özünü daha xəstə adam kimi aparsın. Yəni, Roma papasından daha çox katolik olmaq eşqinə düşür. Hesab edir ki, bu ritorika ilə üzərindəki təzyiqlərdən kənar dayanmağı bacaracaq.

Bəli, Paşinyan Qarabağ müstəvisində avantüristlərin qol-qanad açmasına imkan yaradır. Ancaq xəbəri yoxdur ki, obrazlı desək, saat mexanizmli bombanın üzərində oturub. Çünki hazırda Ermənistanda və Qarabağda erməni separatçılarının hələ də qaldığı ərazilərdə gedən proseslər və son dəyişikliklər əvvəlki Koçaryan-Sarkisyan xuntası xəttinin güclәndiyini göstərməkdədir. Nikol, bir növ, həmin xuntaya başını qatmaq üçün “yem” verir ki, özünə dəyib-dolaşan olmasın. Nəzərə alaq ki, istefa vermiş Arayik Arutyunyan da Koçaryan-Sarkisyan qruplaşması ilə bağlı olsa da, zəif idi. Yeni separatçılara gəldikdə isə onlar radikallıqları ilə seçilirlər və daha çox əvvəlki separatçıbaşılar Arkadi Qukasyanın və Bako Saakyanın xəttinin davamında israrlıdırlar.

Bəli, N.Paşinyan anlamır ki, Arayikin yerinə gələnlər onun özü üçün də təhlükə mənbəyidirlər. Hər bir halda, indiki vəziyyət onu deməyə əsas verir ki, Nikolun sülh müqaviləsindən, Bakı ilə normallaşma prosesindən yayındıranlar elə Qarabağda gərginliyi artıranların, o cümlədən, yolların açılmasının qarşısına sədd çəkənlərin, sabotajçıların özləridir. Bütün bunlar “Qarabağ kartı” üzərində Ermənistanda hakimiyyət çevrilişinə hazırlığın getdiyinin göstəriciləridir. Deməli, tarixin təkrarlanması mümkündür...

***

Sonda onu da deyək ki, Azərbaycan güclüdür. Qarabağ müstəvisindəki oyunlardan, gizli məqsəd və məramlardan yaxşı xəbərdardır. Ölkəmiz, həmçinin özünün prinsipial dəst-xəttinə sadiqdir. Heç bir halda, mövqeyindən geri çəkilməyəcək. Paşinyan da yuxarıda göstərdiyimiz qeyri-ciddi və ikiüzlü yanaşmaları ilə heç nəyə nail ola bilməyəcək.

Ancaq Nikola bir məqamda, belə demək mümkünsə, bəraət qazandırmaq mümkündür. O məqamda ki, özünün gücsüzlüyünü görür və ona görə Qarabağ amilinin daxili-siyasi ritorikada, o cümlədən, separatçılıq xətti üzrə güclənməsinə qarşı çıxmağı bacarmır. Çalışır ki, yaranacaq yeni durumda Azərbaycan sərt tədbirlərə əl atsın. Bir halda ki, avantürizmi xoşluqla aradan qaldırmaq mümkünsüzdür, o zaman güc dövriyyəyə girməlidir. Necə ki, 2020-ci ildə girdi...

Ancaq qeyd etdiyimiz, necə deyərlər, bəraət məqamı çıxış yolu sayıla bilməz. Çıxış yolu prinsipial davranmaq, sözünün üstündə dayanıb sülh missiyasını davam etdirməkdir. Nikol və tərəfdarları onu da düşünməlidirlər ki, siyasət uşaq oyunu deyil. Bu meydanda yol verilən heç bir səhv cəzasız qalmır. Bu gün Azərbaycan əsgəri çox rahatlıqla Ermənistan adlanan ərazini görürsə, onun gördüyü, eyni zamanda, Qarabağdakı separatçılıq meyillərinin davamına dəstək verən, onu təchiz edən ərazidir. O ərazinin müstəqil dövlət olub-olmamasının hansısa əhəmiyyəti yoxdur. Təhlükə gələn yerlər məhvə məhkumdur.

Deməli, belə nəticəyə gəlirik ki, Azərbaycan əsgərinin gözlə gördüyü, müşahidə apardığı ərazini, yəni Ermənistanı dövlət kimi tanımamağımızın səbəbi var. Digər tərəfdən, bir ölkənin ki, on min hərbçisi Qarabağdadır, deməli ona təhlükə mənbəyi, hədəf kimi baxmağımız leqaldır. Yaxşı olar ki, nəinki N.Paşinyan və tərəfdarları, komandasının üzvləri, bütövlükdə, erməni siyasi istableşmenti, bu cameənin tör-töküntüləri mövcud məqamı çox ciddi şəkildə, özü də təxirə salmadan düşünsünlər. Çünki vaxt daralır. Sabah düşünmək şansı olmaya da bilər.

***Ə.CAHANGİROĞLU, XQ***

# BBC, Rasmussen və erməni lobbisinin pul dağarcığı

## Qlobal media korporasiyası öz nüfuzunu hərraca çıxarıb

**Ermənistanın və dünya erməniliyinin təbliğat maşını var gücü ilə Azərbaycan əleyhinə işləyir. Təəssüf ki, özünü müstəqil, qərəzsiz, obyektiv adlandıran bir sıra transmilli media korporasiyaları da bu prosesə alət olublar. Xüsusilə mərkəzi ofisi Londonda yerləşən BBC korporasiyası və Praqadan yayımlanan “Azadlıq Radiosu” bu işdə xüsusi canfəşanlıq göstərir. Onların əksər hallarda qərəzli olduğunu bildiyimiz üçün yazdıqlarına, hazırladıqlarına, hardasa, reaksiya verməmək olardı. Ancaq məsələ ondadır ki, bu materiallar internetdə yayıldıqdan sonra arxivləşir. Sonra isə ermənipərəst dairələr üçün istinad mənbəyi rolunu oynayır.**

BBC-yə istinad edərək, yalanlarını tirajlayan şəxslərdən biri də Ermənistanın pul kisəsindən asılı olduğu heç kimdə şübhə doğurmayan NATO-nun sabiq baş katibi Anders Foq Rasmussendir. O, bugünlərdə “X” sosial şəbəkəsində “BBC Nyus” müxbirinin Ermənistanın Azərbaycanla sərhədyanı bölgəsində əyləşib Qarabağ iqtisadi rayonunda yaşayan ermənilərin vəziyyətinə dair hazırladığı yazıdan sitat paylaşıb. Halbuki, həmin yazı başdan-ayağa ermənilərin söylədikləri yalanlar əsasında hazırlanıb. Bu materiala baxanda adamda BBC-ni deyil, Ermənistan mediasını oxuduğu qənaəti yaranır. Yeri gəlmişkən, Azərbaycan tərəfinin fikirlərinə ötəri yer verən BBC daha çox ermənilərin vəziyyətindən bəhs edib. Reportajda ermənilərə təklif olunan Ağdam-Xankəndi yolundan söz açılmayıb. Bundan başqa, Laçın–Xankəndi yolundan Beynəlxalq Qırmızı Xaç Komitəsinin qaçaqmalçılıq etdiyi, Rusiya sülhməramlılarının qanunsuz erməni silahlı dəstələrinə silah-sursat daşıdığı da qeyd edilməyib.



Məsələyə Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev də münasibət bildirib. Hikmət Hacıyev NATO-nun keçmiş baş katibi Anders Foq Rasmussenin Ermənistan hökumətindən pul almasını ifşa edib, həmçinin BBC-ni qərəzli olmaqda suçlayıb. “X” sosial şəbəkəsində etdiyi paylaşımda Hikmət Hacıyev yazıb: “Pullar danışır” seriyasından! Göründüyü kimi, Avropanın ən dəhşətli, qanlı və cinayətkar separatçı qurumu olan qondarma “dqr”in “yubileyi” ərəfəsində Ermənistan hökumətinin və erməni lobbi qruplarının göstərişi ilə yeni dramatik dezinformasiya və manipulyasiya kampaniyasına start verilib. Biabırçılıq olsa da, NATO-nun sabiq baş katibi təbliğat kampaniyasına görə Ermənistan hökumətindən pul aldığını inkar etmir. Bəzi siyasətçilər riyakarlıqla dünyanı “yaxşı və pis separatçılar və cinayətkarlar”a bölürlər. Köhnə vərdişlərdən imtina etmək çətin olur!

Amma narahatlıq doğuran odur ki, BBC öz Nizamnaməsində “bütün materiallarında lazımi qərəzsizliyə nail olmağa sadiq olduğunu, bu öhdəliyin reputasiyaları, dəyərləri və tamaşaçıların etimadı üçün əsas” olduğunu bildirsə də, birtərəfli və qərəzli aqressiv manipulyasiya və yalan təbliği ilə məşğuldur. O cümlədən, “Kontekst” proqramında da yalanı təbliğ edir. BBC bütün səslər, xüsusən də həssas mövzular üçün platforma rolunu oynamalıdır”.

Hikmət Hacıyev NATO-nun sabiq baş katibinin hansı mənbələrdən vəsait aldığına dair bəyannaməni də paylaşımına əlavə edib.

***

Qeyd edək ki, bu, Anders Foq Rasmussenin ermənilərin marağından çıxış edərək atdığı ilk adddım deyil. Rasmussen NATO-nun baş katibi vəzifəsindən getdiyi 2014-cü ildə “Rasmussen Global” adlı beynəlxalq siyasi konsaltinq şirkətini təsis edib. Şirkətin mənzil-qərargahı Kopenhagendə yerləşir. Brüssel, Berlin, Vaşinqton və Londonda ofisləri var. Şirkət təhlükəsizlik siyasəti, Transatlantik əlaqələr, qlobal siyasət, Avropa İttifaqı, enerji, kritik xammal və kosmosla bağlı məsələlər üzrə strateji “məsləhətlər” verir.

Hikmət Hacıyevin paylaşımına əlavə etdiyi bəyannamə ilə tanış olduqda da Rasmussenin qurucusu olduğu təşkilatın dördüncü əsas müştərisinin Ermənistan Respublikası olduğunu görmək mümkündür. Bu ilin əvvəlində isə Avropa İttifaqının şəffaflıq reyestrinin saytında “Rasmussen Global” şirkətinə aid “Cari maliyyə ilində müştərilər” bölməsində isə Errmənistanın ikinci əsas müştəri olduğu qeyd olunmuşdur. Reyestrin əhatə etdiyi fəaliyyətlərə görə illik gəlirin təxminən 425-799 min avro olduğu bildirilir. Ermənistan, artıq qeyd etdiyimiz kimi, təşkilatın dördüncü əsas müştərisi olmaqla bu vəsaitin böyük hissəsinin formalaşmasına vəsilə olur. Bu mənada, İrəvanın əsas müştərilərindən biri olduğu təşkilatın qurucusunun Azərbaycanla bağlı belə hədyan və böhtan yağdırması başadüşüləndir.

Rasmussen bu ilin yazında Ermənistana səfər etmişdi. Oradan isə Azərbaycanla sərhədə gəlmiş, burada Ermənistan bayrağı fonunda fotolar çəkdirərək, sosial şəbəkədəki hesablarında yerləşdirmişdi. Səfərlə bağlı təəssüratlardan ibarət yazıda isə növbəti dəfə Azərbaycanın ünvanına hədyanlar səsləndirmişdi. Qeyd edək ki, həmin vaxt Laçın–Xankəndi yolunda ekofəalların aksiyası keçirilirdi. Rasmussenin yazısında həm aksiya, həm də Ermənistan–Azərbaycan münasibətləri ilə bağlı həqiqətə uyğun olmayan fikirlər yer almışdı. O, cızma-qarasında Qarabağ iqtisadi rayonunda “humanitar böhran” yaşandığını, bunun “humanitar fəlakət”ə çevrilə biləcəyini iddia etmişdi. Avropa və daha geniş beynəlxalq ictimaiyyəti “blokada”nın aradan qaldırılması üçün Azərbaycana təzyiq etməyə çağırmışdı.

2022-ci ilin sentyabrda rəsmi İrəvanın törətdiyi hərbi təxribatı Azərbaycanın Ermənistan ərazilərini ələ keçirməsi cəhdi adlandıran, öz qoşunlarını Ermənistan ərazisindən (?) çıxarmadığını bildirən sabiq baş katib iki ölkə arasında yeni müharibəyə gətirib çıxara biləcək gərginliyin artdığını vurğulamışdı. Həmçinin Vətən müharibəsinin başa çatmasından sonra Xocavənd rayonu ərazisində kəşfiyyat-diversiya əməllərinə görə saxlanılmış və barələrində məhkəmənin hökm çıxardığı erməni yaraqlılarını “hərbi əsirlər” kimi təqdim edərək, Azərbaycanı onları qaytarmaqdan imtina etməkdə suçlamışdı.

Bunu xatırlatmaqda məqsədimiz Rasmussenin qərəzli və ermənilərdən maddi baxımdan asılı olduğunu göstərməkdir. Bu mənada obyektivlik hissini itirmiş avropalı pensiyaçının Azərbaycanla bağlı böhtançı fikirləri təəssüf doğursa da təəccüblü deyil.

***Səxavət HƏMİD, XQ***

### Ekspert rəyi



**Yeganə HACIYEVA, politoloq**

– Ermənistan NATO-nun qarşıdurma şəraitində olduğu hərbi qurumun – Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının üzvüdür. Bu mənada NATO-nun sabiq baş katibinin, indi də təşkilatdan yüksək pensiya alan şəxsin alyansın rəqibi olan KTMT-yə üzv ölkənin hərbi imkanlarının genişləndirilməsinə, beynəlxalq müstəvidə mövqelərinin möhkəmlənməsinə çalışması, əslində, ilk növbədə onun NATO dəyərlərinə hörmətsizliyidir. Digər tərəfdən, Rasmussenin ermənilərin lobbiçiliyini apardığı “Rasmussen Global” şirkətinin əldə etdiyi bilgiləri, resursları bu gün NATO-nun ziddiyyətdə olduğu bir ölkə üçün xərcləyir. Bunu da maddi maraq müqabilində edir. Burada da maraqların toqquşması qeydə alınır. Deməli, Rasmussen maddi maraq qarşılığında uzun illər xidmət etdiyi və bu gün də pensiya aldığı təsisata, yəni NATO-ya xəyanət edir. NATO-nun maraqlarını şəxsi korporativ maraqlarına qurban verir.

Digər tərəfdən nəzərə almaq lazımdır ki, Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasına mühüm töhfə verir. Rusiya-Ukrayna müharibəsinin başlanmasından sonra Avropanın Azərbaycanın enerji resurslarına tələbatı daha da artıb. NATO-nun sabiq baş katibinin mövqeyi həm də Avropanın maraqlarına ziddir.

BBC korporasiyası isə faktiki olaraq, öz maraqları, erməni lobbisi ilə əməkdaşlıq naminə Qarabağdakı separatizmi dəstəkləyir. Onların bu yanaşması son dərəcə təhlükəlidir və sadəcə, Azərbaycanla məhdudlaşmır. Bu yanaşma domino effekti verərək, ümumilikdə dünya nizamını sıradan çıxara bilər.

# BBC-nin erməni separatizminə xidmət "tərəfsizliyi"

## *Media qurumunun tutduğu yol jurnalistika prinsiplərinə aşkar həqarətdir*

**(əvvəli 1-ci səhifədə)**




Bəli, belə görünür, BBC üçün ədalətli davranmaq, haqq yolunu tutmaq çox çətindir. Dünya ermənipərəstliyin əsiri olduğu kimi, bu media qurumu da "ənənəvi trenddən" kənarda qalmağı bacarmır. Hikmət müəllimin təbirincə desək, reputasiyasını, dəyərlərini və tamaşaçı etibarını erməni avantürizminə qurban verir. Görəsən, belə davranmağa dəyərmi? Sualımız ritorikdir. Əlbəttə, dəyməz.

Dediyimiz kimi, BBC-nin riayət etmədiyi jurnalistika prinsiplərini bir kənara qoyuruq. Bəs, görəsən, bir qayda olaraq, Britaniya dövlətçiliyinin maraqlarından çıxış edən nəhəng media sindikatı necə olur ki, cılız erməni maraqlarının girovuna çevrilir? Bu sual da ritorikdir.

H.Hacıyevin bildirdiyi kimi, BBC həssas mövzularda etibarlı platforma rolunu oynamalıdır. Ümid edək ki, Prezidentin köməkçisinin söylədiyi nə vaxtsa reallığa çevriləcəkdir. İndilik bundan əsər-əlamət yoxdur. Suallar isə həddən artıq çoxdur və onların hamısının üzərində dayanmadan Mətbuat Şurasının etiraz bəyanatına keçid alaq.

***

Bəli, sənəddə bildirilir ki, BBC-nin yolverilməz fəaliyyəti dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə təhdidi adiləşdirir, normaya çevirir, dünyanın müxtəlif bölgələri üçün də son dərəcə təhlükəli presedent yaradır. Bu, sülhə və əminamanlığa, asayişə və firavanlığa yad təmayüldür: "Dünyada məşhur, jurnalist etikası sahəsində örnək sayılan media qurumunun avantürist siyasətin alətinə çevrilməsi böyük təəssüf hissi doğurur".

Bəli, BBC-nin tutduğu yol separatçılıq üçün leqallıq libası biçməkdən başqa bir şey deyil. Heç şübhəsiz, bu libas erməni avantürizmi üçün ayrıca illüziya mənbəyidir. Media qurumunun məqsədi, ümumən Ermənistadakı illüziya bataqlığını dərinləşdirməkdirsə, o zaman buyurub yaramaz dəst-xəttini davam etdirə bilər, bu, öz yerində.

***

Amma bir məqam var. BBC bir müddət əvvəl Qarabağdakı separatçılığın Rusiyanın bəzi dairələrinin əli ilə "hərəkətə gətirilən" cinahını təmsil edən Ruben Vardanyanı efirinə çağırmışdı. Daha doğrusu, Ruben telekanalın "Hard talk" verilişinə onlayn qoşulmuş və biabır olmuşdu. O zaman aparıcı, kifayət qədər, açıq mətnlə Vardanyanın bölgədə separatçı fəaliyyət göstərdiyini nəinki onun üzünə vurmuş, sözün əsl mənasında çırpmışdı. Telekanalın efirinə çıxan separatçı gülünc duruma düşmüşdü.

Aydın görünürdü ki, BBC həmin vaxt Rubeni həm də Rusiyanın adamı olduğu üçün, belə demək mümkünsə, çarmıxa çəkirdi. O zaman sual yaranır: indi BBC bilmir ki, tutduğu mövqe, eyni zamanda, Vardanyanın və onun Şimaldakı ağalarının xeyrinədir? Yəni, Qərb Cənubi Qafqaz müstəvisində o qədərmi güclüdür ki, BBC yaratdığı görüntünün riskini düşünmür? Bəs, Azərbaycanın güc balansındakı mövqeyini də bilmir?..

Yenə də hesab edək ki, BBC-nin ayrı-ayrı sənədlərində jurnalistika prinsiplərinə dair yazılmış fikirlər yalnız gəlişigözəl ifadələrdir, ümumən həmin sənədlər tualet kağızından başqa bir şey deyil, bəs bu qeyd etdiyimiz? Doğrudanmı, media qurumunun bacarıq və səriştəsi imkan vermir ki, Qarabağdakı etnik separatizmin haradan qaynaqlandığına diqqət yetirsin? Oradakılar heçmi düşünmürlər ki, yaratdıqları sentimental görüntülər nəyə xidmətdir?

Sentimentallıqdan söz düşmüşkən, Mətbuat Şurasının bəyanatında da bu barədə söz açılır: "BBC telekanalının Azərbaycanla Ermənistan arasında sülh prosesinə, Qarabağ erməniləri üçün ərzaq göndərməsi ilə bağlı məsələlərə birtərəfli və əsl həqiqəti təhrif edən münasibəti yolverilməzdir. Bu yanaşma xalqımızın iradəsinə və mövqeyinə kökündən ziddir. Qətiyyətlə bildiririk ki, BBC-nin Qarabağdakı separatçı qüvvələrin təmsilçilərinə efir şansı tanıması, mövcud xüsusda reallığa zidd olan saxta sentimentallıq səhnələrinə yer ayırması dünya ictimaiyyətini çaşdırmaq və onda yanlış rəy formalaşdırmaq cəhdidir".

Həqiqətən, dünyada Azərbaycan həqiqətləri, Qarabağ reallıqları ilə bağlı yanlış rəy yaratmaq istəyən media qurumları var. Onların erməni lobbi və diaspor təşkilatlarının maliyyə yardımı ilə hərəkətə gəldikləri məlumdur. Eyni fikri BBC haqqında demək ağla batmır. Elə isə onun məqsədi nədir? Nəticəyə gəlirik ki, media prinsipləri quruma yol tapmış ayrı-ayrı şarlatanların korporativ maraqlarından üstündür? Axı Qarabağdakı separatçılardan qalma tör-töküntülərə tribuna vermək, onların söylədiklərini böyük canfəşanlıqla yayımlamaq, nəticə etibarilə qeyri-obyektiv davranaraq, əsl həqiqətləri arxa plana keçirmək normal məntiqə sığmır.

***

Mətbuat Şurası da bəyanatında nəticəyə gəlir. Ya BBC üzr istəyərək ölkəmizin ərazi bütövlüyünə və suverenliyinə hörmətlə yanaşmağı öyrənməli, səmimi niyyətini əməli fəaliyyəti ilə sübuta yetirməyi bacarmalı, ya da onun Azərbaycan xidmətinin fəaliyyəti dayandırılmalı və akkreditasiyası ləğv olunmalıdır.

Hesab edirik ki, nəinki BBC-yə, ümumən Azərbaycan xalqının ali maraq və mənafelərinə ziddi mövqe qoyan xarici media orqanlarının hər birinə münasibətdə sərt mövqe tutmağın zamanıdır. Onların yayımının dayandırılmasına da gedilməsi şərtdir. Bu addım, heç bir halda, media fəaliyyətinin məhdudlaşdırılması sayıla bilməz. Bir halda ki, media bəşəri dəyər və prinsiplərdən uzaq dayanır, terrorçuluğu və separatçılığı dəstəkləyir, bu əməlləri törədənlərin mənafeyinə xidmət edən materiallar yayımlayır, BBC olmur, lap hansı olursa-olsun, onun jurnalistika adına iddia etməsi ədalətsizlikdir.

**R.ƏVƏZ,**
**XQ**



**Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramov Macarıstana rəsmi səfəri çərçivəsində bu ölkənin xarici işlər və ticarət naziri Piter Siyarto ilə görüşüb. Nazirlər arasında baş tutmuş təkbətək görüş, daha sonra hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə, Azərbaycan–Macarıstan Strateji Dialoqunun ilk iclası şəklində davam edib.**

# Azərbaycanın xarici işlər naziri Macarıstanda

## *Strateji Dialoqun ilk iclası*

Görüş zamanı, Azərbaycan-Macarıstan arasında ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlıq məsələləri, habelə regional məsələlər barədə fikir mübadiləsi aparılıb. Macarıstan ilə iqtisadiyyat, ticarət, əczaçılıq, mədəniyyət, təhsil, idman və sair istiqamətlərdə müvafiq əməkdaşlığın daha da genişləndirilməsi imkanları müzakirə olunub. Xüsusilə enerji sahəsindəki tərəfdaşlığın əlaqələrdə əsas rol oynadığı vurğulanıb, nəqliyyat və logistika kimi istiqamətlərin əməkdaşlığa əlavə töhfə verəcəyi diqqətə çatdırılıb.

C.Bayramov post-münaqişə dövründə mövcud regional vəziyyət və reallıqlar, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması, sülh müqaviləsinin imzalanması, bölgədə nəqliyyat və kommunikasiyaların açılması, eləcə də sərhədlərin delimitasiyası istiqamətində göstərilən səylər barədə qarşı tərəfə ətraflı məlumat verib.

Ermənistanın davamlı qeyri-konstruktiv yanaşma sərgilədiyi, hərbi-siyasi təxribatlar törətdiyi, öhdəliklərindən boyun qaçırdığı, Laçın sərhəd nəzarət buraxılış məntəqəsi təsis edilənədək Laçın yolundan hərbi və mina təhdidinin davam etdirilməsi üçün sui-istifadə olunduğu bildirilib. Ermənistanın hələ də işğalçı qüvvələrini tam olaraq ölkəmizin ərazilərindən çıxarmadığı vurğulanıb.

Xüsusilə, Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin reinteqrasiyası səylərinə Ermənistanın hər vəchlə maneçilik törətməsi, Laçın–Xankəndi yolu ətrafında yalan iddialar yayması qeyd olunub. Laçın yolundan gündəlik əsasda erməni sakinlərin keçdiyi, əraziyə böyük həcmli yüklərin daşınması üçün isə Ağdam-Xankəndi yolundan istifadənin Azərbaycan tərəfindən təklif olunduğu xatırlanıb.

Daha sonra iki nazir Azərbaycan–Macarıstan Strateji Dialoqunun birinci iclasının protokolunu imzalayıblar.

# Ceyhun Bayramov diplomatik konfransda çıxış edib



**Sentyabrın 4-də Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov Macarıstana rəsmi səfəri çərçivəsində Macarıstan diplomatik nümayəndəlik rəhbərlərinin illik konfransında çıxış edib.**

Nazir Ceyhun Bayramov ötən il diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edən, möhkəm dostluğa, ümumi dəyər və maraqlara, habelə çoxşaxəli əməkdaşlığa əsaslanan Azərbaycan–Macarıstan münasibətlərinin bu gün sürətlə inkişaf edərək çoxölçülü strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini və bir çox cəhətdən nümunəvi olduğunu qeyd edib. O, Azərbaycan–Macarıstan Strateji Dialoqunun iqtisadi əməkdaşlığımızın inkişafı üçün əlverişli baza yaratdığını, İqtisadi Əməkdaşlıq üzrə Birgə Komissiyanın mütəmadi iclaslarının iqtisadiyyat, enerji, ticarət və investisiyalar sahələrində əməkdaşlığın daha da genişləndirilməsi baxımından böyük əhəmiyyət kəsb etdiyini bildirib. Bir sıra Macarıstan şirkətlərinin ölkəmizdə fəal fəaliyyətini təqdir edən nazir C.Bayramov, həmçinin digər sektorlarda, o cümlədən, turizm, əczaçılıq və s. sahələrdə ikitərəfli iqtisadi əlaqələrimizin genişləndiyini diqqətə çatdırıb.

Ukraynadakı müharibədən sonrakı regional geosiyasi vəziyyət fonunda Mərkəzi Asiyadan Xəzər dənizi və daha sonra ölkəmizdən keçən nəqliyyat marşrutlarının aktuallığından söz açan nazir ölkəmizin nəqliyyat infrastrukturunun şaxələndirilməsinə və modernləşdirilməsinin əhəmiyyətini vurğulayıb. Ölkəmizin nəqliyyat infrastrukturuna böyük sərmayə qoyduğunu, Avropa ilə Asiya arasında ticarət və logistikanı gücləndirmək üçün bir sıra nəqliyyat infrastrukturu layihələrinin, o cümlədən, əlverişli və təhlükəsiz alternativ olan Orta Dəhliz-Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun vacibliyini qeyd edib.

Ermənistanın Azərbaycana qarşı təcavüzü, Vətən müharibəsi, normallaşma gündəliyi barədə konfrans iştirakçıları məlumatlandırılıb. Nazir Ermənistanın öhdəliklərə zidd və dövlətlərarası normallaşma üçün əsas maneə olan Azərbaycanın suveren ərazilərində qeyri-qanuni hərbi mövcudluğunu davam etdirməsindən, davamlı hərbi təxribatlar, o cümlədən, mina təhlükəsi, daxili işlərimizə daimi müdaxiləsindən, Azərbaycanın mərkəzi hakimiyyət orqanları ilə erməniəsilli yerli sakinlər arasında dialoqa maneçilik törətməsindən, beynəlxalq səviyyədə aparılan genişmiqyaslı qarayaxma kampaniyasından bəhs edib.

Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməniəsilli vətəndaşlarını öz siyasi, sosial, iqtisadi məkanına inteqrasiya etməkdə qətiyyətli olduğu, post-münaqişə dövründə misli görünməmiş bərpa və yenidənqurma işlərinə başladığı bildirilərək, bu kontekstdə işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması prosesində Azərbaycana dəstək verməyə hazır olduqları üçün macar dostlara minnətdarlıq ifadə olunub.

**XQ**

# Yüklər hələ də Ağdam–Xankəndi yolundadır

**Avqustun 29-da Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən Qarabağda yaşayan erməniəsilli sakinlər üçün göndərilən və içərisində 40 ton un olan iki yük maşını artıq yeddi gündür Rusiya sülhməramlılarının Ağdam–Xankəndi yolundakı postunda gözləyir. Cəmiyyətin əməkdaşları, könüllülər ötən gün də ərazidə qurulan çadırlarda gecələyiblər.**



Qeyd edək ki, AzQAC nümayəndələri gətirdikləri yükün keyfiyyət sertifikatını Azərbaycan ərazisində müvəqqəti yerləşdirilən Rusiya sülhməramlılarına təqdim ediblər. Hazırda yükün erməniəsilli şəxslərə çatdırılması üçün danışıqlar davam etdirilir.

**XQ**

# Zəlzələdən sonra müraciət edənlərin sayı 200-ə çatıb

**Kürdəmirdə baş verən 5,2 maqnitudalı zəlzələ zamanı rayon Fövqəladə Hallar Komissiyasına ötən gecədən bu saatlara qədər 200-dən çox müraciət daxil olub. Bu sayın artacağı da istisna edilmir. Ciddi dağıntı və tələfat yoxdur.**

Bunu jurnalistlərə açıqlamasında Kürdəmir rayon Fövqəladə Hallar Komissiyasının sədri Ağali Kərimli bildirib.

O qeyd edib ki, rayon mərkəzi də daxil olmaqla, kəndlərdə ümumilikdə 100-dən çox evdə xırda çatların olması rayon Fövqəladə Hallar Komissiyası tərəfindən qeydə alınıb. "Çatların qeydə alındığı evlərin əksəriyyəti köhnə evlərdir. Hazırda komissiya öz işini davam etdirir. Əgər zəlzələ nəticəsində evləri yararsız və qəzalı vəziyyətə düşmüş sakinlər olarsa, dərhal onlarla bağlı müvafiq tədbirlər görüləcək", – deyə komissiya sədri əlavə edib.

Xatırladaq ki, ötən gün yerli vaxtla saat 20:38-də Kürdəmirdə 5,2 maqnitudalı zəlzələ baş verib. Zəlzələ Ağdam, Qəbələ, İsmayıllı, Ağsu ,Ucar, Göyçay, Bərdə, Ağdaş, Zərdab, Beyləqan, İmişli, Saatlı, Sabirabad, Biləsuvar və Cəlilabad rayonlarında 4-3 bala qədər hiss olunub.

**XQ**

# Milli minatəmizləmə texnikası ANAMA-ya təqdim edilib

**Sahibkarlar tərəfindən Qarabağ Dirçəliş Fonduna "İmprotex" Şirkətlər Qrupunun istehsalı olan "Revival P" minatəmizləmə texnikası ianə edilib. Sentyabrın 4-də Fond tərəfindən həmin texnikanın Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinə verilməsi ilə əlaqədar təqdimat mərasimi keçirilib.**

QDF-in İdarə Heyətinin sədri Rəhman Hacıyev Fondun fəaliyyətindən və həyata keçirdiyi layihələrdən danışaraq donor və tərəfdaşları ilə əlaqələrinin gündən-günə inkişaf etdiyini diqqətə çatdırıb. O, "Revival P" minatəmizləmə texnikasının Laçın Şəhəri Günündə Qarabağ Dirçəliş Fonduna ianə edilməsinin xüsusilə əlamətdar bir hadisə olduğunu vurğulayıb.

ANAMA-nın İdarə Heyətinin sədri Vüqar Süleymanov qeyd edib ki, bu vaxtadək 30 minə yaxın piyada əleyhinə mina, 17 minə yaxın tank əleyhinə mina və 40 mindən çox partlamamış hərbi sursat aşkar edilərək zərərsizləşdirilib. "İkinci Qarabağ müharibəsi bitdikdən sonra 305 nəfər mina qurbanı olub. Onlardan 57 nəfəri həyatını itirib, qalanları isə müxtəlif dərəcəli bədən xəsarətləri alıblar", – deyə ANAMA-nın İdarə Heyətinin sədri vurğulayıb.

Daha sonra "Revival P" minatəmizləmə texnikasının sertifikatı ANAMA-nın İdarə Heyətinin sədrinə təqdim edilib.

**XQ**

XQ-nin araşdırması

# “Azəriqaz”: bir addım irəli, iki addım geri

## Müəmmalı sayğacdəyişmə əməliyyatı geniş ictimai narahatlıq yaradıb

(əvvəli 1-ci səhifədə)

Ancaq son illər daha müasir elektron qaz sayğaclarının mexaniki-elektron qaz sayğacları ilə əvəzlənməsi həyata keçirilir. Bununla bağlı müvafiq dövlət qurumları tərəfindən müəyyən açıqlamalar da verilir. Amma bir çox hallarda həmin dəyişdirmə prosesi sakinlərin xəbəri olmadan aparılır. Hətta bu proses o qədər gizli, xəlvəti aparılır ki, mənzil sahibi qaz sayğacının əvəzlənməsindən sonrakı günlərdə xəbər tutur. Bu, nə qədər doğru-düzgündür? Ümumiyyətlə, mənzil sahibinin icazəsi olmadan qaz sayğacının dəyişdirilməsi nə dərəcədə qanunidir?

Bundan başqa, sayğac əvəzlənir, amma mənzil sahibinə qazın sonrakı istehlakı barədə hər hansı bir məlumat verilmir. Axı heç də hamı mexaniki-elektron sayğaclar haqqında verilən məlumatları bilmir. Hələ bu, harasıdır? “Azəriqaz”ın işçiləri tərəfindən sayğac dəyişdirildikdən sonra qaz xətti bağlanır. Ev sahibinə istifadə qaydası ilə bağlı məlumat vermək, sayğac nömrəsini xatırlatmaq belə “unudulur”.

Necə deyərlər, əlimizin altında bütün bu qanunsuzluqları təsdiqləyən kifayət qədər faktlar var. Ölkə mediasında da “sayğacdəyişmə əməliyyatı” ilə əlaqədar çoxsaylı materiallar verilib. Bir neçə gün bundan əvvəl əməkdaşımızın rastlaşdığı fakt da bu özbaşınalığı təsdiqləyir. Belə ki, ailə “Azəriqaz” işçilərinin “oğurluq yolla” elektron sayğacı mexaniki sayğacla əvəzləmələrindən gec xəbər tutur və bəxtləri gətirir ki, bu əməliyyatın nəticəsi xatasız ötüşür. “Xatasız” ona görə deyirik ki, “oğru qazçılar” sayğacı dəyişdirərkən mənzildə qaz xətti işlək vəziyyətdə olmayıb. Əks halda “mavi yanacaq” verilişi dayanar, bir müddət sonra isə Allah göstərməsin, həmin mənzildə nələr olarmış...

…Sayğaclar dəyişdirilməyə başlandığı ilk vaxtlarda həmkarlarımızdan biri axşam işdən evə qayıdarkən darvazadan çöldə üç nəfərin üst-başlarını çırpıb yola düzəldiklərini görür. Həmin şəxslərin burada nə iş gördükləri ilə maraqlanır və məlum olur ki, onlar bir il-il yarım əvvəl quraşdırılan elektron sayğacı mexaniki sayğacla əvəzləyən “Azəriqaz”ın işçiləridir. “Bu işə başlamazdan əvvəl ev sahibi niyə xəbərdar edilməyib, razı olub-olmaması niyə öyrənilməyib? Qarşılıqlı şəkildə sənədləşdirilmə aparılması, köhnə smart sayğacların əvəzlənmədən əvvəl dəyişdirilməyə ehtiyacının olub-olmamasının müəyyənləşdirilməsi məqsədilə cihazın laborator yoxlamadan keçirilməsi niyə “unudulub”?

İndi bunları oxuyan “Azəriqaz” rəsmiləri belə qanunsuzluğa müxtəlif yollarla haqq qazandlrmağa, özlərini, təmsil etdikləri qurumu təmizə çıxarmağa çalışacaqlar. Ancaq fakt faktlığında qalır və bütün bunlar təkzibedilməz dəlil-sübutlardır. Hələ biz indiki halda–mexaniki sayğaclardan istifadə olunduğu şəraitdə bildiriş verilmədən, xəbərdarlıq edilmədən qaz verilişinin qəflətən plomblama aparılaraq kəsilməsinini demirik. Elektron sayğaclarda isə belə özbaşınalığa yol verilməsi mümkün deyildi.

Yeri gəlmişkən, bu məsələ ilə bağlı bir müəmma barədə də fikirlərimizi diqqətə çatdırmaq istərdik. Onu da deyək ki, indi xatırladacağımız məsələdə “Azəriqaz”ın əli olması iddiasında da deyilik. Belə ki, sayğac dəyiş-düyüşü ərəfəsində elektron sayğacların şüşələri, üst qapaqları naməlum şəxslər tərəfindən gizli şəkildə kütləvi halda sındırılırdı. Ev sahibi isə bu hadisədən heç cür xəbərdar ola bilməzdi. Həyətin çölündən–hasardan asılan sayğac korlanırsa vətəndaş nə etməlidir? Onun, sadəcə, qaz nəzarətçisinə məlumat verməkdən başqa yolu qalmır. Amma qəribədir ki, bu məsələdə abonent heç bir cavabdehlik daşımadığına baxmayaraq, qeyri-qanuni cəzalandırılır da…

Bu baxımdan, Gəncə şəhəri Cavadxan küçəsi, ev 53, mənzil 33-də qeydiyyatda olan, lakin digər bir ünvanda yaşayan Azər Qurbanov adlı vətəndaşın Azad İstehlakçılar Birliyinə ünvanladığı məktub diqqət çəkir. A.Qurbanov qeyd edir ki, qaz sayğacının naməlum şəkildə sındırıldığı üçün Gəncə Qaz İstismar İdarəsi ona əvvəlcə sayğacın dəyişdirilməsinə görə 91 manat 21 (?) qəpik ödətdirib. Sonra isə sayğacı laboratoriyaya göndərərək, guya, cihaza müdaxilə olub, deyə 1555 manat



cərimələyib. İstehlakçı ərizəsində bununla bağlı polisə, müfafiq qaz idarəsinə müraciət etdiyini bildirsə də, heç bir tədbir görülməyib. Bu isə, istehlakçı hüquqlarının pozulması, özbaşınalıq deməkdir. Onu da qeyd etmək lazımdır ki, Azər Qurbanov kimi istehlakçı hüququ pozulan başqa vətəndaşlar da var.

Bəs qaz sayğacı zədələndikdə kim tərəfindən təmir edilməlidir? “Qaz təchizatı haqqında” Qanunun 13.9-cu maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 12 may tarixli 80 nömrəli qərarı ilə təsdiq edilmiş “Qazdan istifadə Qaydaları”nın 4.9-cu bəndinə əsasən, istehlakçının təqsiri olmadan zədələnmiş qaz sayğacının təmir olunması, texniki baxışdan keçirilməsi, dəyişdirilməsi (yenisi ilə əvəz edilməsi) və quraşdırılması qaz paylayıcısının vəsaiti hesabına həyata keçirilir. Zədələnmə istehlakçının təqsiri üzündən baş verdikdə isə təmir istehlakçının vəsaiti hesabına qaz paylayıcısı tərəfindən həyata keçirilir. Qaz paylayıcısı tərəfindən qaz sayğacının dəyişdirilməsi, təmir olunması və ya texniki baxışdan keçirilməsi istehlakçıdan tələb edildikdə, bu halda bunun hüquqi əsası göstərilməlidir. Əlavə edək ki, mənzillərdən, xüsusən də həyət evlərindən kənarda quraşdırılmış qaz, su və işıq sayğaclarına istehlakçının bütün hallarda nəzarət etmək imkanı yoxdur. Bəlkə, bunun üçün hərənin qapısının ağzında bir video-kamera quraşdırılmalıdır?

Bu yerdə “Azəriqaz” İstehsalat Birliyinin işçilərinə “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikası Qanununun 21-ci maddəsini xatırlatmaq istərdik. İstehlakçıların hüquqlarının pozulmasına görə məsuliyyət adlanan həmin maddədə isə deyilir: Bu Qanunun pozulmasına görə təqsirli şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada mülki, inzibati və cinayət məsuliyyəti daşıyırlar.

Yeri gəlmişkən, media təmsilçiləri yuxarıda qeyd edilən faktları “Azəriqaz” İstehsalat Birliyinə çatdıranda qətiyyən razılaşmaq istəmir, israrla “bu ola bilməz, bu mümkün deyil” kimi sözlərlə günahlarını ört-basdır etməyə çalışırlar: “Dövlət yoxlanışı zamanı sayğaca əvvəlcə vizual baxış olur, daha sonra o, istehsalat birliyi tərəfindən götürülərək daxili qüsurları öyrənilir”. “Smart” sayğaclar dəyişdirilən zaman onun üzərində qalan məbləğ isə abonentin balansına köçürülür. Bu proses minimum 10, maksimum 1 ay müddətində ola bilər”. Əslində, bu cavab özünü sığortalamaqdan, təmizə çıxarmaqdan başqa bir şey deyil.

Fikir verin, “Azəriqaz” “smart” sayğacların mexaniki sayğacla əvəzlənməsini belə bir arqumentlə əsaslandırır: “Bu əvəzlənmə prosesi istehsalat birliyi üçün sərfəlidir. Çünki mexaniki sayğacların qiyməti “smart”larla müqayisədə daha ucuzdur”. Əgər belədirsə, “bahalı” sayğacları kimlər və nə məqsədlə alıb quraşdırmışdılar? Əslində isə müasir texnologiya tətbiq edilməklə bir addım irəli atılıb, indi isə iki addım geri çəkilirlər.

“Azəriqaz”ın digər bir əsassız, inandırıcı olmayan arqumenti: “Hər iki sayğacın funksiyası eynidir və eyni işi görür. Hətta mexaniki sayğacların üstünlüyü də var ki, onlayn ödəniş mümkündür və daimi qaz verilişi var. “Smart” tipli sayğaclarda kartda olan vəsait bitdikdə qazın verilməsi dayandırılırsa, mexaniki sayğaclarda bildirişi aldıqdan 30 gün ərzində abonentin möhlət hüququ olur”.

Bu abzasdakı birinci cümləni dilə gətirən “Azəriqaz” əməkdaşı “Hər iki sayğacın funksiyası eynidir və eyni işi görür” söyləməklə nə demək istəyir? Eynidirsə, niyə dəyişdirilir, əlavə pul xərclənir?

Bir daha təkrar edirik, bu məsələlər ətrafında “baş sındırmaq”, fikrimizcə, bəlkə də ikinci dərəcəli məsələdir. Əsas narahatlıq doğuran cəhət smart sayğaclar mexaniki-elektron qaz sayğacları ilə əvəzlənərkən nəzərdə tutulan prosedurun pozulması-dəyişdirmə prosesinin hansı səbəbdənsə sakinlərdən xəbərsiz, gizli və xəlvəti aparılmasıdır.

***V.BAYRAMOV,***
***M.QULİYEV,***
***XQ***

### Ekspert rəyi



**Eyyub HÜSEYNOV,**
**Azad İstehlakçılar Birliyinin sədri**

“Azəriqaz”dan şikayətlər həddindən artıq çoxdur. Onların məzmunu isə, əsasən, sayğaclarla bağlıdır. Belə ki, əksər istehlakçılar qeyd edirlər ki, “Azəriqaz”ın işçilərini onları sayğaca müdaxilədə ittiham edir, bununla bağlı yüksək məbləğdə cərimə olunduqlarını bildirirlər. Əvvəllər isə bu məzmunda şikayətlər “Azərişıq”dan olurdu. Belə hallarda mən həmişə Çarli Çaplinin bir filmini xatırladıram, orada əsərin qəhrəmanı gündüzlər şüşə salır, gecələr isə onu sındırır. İndi kimə lazımdırsa, sayğaca da o müdaxilə edir, şüşəsini qırıb dağıdır. Üstəlik, mövcud qanunvericiliyə, istehlakçılarla bağlanan müqavilənin şərtlərinə görə, mənzildən kənarda quraşdırılmış sayğaclara istehlakçı birmənalı olaraq cavabdeh deyil. Bizə gələn şikayətlərdə, hətta həyət evlərində belə, hasardan kənarda olan sayğaclara guya müdaxilə edilməsi ilə bağlı əsassız cərimələrin yazıldığından narahatlıq ifadə olunur. Bu, istehlakçı hüquqlarını müdafiə edən bir qurum kimi bizi də ciddi narahat edir. Düşünürəm ki, bu, birmənalı olaraq istehlakçı hüquqlarının pozulmasıdır.

“Azəriqaz” İstehsalat Birliyinin baş direktoru Ruslan Əliyev böyük bir quruma rəhbərlik edir. Onun rəhbərlik etdiyi qurumda bütün müraciətlərə etinasız yanaşılır, şikayətlərə laqeyd münasibət bəslənilir. Bu da vətəndaşların haqlı narazılığına səbəb olur. Düşünürəm ki, Ruslan Əliyev bu narazılıqları nəzərə almalı, şikayətlərə həssaslıqla yanaşmalıdır. İstehlakçının problemi ilə dərindən maraqlanmalıdır.

O ki qaldı sayğacların hər beş ildən bir dəyişdirilməsinə, qurum sübut etməyə cəhd göstərir ki, həmin müddətdə sayğacların nazim çarxları yeyilir. Düzdür, belə olan təqdirdə nəzarət-ölçü cihazının ya istehlakçının, ya da qaz təchizatçısının zərərinə sərfiyyat hesablaması mümkündür. Elə “Azəriqaz”da da bunu belə əsaslandırırlar. Olsun. Bununla biz də razılaşırıq. Axı, unutmaq lazım deyil ki, istehlakçının yerli və beynəlxalq hüquqları var. Onlardan biri də seçim hüququdur. Bir haşiyə çıxım: bu yaxınlarda birliyə Bakı şəhəri Nizami küçəsindən Rəfael adlı bir istehlakçının şikayətini göndərmişəm. Vətəndaş sayğacını dəyişdirib mexaniki sayğaca keçmək istəyir. Nəticə isə yoxdur. İstehlakçının sayğacını nə üçün dəyişmirsiniz,– deyə sual edirəm. Cavabında bildirirlər ki, “Azəriqaz”da sayğac yoxdur. Yaxşı, onda belə çıxır ki, onlara nə sərf edirsə, qazı da onunla satırlar.

Yeri gəlmişkən, uzun illər istehlakçılar digər sahələrdə də aldadılıb. Vaxt var idi, camaat cibində yaylı tərəzi gəzdirirdi. İndi istehlakçılar neyləməlidirlər, ciblərində sayğac gəzdirməlidirlər? Bir sözlə, bu sahədə anormal bir vəziyyət hökm sürür. Mən birmənalı şəkildə qeyd edirəm ki, sayğaca qaz təchizatçısı cavabdehdir. Necə qoruyur, onu özü bilər. Əksər hallarda istehlakçılara böhtan atılır. Necə ola bilər ki, istehlakçı özü sayğacı sındırıb gedib cərimə ödəsin.

Onu da deyim ki, sayğacların yoxlanılmasında da qeyri-şəffaflıq var. Çox yaxşı haldır ki, sayğacların yoxlanmasına Azərbaycan Metrologiya İnstitutu nəzarət edəcək. Bu olduqca müsbət haldır. Yəni qaz təchizatçısı ilə sayğac yoxlayan, necə deyərlər, bir əldə cəmləşməli deyil. Bunlar bir-birinə opponent olmalıdır. Sayğacların yoxlanılmasını təchizatçı deyil, müstəqil təşkilat həyata keçirməlidir.

Təəssüf ki, Azərbaycanda bir çox məsələlər bir qurumun əlində birləşir və son nəticədə böyük narazılıq yaranır. Belə hallarda istehlakçıların hüquqları ciddi şəkildə pozulur. Qeyd edim ki, Azərbaycan hökuməti xidmət sferası qurumları üçün kifayət qədər rahat bir şərait yaradıb, o cümlədən “Azəriqaz” üçün. Lakin bir sıra xidmət qurumları, eləcə də “Azəriqaz” bundan sui-istifadə edərək istehlakçıların hüquqlarını pozur. Mütləq şəffaflıq olmalı və bu cür hallara birdəfəlik son qoyulmalıdır.

# Humanitar böhran varsa, nə üçün göndərilən yardımları qəbul etmirlər?

## Vahe Davtyan: “Artsax”da humanitar böhran olduğunu qabartmaq strateji və taktiki cəhətdən olduqca təhlükəlidir

**Əvvəlcə konkret, açıq və hamının başa düşəcəyi tərzdə olan bir sual verək: Əgər Xankəndidə bircə ailə aclıqdan əziyyət çəkirsə, onda nə üçün Bakıdan göndərilən 40 ton unu doqquz gündür ki, qəbul etmirlər? Azərbaycandan göndərilən yardımı qəbul etməmək üçün hansısa bəhanələri varsa, onda İrəvandan gələn yardımı qəbul etsinlər. İrəvandan gələn yardımı Ağdamdan deyil, bilavasitə Laçından qəbul etmək istəyirlərsə, qoy olsun, onda “bacı”larının Parisdən göndərdiyi yardımı Ağdam yolu ilə qəbul edəydilər.**

Etmədilər. Çünki ərzaq problemi yoxdur, ac qalan yoxdur. Sadəcə, gorbagor olmuş “müstəqilliklərinin”, status xülyasının, “miatsum” cəfəngiyyatının cəhənnəmə göndərilməsinin acısına dözə bilmir, minbir rəzalətlə dünyanın diqqətini cəlb etməyə çalışırlar. Dünya isə onlara deyə biləcəyini otuz il əvvəl demişdi: “Qorxmayın, irəli gedin!” Qorxmadılar, irəli getdilər. Ölkəmizin ərazisinin 20 faizini viranəyə çevirdilər və otuz ildən sonra burunları elə əzildi ki, hələ otuz il həmin yaraların sağaldılmasına çalışacaqlar.

Tarixi yalan üzərində yazılmış, “salnamələri” uydurma və absurd “fakt”larla “zənginləşdirilmiş”, Cənubi Qafqazdakı mövcudluqları və “dövlət” qurmaqları himayədarlarının məkrli planları əsasında reallaşdırılmış ermənilər artıq ədalət və obyektivlik hisslərini tamamilə itiriblər. Onlar üçün belə məfhumlar qəbuledilməzdir. Bu qövm üçün yalandan, iftiradan, riyakarlıqdan və məkrli planlardan başqa heç bir ədalət yoxdur.

Çox təəssüf ki, bütün bu rəzilliklərini dünya ictimaiyyətinin gözünə soxmağı bacarıblar. Bu ənənəni hələ ötən əsrin əvvəllərində Vaşinqtonda yaşamış bir erməninin öz soydaşları ilə görüşdə dediyi “Pul xərclə, söz deyə bilən adamları öz yanına çək!”– çağırışı daha da uzunömürlü edir.

Son günlər isə hayların başbilənləri humanitar böhranla humanitar şounu qarışıq salırlar. Elə bilirlər ki, son iki əsrdə olduğu kimi, indi də yalanları ayaq tutub yeriyəcək. Bəlkə də yeriyərdi, amma, Azərbaycan və Türkiyə artıq köhnə Azərbaycan və Türkiyə deyil.

Söhbət ondan gedir ki, siyasətdə, diplomatiyada və ictimai həyatdakı yalan-palanlarını indi çörək talonları ilə davam etdirən separatşı “dövlət”in başçıları artıq insanların həyatına, məişətinə, dolanışığına da həmin iyrəncllikləri sırıyırlar. Kütləvi informasiya vasitələri yazırlar ki, Xankəndi rəhbərləri yenə də ənənəvi “məzlum erməni” obrazını dünyanın aparıcı siyasi dairələrinin diqqətinə çatdırmaq üçün sentyabrın 5-dən etibarən çörəyin talonla satılması barədə qərar qəbul edib. Guya ayın 4-dən talonların paylanılmasına başlanılıb və bu gündən hər talona görə hərəyə 200 qram çörək satılacaq. Bunun şərəfsizlikdən başqa adı yoxdur.

Özünü prezident, nazir, deputat adlandıran bədbəxtlər unudurlar ki, həm İkinci Dünya müharibəsi illərində, həm də SSRİ-nin son illərində, aylarında ərzaq məhsullarının talonla satılmasına ona görə ehtiyac var idi ki, ətrafdakı ölkələr Moskva ilə münasibətləri nəzərə alaraq, bu ölkəyə yardım göstərməkdən vaz keçirdilər. “Xankəndi böhranı”nda isə aclıq çəkənlərə bəlkə də yüz tonlarla yardım gətirmiş müasir nəqliyyat vasitələri 100-150 metr aralıda gözləyir. Ona görə də bu şounun baş tutacağına ümid bəsləməsinlər. Onu da unutmasınlar ki, talonla ərzaq satılması məsələsi SSRİ kimi nəhəng dövlətin sonunu gətirmişdi. Bu hoqqanın sizin də sonunuzu gətirəcəyi hamıya gün kimi aydındır.



Yeri gəlmişkən, “NEWS.am” xəbər portalı yazır ki, Xankəndi rəhbərlərinin bu şousu Ermənistanın özündə də birmənalı qarşılanmır. Belə ki, siyasi elmlər doktoru Vahe Davtyan özünün “Facebook” səhifəsində yazır ki, Artsaxın problemlərinin humanitar böhran adıyla qabardılması doğru deyil və strateji və taktiki baxımdan son dərəcə təhlükəlidir. Davtyanın fikrincə, bu gün dünyada mövcud olan humanitar böhranların yanında Xankəndi böhranı olduqca kiçikdir: “Məsələn, bu gün Afrikanın Mali ölkəsində 5 milyona yaxın uşağın humanitar yardıma ehtiyacı var. BMT-nin Uşaq Fondunun məlumatında deyilir ki, ilin sonunadək həmin uşaqların 200 min nəfəri aclıqdan öləcək. Həmin böhranla “Artsax”ın böhranını müqayisə edəndə biz olduqca mürəkkəb vəziyyətin şahidinə çevrilirik”.

Yəni erməni alim Xankəndi rəhbərlərinə deyir ki, ağlınızı başınıza yığın. Ağıl demişkən, Paşinyan iqtidarına müxalif mövqedə dayanan partiya rəhbərlərindən biri yazır ki, İlham Əliyev bütün dünyanın diqqətini Qarabağa yönəldəndə bizim rəhbərlər dünyanın var-dövlətini toplamaq barədə düşünürdülər: “İndi ağıllı olan kimdir? Bizim rəhbərlərdən hansınınsa ağlı olsaydı, erməni xalqı belə biabırçı məğlubiyyətlə üzləşməzdi”.

Nə isə qoy talon paylasınlar, hər adama 200 qramdan çox çörək verməsinlər. Bəlkə belə olsa, qalib ölkənin şərtləri ilə razılaşar və sülh danışıqlarına başlayarlar.

***İttifaq MİRZƏBƏYLİ,***
***XQ***

# Azərbaycan–Qazaxıstan – Orta Dəhlizin “bel sütunu”

(əvvəli 1-ci səhifədə)

Artıq real fəaliyyət sahəsinə çevrilmiş Orta Dəhliz getdikcə daha çox beynəlxalq dəstək qazanır. Təsadüfi deyil ki, son zamanlar Azərbaycanın şimal və cənub qonşuları sanksiya altında olduğundan Çin, Mərkəzi Asiya respublikaları və Avropa dövlətlərinin Azərbaycandan keçən bu marşruta marağı xeyli artıb. Bu da onu göstərir ki, yaxın illərdə Orta Dəhliz öz imkanlarına görə dünya ticarətinin ən mühüm həlqələrindən biri ola bilər. Məhz buna görədir ki, hazırda layihənin bütün iştirakçı dövlətləri adıçəkilən marşrutun funksionallığının artırılması istiqamətində güclü siyasi iradə nümayiş etdirirlər. Dəhliz boyunca yerləşən ölkələr arasında ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlığın ildən-ilə genişlənməsi isə daşımaların, yüklərin cəlb edilməsi, eləcə də logistika ilə bağlı məsələlərin uzlaşdırılmasına geniş imkanlar yaradır.




Məlum olduğu kimi, Orta Dəhlizin funksionallığının artırılmasında yeni platformada birləşən Azərbaycan, Türkiyə və Qazaxıstan mühüm rol oynayırlar. Hazırda adları çəkilən ölkələr dəhlizə daha çox həcmlərdə yüklərin cəlb olunması, həmçinin aşırma infrastrukturunun genişləndirilməsi ilə bağlı digər iştirakçı dövlətlərin hökumətləri ilə intensiv müzakirələr aparırlar.

Son illər Qazaxıstan Orta Dəhlizdə fəal iştirakı diqqəti xüsusilə cəlb edir. Təkcə onu qeyd etmək kifayətdir ki, ötən həftə Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev ölkə parlamentinin növbəti sessiyasının açılışındakı çıxışında bildirib ki, ölkəsinin ortamüddətli perspektivdə Orta Dəhliz ilə daşımaların həcmi beş dəfə arta bilər. “Akord” nəşrinin bununla bağlı məlumatına görə, dövlət başçısı Transxəzər marşrutunun Qazaxıstanın tranzit potensialının möhkəmlənməsində mühüm rol oynayacağı bildirilib. Bunun üçün tərəfdaş ölkələrin–Çin, Azərbaycan, Gürcüstan və Türkiyə ilə səyləri birləşdirməyin vacibliyini vurğulayan Qazaxıstan Prezidentinin sözlərinə görə, qarşıda “Baxtı” keçidində yeni quru limanının tikilməsi, Aktauda konteyner qovşağının inşasının sürətləndirilməsi, eləcə də Orta Dəhliz boyunca Qara dənizdə limanların gücünün artırılması vəzifələri durur. “Artıq Çinin Sian və Gürcüstanın Poti limanlarında Qazaxıstanın terminallarının tikintisinə başlanılıb. Bu, Çinin “Bir kəmər, bir yol” meqalayihəsinin bizim milli təşəbbüslərimiz ilə birləşməsinin real örnəkləridir”,–deyə Prezident əlavə edib. Qazaxıstanın dövlət başçısı, həmçinin dəniz infrastrukturunun inkişafı üzrə Kurık limanına xüsusi rol ayrılacaq və Aktau kimi tam logistika klasterinə çevriləcək hərtərəfli planın zəruri olduğunu bildirib.

***Mirbağır YAQUBZADƏ,***
***XQ***

## Ekspert rəyi

**Təbriz YADİGAROV,**
**ETN İqtisadiyyat İnstitutunun aparıcı elmi işçisi, dosent**



4250 kilometr dəmir yolu xətlərindən və 500 kilometr dəniz yolundan ibarət olan Orta Dəhliz Azərbaycanla Avropa İttifaqı ölkələri arasında dayanıqlı nəqliyyat əlaqələrinin səmərəli inkişafında mühüm rol oynayır. Prezident İlham Əliyevin rəhbərliyi ilə beynəlxalq nəqliyyat marşrutlarının səmərəliliyinin artırılması məqsədilə ölkəmizdə yaradılmış əlverişli infrastruktur Azərbaycanı Orta Dəhliz üzrə yeni ticarət yolununun daha perspektivli dayaq nöqtəsinə çevirir. Ölkəmiz bu ticarət dəhlizinin yaxın və uzun müddətli dövrlər üzrə əhəmiyyətini nəzərə alaraq artan ticarət həcmini idarə etmək məqsədilə nəqliyyat infrastrukturunun inkişafına və təkmilləşdirilməsinə böyük sərmayə yönəltməklə üzərinə düşən bütün öhdəlikləri uğurla icra edir.

Bu baxımdan Orta Dəhlizdə Azərbaycanın fəal tərəfdaşı olan Qazaxıstanda da mühüm tədbirlər həyata keçirilir. Xatırladaq ki, Prezident Kasım-Jomart Tokayevin 2023-cü il sentyabrın 1-də parlamentin növbəti iclasının açılışında ortamüddətli perspektivdə Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutunun Qazaxıstanın tranzit potensialı üzrə nəqliyyatın həcmini 5 dəfə artırıla bilcəyini qeyd etməsi bu marşrutun əhəmiyyətinin daha da artacağını göstərir. Bu isə təbii ki, tərəfdaş ölkələrlə, o cümlədən Çin, Azərbaycan, Gürcüstan və Türkiyə ilə əlaqələrin daha da inkişaf edəcəyinə əsaslı təminat yaradır. Qazaxıstanda inşa ediləcək quru yük limanının, Aktauda konteyner qovşağının tikintisi, Orta dəhliz boyunca Qara dənizdə liman obyektlərinin genişləndirilməsi, Çinin Sian şəhərində və Gürcüstanın Poti limanında Qazaxıstan terminallarının tikintisi gələcəkdə yükdaşımaların həcmini daha da artıracaq.

Qeyd etmək lazımdır ki, Azərbaycanla iqtisadi və ticarət əlaqələrinin daha da genişlənməsində, qarşılıqlı sərmayə qoyuluşunda, eləcə də Orta dəhlizin formalaşmasında daha çox marağı olan Qazaxıstanın ölkəmizlə ticarət dövriyyəsi artan dinamika ilə inkişaf edir. Təkcə onu qeyd etmək kifayətdir ki, cari ilin 7 ayında ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi 237 milyon 943 min dollar təşkil edib ki, bunun da 68 milyon 610 min dolları ixracın payına düşüb. Bu isə əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,1 dəfə yüksəkdir.

Yeri gəlmişkən, Avropa İttifaqı Qazaxıstandan mühüm materialları (litium, titan, kobalt və s.), o cümlədən nadir və nadir torpaq metalların idxalı zamanı Xəzər dənizi, Azərbaycan və Gürcüstandan keçən Orta Dəhlizdən istifadə edəcəyi qaçılmazdır. Qeyd edək ki, Avropa bazarı Çindən 90 faiz asılı olduğundan Rusiya ərazisindən yan keçməklə Qazaxıstandan kritik materiallar idxal edərkən Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutundan istifadəyə ümid edir. Bu isə Orta Dəhlizin əhəmiyyətini artıraraq Azərbaycanda tranzit daşımaların həcminin çoxalmasını şərtləndirməklə ölkəmizin Avropa İttifaqı ilə nəqliyyat əlaqələrinin gücləndirilməsini daha çox iqtisadi məqsədə deyil, uzunmüddətli strateji hədəfə çevirir.

# Çin dördüncü böyük ticarət tərəfdaşımızdır

## *“Şərq nəhəngi” ölkəmizə 920 milyon dollar investisiya yatırıb*




(əvvəli 1-ci səhifədə)

Xatırladaq ki, sentyabrın 1-də Çin Milli İnkişaf və İslahat Komissiyasının sədri Cenq Şanciye ilə görüşdə Azərbaycan–Çin iqtisadi münasibətlərinin inkişafı istiqamətində reallaşdırılan təşəbbüslər, ölkəmizin “Bir kəmər, bir yol” layihəsində iştirakı, qarşılıqlı investisiyaların təşviqi və əməkdaşlığın möhkəmləndirilməsi istiqamətində müzakirələr aparılıb.

Yeri gəlmişkən, iqtisadiyyat naziri Mikayıl Cabbarov Çin səfəri çərçivəsində bu ölkədə keçirilən “Çində investisiya İli: Xidmət sənayesinin xüsusi təşviqinin genişləndirilməsi konfransı”da da iştirak edib. Tədbirdə çıxış edən iqtisadiyyat naziri Çinin innovasiyayönümlü investisiya imkanlarının respublikamız üçün önəmini vurğulayıb. O, Azərbaycan iqtisadiyyatının diversifikasiya, innovasiya və transformasiyaya sadiqliyinin xarici investorlar üçün əlverişli mühiti gerçəkləşdirdiyini bildirib. Nazir, həmçinin Şərqlə Qərbin kəsişməsində strateji mövqeyə malik ölkəmizin çinli sərmayədarları cəlb edə biləcək geniş imkanlara malik olduğunu, Azərbaycanın nəqliyyat, enerji və digər sahələrdə xidmətlər vasitəsilə regional tərəfdaşlığın gücləndirilməsinə böyük stimul verdiyini diqqətə çatdırıb və respublikamızda reallaşdırılan layihələrin, Ələt Azad İqtisadi Zonasının imkanlarının mühüm önəm daşıdığını vurğulayıb.

Azərbaycan–Çin münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsi isə ticari–iqtisadi əlaqələrin inkişafına geniş imkanlar açır. Təbii ki, bu şəraitin davamlı şəkildə formalaşmasına iki ölkə arasında sərmayələrin təşviqi və qorunması, habelə ikiqat vergitutmanın qarşısının alınması üzrə imzalanan bir sıra sazişlər, həmçinin texniki-iqtisadi əməkdaşlığa dair sənədlər mühüm önəm daşıyır.

Azərbaycanın əsas ticarət tərəfdaşlarından biri olan Çinlə ölkəmiz arasında son illərdə səmərəli investisiya əməkdaşlığı həyata keçirilib. Respublikamızda Çin investisiyalı 275 şirkət qeydiyyatdan keçib. Bundan başqa, Azərbaycanın işğaldan azad edilən ərazilərində başlanan infrastruktur layihələrində iştirak üçün Çin şirkətləri müraciət edib. “Huawei” şirkəti isə artıq bu regionda “ağıllı kənd” və “ağıllı şəhər” layihələrinin icrasına başlayıb.

Çin Azərbaycanın dördüncü ən böyük ticarət tərəfdaşıdır. Ötən il ölkəmizin bu dövlətlə ticarət dövriyyəsi 2021-ci illə müqayisədə 23,5 faiz artaraq 2 milyard 159 milyon ABŞ dolları təşkil edib.

1995-ci ildən indiyədək respublikamıza, ümumilikdə, 920 milyon ABŞ dolları məbləğində birbaşa investisiya yatıran Çin şirkətləri Azərbaycanda sənaye, enerji, infrastruktur, informasiya texnologiyaları, ticarət, kənd təsərrüfatı və digər sahələrdə fəaliyyət göstərirlər.

Çin şirkətlərinin ölkəmizə olan böyük marağı təsadüfi deyil. Çünki son illər ərzində Azərbaycan resursdan asılı iqtisadiyyatdan innovasiya, sahibkarlıq və biliyə əsaslanan sənaye üzərində inkişaf edən iqtisadiyyata uğurla keçid edib. Tətbiq edilən vergi güzəştləri, güzəştli kreditlər, hökumət təşəbbüsləri ilə dəstəklənən əlverişli investisiya mühiti və dövlət–özəl sektor tərəfdaşlığının genişləndirilməsi diqqətdə saxlanılıb. İşğaldan azad edilən ərazilərdə vergi güzəştləri, sosial sığorta müavinətləri, təkmil investisiya təşviqi mexanizmləri, kommunal xidmətlər üzrə güzəştlər, əmək miqrasiyası kvotasının müəyyənləşdirilməsi və sadələşdirilən iş prosedurları ilə bağlı əlverişli şərtlər Çin şirkətlərinin Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən layihələrə marağını şərtləndirib.

Azərbaycan dost ölkə ilə nəqliyyat–logistikaya dair qlobal təşəbbüslər müstəvisində də sıx əməkdaşlıq qurub. Hər iki dövlət tərəfindən irəli sürülən “Bir kəmər, bir yol” layihəsinin mühüm hissəsi olan Orta Dəhlizin infrastrukturunun inkişafına əhəmiyyətli investisiyalar yatırılıb.

Prezident İlham Əliyev bu il iyunun 20-də Çinin “China Media Group” media korporasiyasına müsahibəsində müxbirin “Azərbaycanın “Bir kəmər, bir yol” kimi nəhəng infrastruktur layihəsini qısa müddətdə–307 günə icra etməsinə necə nail olub” sualına cavabında da bu barədə ətraflı danışıb. Dövlətimizin başçısı belə bir təşəbbüsün inkişafımızın sürətlənməsində mühüm rol oynadığını xatırladaraq Azərbaycanın belə bir regional bağlantının mərkəzində dayanmasının önəmli üstünlüklərini diqqətə çatdırıb. Ölkə rəhbəri daha sonra deyib: “Xəritəyə baxsanız, Azərbaycanın coğrafi üstünlüklərini görərsiniz. Ölkəmiz Şərq-Qərb və Şimal-Cənub nəqliyyat marşrutları üzərində yerləşir. Lakin nəqliyyat infrastrukturunun olmaması elə bir vəziyyət yaratmışdı ki, bizim coğrafiyadan istifadə edilmirdi. Mən tam əmin idim ki, biz bu vəziyyəti yaxşılaşdıra bilərik. Biz nəqliyyat infrastrukturuna böyük sərmayə qoyuluşuna 15 il əvvəl başladıq…”.

Ötən müddətdə dövlətimizin başçısının vurğuladığı kimi, ilk olaraq yerli infrastrukturu inkişaf etdirmək üçün bu sahəyə geniş həcmdə investisiya qoyuldu, qonşularla bağlantı körpülərinin qurulması diqqətdə saxlanıldı. Beləliklə, “Bir kəmər, bir yol” layihəsi ilə bağlı ölkədaxili infrastruktur sistemi qısa zamanda gerçəkləşdi. Bununla da, sözügedən istiqamətdə sonrakı proseslərin sürətlə aparılmasına əlverişli zəmin yarandı.

Prezident İlham Əliyev belə bir fikir səsləndirərkən, hazırda görülən işləri nəzərdə tutur. Məsələn, indi Yeni Bakı Ticarət Limanı genişləndirilir, çünki bununla Şərqdən-Qərbə daşınan yüklərin həcminin artacağı təqdirdə yükaşırma problemlərinin qarşısı alınır. Başqa sözlə, Azərbaycanın mövcud ticarət infrastrukturu bir neçə il əvvəl fəaliyyətə başlayanda onun yükaşırma qabiliyyəti 15 milyon ton idi. Hazırda isə Yeni Bakı Ticarət Limanının imkanlarını 25 milyon tona qədər çatdırmaq qarşıya mühüm vəzifə kimi qoyulur. Bundan başqa, Xəzər dənizində daha çox gəmi tikintisi diqqətdə saxlanılır. İndi gəmiqayırma zavodunun ildə 20-dək gəmi inşa edəcəyi planlaşdırılır. Bu, həm Azərbaycanda, həm də Xəzər dənizində yükdaşımaya tələbat artması ilə bağlıdır. Ümumiyyətlə, hazırda Azərbaycan Xəzəryanı dövlətlər arasında Xəzər dənizində ən böyük ticarət donanmasına sahibdir. Bu, ölkəmizin daha çox yük daşımaq imkanından xəbər verir.

Azərbaycan–Çin əməkdaşlığının inkişafından bəhs edərkən iqtisadiyyat naziri Mikayıl Cabbarovun Çinə səfəri çərçivəsində bu ölkənin paytaxtı Pekin şəhərində Azərbaycan Ticarət Evinin açılış mərasiminin keçirilməsinin əhəmiyyətini də xatırlatmaq istərdik.

Qeyd edək ki, Prezident İlham Əliyevin müvafiq tapşırığına əsasən, İqtisadiyyat Nazirliyi tərəfindən yaradılan Azərbaycan Ticarət Evi “Made in Azerbaijan” brendinin Çin bazarında daha çox tanıdılmasına, Azərbaycan məhsullarının ixracının təşviqi və genişləndirilməsinə dəstək göstərəcək, bu sahədə əlaqələndirməni həyata keçirəcək. İqtisadiyyat naziri Mikayıl Cabbarov həmin Ticarət Evinin açılışında vurğuladığı kimi, dost ölkədə sayca 4-cü ticarət evi olacaq bu iqtisadi-ticari mərkəz ticarət və mədəni mübadilə üçün dinamik platforma rolunu oynayacaq.

Prezident İlham Əliyevin təsdiq etdiyi “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də 5-ci prioritet “Təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi” kimi müəyyənləşdirilib. Bununla yanaşı, dövlətimizin başçısının tapşırığına əsasən, işğaldan azad olunan ərazilərdə “Yaşıl enerji” zonasının yaradılması nəzərdə tutulub. Bu baxımdan alternativ və bərpaolunan enerji sahəsində iki ölkə arasında böyük əməkdaşlıq potensialı mövcuddur və Azərbaycan bu sahəyə də çinli investorları dəvət edib.

***V.BİNYATOĞLU,***
***XQ***

# Hacıqabul Sənaye Məhəlləsində 1 ildə məhsul istehsalı 6 dəfə artıb

**İqtisadi Zonaların İnkişafı Agentliyinin (İZİA) idarəçiliyində olan Hacıqabul Sənaye Məhəlləsi istehsal fəaliyyətini genişləndirir. Son illər burada məhsul istehsalında müsbət dinamika müşahidə olunur.**




2022-ci ilin birinci yarısında sənaye məhəlləsində 5,2 milyon manatlıq məhsul istehsal edildiyi halda, cari ilin müvafiq dövründə bu göstərici 32,1 milyon manat (6 dəfədən çox) təşkil edib. Bütövlükdə isə, Hacıqabul Sənaye Məhəlləsində indiyədək dəyəri 76 milyon manatdan çox məhsul istehsal edilib.

İstehsal edilən məhsullar daxili bazarın tələbatının ödənilməsinə yönəldilib. Hazırda 100-dən çox insanın daimi işlə təmin edildiyi sənaye məhəlləsində ümumi investisiya həcmi 57,7 milyon manatdan çox olan 13 sahibkarlıq subyekti rezident kimi qeydiyyatdan keçib və bunlardan 8-i artıq fəaliyyətə başlayıb. Sənaye Məhəlləsinin rezidentləri minik avtomobillərinin, tikinti materiallarının, müxtəlif növ polad şurupların, taxta məhsullarının, plastik qabların və taraların istehsalı və s. sahələr üzrə ixtisaslaşıb.

Mövcud layihələr üzrə Hacıqabul Sənaye Məhəlləsinə əlavə olaraq 32,3 milyon manat investisiyanın yatırılması, 390-dan artıq daimi iş yerinin yaradılması nəzərdə tutulur.

***XQ***



# Laçın bulaqlarının suyu Bakıya axacaq

**Meliorasiya və Su Təsərrüfatı ASC-dən redaksiyamıza daxil olan xəbərdə bildirilir ki, Laçın rayonu ərazisində “Həkəriçay” su anbarının və ondan ayrılan magistral boru xətlərinin layihə sənədlərində Şuşa, Laçın, Qubadlı, Zəngilan, Cəbrayıl, Füzuli və Ağdam rayonlarının və Bakı şəhərinin yüksək keyfiyyətli içməli su ilə təmin olunması nəzərdə tutulur.**

Səhmdar cəmiyyətin məlumatında qeyd edilib ki, su anbarının yaradılması ilə bağlı texniki-iqtisadi əsaslandırma və layihə–smeta sənədlərinin hazırlanmasına ötən ilin dekabr ayında başlanılıb və gələn ilin sonunda yekunlaşdırılması nəzərdə tutulub. Layihənin istifadəyə verilməsi nəticəsində 3 milyona yaxın insanı içməli su ilə təmin etmək mümkün olacaq.

Qeyd edək ki, başlanğıcını Laçın rayonu ərazisindən götürən Həkəri çayının uzunluğu 113 kilometr, orta illik su sərfi saniyədə 10,7 kubmetrə yaxındır. “Həkəriçay” su anbarı içməli suyun toplanması üçün nəzərdə tutulur. Magistral üzərində nasos stansiyalarının tikilməsi ilə nisbətən hündür coğrafi ərazidə yerləşən 7 rayona suyun verilməsi planlaşdırılır.

Hazırda su anbarından çıxan magistral boru xəttinin alternativ istiqamətdə içməli su təchizatı ilə bağlı təkliflər hazırlanır. “Həkəriçay” su anbarının həcmi 91 milyon kubmetrdir.

***XQ***

Xalq TV-nin müsahibi

# Azərbaycan milli və qlobal ideyaların kəsişməsində

## *Erməni separatizmi bəşəri dəyərlərə qarşı yönəlmişdir*

**Müasir qloballaşma ideologiyası həm qlobal, həm də milli münasibətlərə təsirlər edərək, yeni xüsusiyyətlər qazanır. Milli və qlobal ideyalar kəsişir və bu, cəmiyyətləri, dövlətləri, transmilli korparasiyaları dialoq mühiti axtarışlarına sövq edir. Xalq TV-nin növbəti müsahibi Milli Elmlər Akademiyasının Fəlsəfə və Sosiologiya İnstitutunun aparıcı elmi işçisi, fəlsəfə doktoru, dosent Hüseyn İbrahimovla söhbətimiz bu proseslərin ölkəmizə təsiri və ondan qorunma yolları barədə oldu.**



**– Hüseyn müəllim, müasir dünyada milli və qlobal ideyaların kəsişməsi necə təzahür edir?**

– Hazırda dünyanın qlobal mənzərəsi sürətlə dəyişir. İdeologiyalar müasir dövrdə cəmiyyəti irəli aparmaq üçün daha çox həvəsləndirmə, eyni zamanda, milli təhlükəsizlik funksiyalarını yerinə yetirir. Müasir dövrdə bəşəri ideya kimi daha çox işlənən qloballaşma, sosial demokratiya və liberalizm ideologiyasıdır. Bu ideologiyalar ayrıca şəkildə mövcud deyillər, onlar tam halda, eyni zamanda, müxtəlif hissələrdən -- dəyərlər sistemindən ibarət olaraq, bu və digər şəkildə milli ideologiyaların da tərkibində çıxış edirlər. Məsələn, bu gün Azərbaycanın milli ideyası olan azərbaycançılığın öz tərkibində həm liberalizm, həm də qloballaşma ideyasının müsbət xüsusiyyətləri olmaqla yanaşı, eyni zamanda, sosial demokratiyanın, sosial dövlətin, demokratiyanın hissələri də var.

Bunlar hamısı kompleks halda Azərbaycan dövlətinin bu gün apardığı multikulturalizm siyasəti ilə uyğunlaşır. Nəticədə, Azərbaycan dövlətinin apardığı siyasətin tərkib hissəsində, müasir ideologiyasında multikulturalizm artıq aparıcı bir ideologiyaya çevrilir. O, cəmiyyəti müasir qlobal dünyanın müsbət tərəflər zəminində səfərbər edir. Bu ideologiya eyni zamanda, cəmiyyəti birləşdirir, onunmultikultural təhlükəsizliyi konsepsiyasını da təmin etmiş olur.

**– Müasir qlobal və milli ideyaların kəsişməsində Azərbaycan hansı yolu seçib?**

– Bilirsiniz, müasir dövrdə, tək Azərbaycanda yox, dünyanın hər yerində, qonşu ölkələrin hər birində, gördüyümüz siyasi reallıqda ideyaların kəsişməsi baş verir. Bu kəsişmədə təbii ki, toqquşmalar da ola bilir, xoş ünsiyyət, inteqrasiya prosesləri də ortaya çıxır. Bu, təbii ki, ölkələrin apardığı siyasətin məzmunundan, onun dünyada gedən proseslərə, dünyanın nizamına, müasir dünyanın gedişatına nə dərəcədə real cavab verməsindən asılıdır. Bu gün Azərbaycan dövlətinin, onun rəhbərinin apardığı siyasət elə bir istiqamətə yönəlmişdir ki, o, eyni zamanda, ölkədə aparıcı milli ideyanın və qlobal ideologiyanın həm bəşəri, həm də milli reinteqrasiya proseslərini yaratmışdır.

Ölkəmizdə 2008-ci ildən keçirilən sivilizasiyalar arasında dialoq forumları, burada sistemli olaraq qlobal dialoqa çağırışlar, Bakı Bəyannaməsi və bu istiqamətdə keçirilən görüşlər, Qoşulmama hərəkatına üzv ölkələrin birgə toplantısında səslənilən fikirlər, - hamısı ona gətirib çıxarır ki, Azərbaycan öz milli ideologiyasını formalaşdırmaqla bərabər, qlobal ideologiyanın da müsbət stereotiplərinə, qlobal humanitar dəyərlərin qorunması tendensiyasına cavab verir. Azərbaycan yolu özlüyündə yalnız milli ideya, yerli dəyərlərlə inkişaf etmir, o həm də bəşəri dəyərlərin, beynəlxalq hüququn ən yaxşı kompleksini özündə ehtiva edə bilir.

Azərbaycanın bu baxımdan digər postsovet ölkələrindən fərqi ondadır ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş siyasətin bu gün ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycan həm ideoloji, həm də iqtisadi keçid dövrünü kompleks şəkildə başa vurmuşdur. Azərbaycanın reallığının postsovet ölkələrindən üstünlüyü ondadır ki, o, kompleks keçid dövrünü yaşadı. Bu gün torpaqlarımızın 44 günlük müharibədə düşmənlərdən azad olunmasının da əsasında bir çox amillərlə bərabər, Azərbaycanın kompleks keçid dövrü yaşaması dayanır.

Bu amillər həm ordu quruluculuğu, həm vətənpərvərlik mövzusunun təbliği məsələlərində, eləcə də beynəlxalq hüququn, beynəlxalq dəyərlərin aliliyinin əldə rəhbər tutulması baxımından aktualdır. Eləcə də, bəzi ölkələrin multikultiralizmdən imtina etdiyi bir dövrdə ölkəmizdə onun təbliği müasir Azərbaycan yolunun milli və bəşəri dəyərlərlə vəhdətdə inkişafının bir ideoloji rakursunu yaradıb.

**– Azərbaycan qlobal dünyaya milli ideyalar zəminindən inteqrasiya edib – belə demək mümkündürmü?**

– Əlbəttə, dövlətimizin apardığı siyasət həmişə milli və mənəvi dəyərlərin qorunması prinsipini əldə rəhbər tutub. Milli və mənəvi dəyərlərin qorunması hər zaman azərbaycançılığın və Azərbaycan multikulturalizminin əsas qayəsini təşkil edib. Bu baxımdan milli və mənəvi dəyərlərin qorunmasının özü vətənpərvərlik ruhunun möhkəmlənməsidir.

Baxın, illər ərzində, torpaqlarımız işğal altında olduğu dövrdə hər zaman həmin ərazilərdən olan məcburi köçkünlərimizin uşaqları “sən haralısan?” sualına cavab olaraq valideynlərinin doğulduğu yeri qürurla yad edirdilər. Elə 44 günlük Vətən müharibəsində də qəhrəmanlıq tarixini qanları ilə yazan o uşaqlar oldu.

Təbii ki, bunlar həm ailələrin, ailə institutunun verdiyi tərbiyə ilə bərabər, eyni zamanda, dövlətimizin apardığı ideologiyanın nəticəsində formalaşmış bir dəyərdir. Təsadüfi deyil ki, qələbədən sonra ölkə başçımız çıxışlarından birində çox gözəl vurğuladı ki, bu qələbənin əldə olunmasında, məhz müasir dövrdə yeni doğulan gəncliyin çox böyük rolu, çox böyük təsirləri oldu. Və bütün bunlar hamısı təbii ki, dövlətimizin apardığı ideologiyanın, tərbiyəedici funksiyasının gücü ilə də ölçülürdü və ölkədə tolerant mühitin, multikulturalizm mühitinin inkişafını şərtləndirirdi.

**– Qloballaşan dünyada ailə institutunun vəziyyəti necədir? Ailə, əbəs yerə deməyiblər ki, kiçik bir dövlətdir. Bir çox ideyalar da orada təşəkkül tapır.**

– Cəmiyyətdə çox institutlar var, biz bilirik; sosial, dini, təhsil, siyasi, hərbi institutlar var, ancaq bunların içərisində ailə institutu çox mühüm yer tutur. İnsanın təlim və tərbiyəsinin 70 faizi ailədə formalaşır. Bura həm təhsil, həm də, tərbiyə daxildir. Deməli, ideologiyanın elə özünün də, formalaşması və möhkəmlənməsi prinsipləri daha çox ailədə baş verir. Yəni, ailə nə qədər vətənpərvər olursa, doğulan və tərbiyə olunan uşaqlar da o dərəcədə vətənərvər olurlar. Bəzən deyirlər ki, Avropada ailə institutları başqa cürdür, azaddır. Mən belə deməzdim. Bu gün ailə institutuna Almaniyada dövlətin müdaxiləsi çox güclüdür. Bu, bir tərəfdən valideynin hüququnu, bəzən də dövlət qanunlarını məhdudlaşdırır. Və birbaşa olaraq, sosial işçilər ailələrə daxil olaraq hər hansı bir uşağın təlim və tərbiyəsi ilə bağlı ailənin işinə müdaxilə edir.

Azərbaycan ailəsinin isə təlim-tərbiyəsində ənənəvi milli, mənəvi dəyərlər sistemi mühüm əhəmiyyət kəsb edir. Bu gün qlobal baxışlar dövründə ailə institutuna təlim-tərbiyə çoxistiqamətli, çoxvektorlu yönlərdən daxil olur. Təsəvvür edin ki, valideyn də tərbiyyəvi işləri aparır, bu işdə müxtəlif informasiya, elektron kommunikasiya bolluğu da mühüm rol oynayır. Bu gün informasiyanın rolu o dərəcədə artıbdır ki, o, ailə institutuna müxtəlif yollarla daxil olur. Belə bir dövrdə ailə institutunu qorumaq, onun təhlükəsizliyini təmin etmək milli təhlükəsizliyin təmin olunması qədər önəmlidir.

Başqa ölkələrlərlə müqayisədə götürdükdə, milli ruhun, dəyərlərin qorunması istiqamətində biz hələ ki, dünyanın apardığı təhdidlərə baxmayaraq, yaxşı səviyyədəyik. Bu gün təhsil ilə bağlı xarici ölkələrə gedənlərin sayı həddən artıq çoxdur. Bu, bir tərəfdən yaxşıdır, bir tərəfdən də həmin gənclərlə müvafiq qurumlar iş aparmalıdır. Düzdür, diaspor təşkilatları, səfirliklərimiz xarici ölkələrdə oxuyan tələbələrimizlə iş aparır. Amma yenə də əsas iş ailə institutunun üzərinə düşür. Hər bir ailə xaricdə təhsil alan övladının hansı təsirlərə məruz qalmasına, təlim-tərbiyəsi ilə maraqlanmalıdır. Təhsildən də vacib, gənclərimizin daşıdığı mənəvi dəyərləri yaşada bilməsi məsələsidir.

**– Regionda dağıdıcı funksiya yerinə yetirməkdə maraqlı olan ideologiyalar da var. Bu baxımdan Azərbaycan hansı addımları atmalıdır?**

– Biz bəşəri, humanist dəyərlərə söykənən öz milli ideologiyamızdan, onların müasir dövrdə aktual kəsişməsi nöqtələrindən bəhs etdik, ancaq eyni zamanda, unutmamalıyıq ki, dünyanın hər yerində olduğu kimi, bizim geopolitik arenada da müxtəlif dağıdıcı meyilli olan ideologiyalar vardır. Azərbaycan həmişə belə ideologiyalara qarşı mübarizə aparmışdır. Onların insanlıq üçün həm regional səpkidə, həm də beynəlxalq aləmdə təhlükəsinin, təhdidinin qarşısını almaq üçün ölkəmiz yorulmadan mübarizə aparmışdır. Məsələn, Ermənistanda və xaricdə dağıdıcı, separatçı ideologiyanın tərəfdarları Qarabağda erməni azlığını “Böyük Ermənistan” xülyası ilə aldadaraq, müxtəlif yollarla qorxudaraq yaşadıqları ölkəyə reinteqrasiya etməyə qoymurlar. Onları Xankəndində aksiyalara sövq edirlər, müxtəlif qanunsuz və əxlaqsız addımlar atırlar.

Bütün bunlar onu göstərir ki, biz Qarabağda olan hərbi qruplaşmaları, separatçı tör-töküntüləri ordan silib atmalıyıq. Çünki o dağıdıcı ünsürlər orda qalacaqsa, təbii ki, yenə də həmin ideologiyanı yaymaq niyyəti güdəcəklər. Deməli, hərbçilər ilə bərabər, Qarabağda gizlənmiş, yuva salmış tör-töküntüləri də Xankəndindən uzaqlaşdırmalıyıq! Və ideoloji zəmində onlarla mübarizə aparmalıyıq. Bununla yalnız öz təhlükəsizliyimizi deyil, eyni zamanda, regional, qlobal təhlükəsizliyi də təmin etmiş olarıq.

**– Göründüyü kimi, ermənilərin separatizm ideyası yalnız azərbaycanlılara qarşı deyil, bütünlükdə, dünyada bölücülüyü təşviq etdiyinə görə bəşəri birgəyaşayış ideyasına qarşı yönəlmişdir.**

– Separatizm bütün zamanlarda onu daşıyan sadə vətəndaşlara xeyir gətirməmiş, əksinə tarixin qara səhifəsi sayılmışdır. Ermənilər də regionda tarixə belə qara səhifə yazan əhali qrupu kimi tanınır. Bu ideyadan həmişə ekstremistlər, şovinistlər bəhrələnmiş, dinc sakinlər isə əzab-əziyyət çəkmişlər. Ermənilərin separatizm ideyası yalnız azərbaycanlılara qarşı deyil, bütünlükdə insanlığa və bəşəriyyətə qarşı yönəlmişdir.

XX əsrin əvvəli İrəvanı və onun ətrafında azərbaycanlıların tarixi yurdlarını zəbt edən erməni daşnakları, XX əsrin sonu Qarabağda soyqırımı törətdilər. Onlar bir milyondan artıq həmyerlimizi vəhşi üsullarla məcburi köçkün həyatı yaşamağa məcbur etdilər. Bu ağır tarixi sınaqdan xalqımız öz milli birliyi və iradəsi ilə alnıaçıq çıxdı. Ermənilər isə ancaq işğalçı və neofaşist kimi tarixdə qaldılar. Bu gün azərbaycanlıların İrəvandakı və ətraf şəhərlərdəki tarixi ərazilərimizə Qayıdış hərəkatı tarixi gerçəklikdən doğan bir zərurətdir. İnanırıq ki, bu tarixi sınaqdan da qələbə ilə çıxaraq, öz tarixi torpaqlarımıza qayıdacağıq.

Erməni separatizminin bir daha ərsəyə gəlib işğalçıya çevrilə bilməməsi üçün Zəngəzur dəhlizi açılmalı və Naxçıvanla Azərbaycan, eləcə də region dövlətləri arasında quru yolu bərpa edilməlidir. Bizim mövcud ideologiyamızla qlobal təhdidlərin kəsişmədə müəyyən edilmiş yol elmi, siyasi və mənəvi baxımdan o sabitliyi, sülhü, insanlığı qorumağa tam zəmin yaradır.

**– Maraqlı söhbətə görə təşəkkür edirik.**

**Müsahibəni hazırladı:**
**Kəmalə ABDINOVA,**
**jurnalist**

“Bakı-xəbər” – 20



# Yeni əsrin sayılıb-seçilən qəzeti

**Nəşr tarixi 2003-cü il sentyabrın 4-dən başlanan “Bakı xəbər” qısa müddətdə mətbuat sıxlığında özünə yer tuta bilən və sayılıb-seçilən kütləvi informasiya vasitəsidir. Bu nəşrin gündəlik ictimai-siyasi, analitik qəzet kimi özünün 20 yaşını ilkin məramına sadiq qalan, zamanın çağırışlarına layiqli cavab verə bilən, xəbər saytları, onlayn formatı, hətta internet televiziyası olan bir media qurumuna çevrilməsi təqdirəlayiqdir.**

Qeyd edək ki, təsisçisi və baş redaktoru tanınmış ictimai-siyasi xadim, politoloq Aydın Quliyev olan “Bakı-xəbər” rəsmi şəkildə müstəqil qəzet kimi qeydiyyata alınıb və tezliklə siyasi təmayülsüz müstəqil qəzet mövqeyinə yüksəlib. Bu nəşr Mətbuat Şurasının, baş redaktoru isə Mətbuat Şurası İdarə Heyətinin üzvüdür.

“Bakı-xəbər” hər zaman maarifçilik ənənələrini yaşatmağa çalışması, günün nəbzini tutması, reallıqları, siyasi, iqtisadi, mədəniyyət yeniliklərini operativ işıqlandırması ilə seçilir. Bu gün informasiya-kommunikasiya texnologiyalarının inkişafı ilə əlaqədar olaraq qəzet köşklərinin qarşısında növbələr gözə çarpmasa da, ənənəvi kağız çap mediasının tarix yazmaq, ictimai fikrə təsir etmək, olayları arxivləşdirmək və 50 il, 100 il sonra da əlçatan olmaq kimi gərəkli missiyası var. Bu baxımdan gərəkli sayılan, cəmiyyət arasında müstəqil və demokratik qəzet imici daşıyan mətbu orqanlardan biri də “Bakı-xəbər”dir. Bu nəşr illərdir ki, həftədə 5 dəfə fasiləsiz çap olunan az sayda Azərbaycan qəzetlərindən biridir.

“Bakı-xəbər”ə ilk gündən rəhbərlik edən Aydın Quliyev hələ bu qəzet yaranmazdan öncə müxtəlif mətbuat orqanlarında siyasi-publisustik və analitik məzmunlu məqalələrlə çıxış edib. Aydın müəllim politoloq və siyasi şərhçi kimi də tanınır. Azərbaycanda müstəqillik dövrünün ictimai-siyasi prosesləri barədə bir neçə kitabın və çoxsaylı analitik məqalələrin müəllifidir. Onun bacarıqlı rəhbərliyi ilə “Bakı-Xəbər”in redaksiyasında uzun müddət çalışmış çoxsaylı istedadlı jurnalistlər nəsli yetişib. Hazırda da özlərini qürurla “Bakı-Xəbər” yaradıcılıq məktəbinin yetirmələri sayan bu yaradıcı insanlar müxtəlif media orqanlarına uğurla rəhbərlik edirlər. Qısa tarixi ərzində “Bakı-Xəbər” Azərbaycan Mətbuat Şurasının, ictimai təşkilatların, QHT və siyasi partiyaların xeyli sayda mükafat və təltiflərinə layiq görülüb. 2020-ci ilin payızında böyük qələbə ilə başa çatan “Zəfər Yürüşü”nə qədər “Demokratiya, güclü iqtisadiyyat Dağlıq Qarabağın açarıdır” devizi ana səhifəsində epiqraf kimi başdan yazılan qəzet indi möhtərəm Prezidentimiz, müzəffər Ali baş Komandanımız İlham Əliyevin sərkərdəlik məharəti, rəşadətli ordumuzun qəhrəmanlığı sayəsində azadlığına qovuşmuş əzəli torpaqlarımızın bərpasını, Qarabağda və Şərqi Zəngəzurda quruculuq işlərinə dəstək verməyi, başlıcası isə Azərbaycanın Cənubi Qafqazda yaratdığı yeni reallıqları qabartmağı ümdə vəzifəsi sayır.

Yuxarıda göstərdiyimiz kimi, bir sıra keyfiyyət yenilikləri ilə xarakterizə olunan inkişaf yolu keçən “Bakı-Xəbər” qəzetinin kollektivini 20 illik yubileyi münasibətilə təbrik edir, daha böyük yaradıcılıq uğurları arzulayırıq. Onu da qeyd edək ki, qəzetin baş redaktoru Aydın Quliyevlə müsahibəni bu gün “YouTube” kanalında “XalqTV” vasitəsilə izləyə və yaxın günlərdə qəzetimizdə oxuya bilərsiniz.

***XQ***

Sərgi salonlarında

# Nəğməvari, titrəşən rənglər dünyası

**“Gazelli Art House” dünyanın müxtəlif ölkələrində çoxsaylı rəssamları dəstəkləyir, Londonda və Bakıda geniş müzakirə obyekti olan sərgilər təşkil edir.**



Bakı qalereyasına gələn hər kəs burada ağac və metaldan heykəltəraşlıq işləri, rəsm əsərləri, fotoşəkillər və müxtəlif instalyasiyalarla tanış ola bilər. 2017-ci ildə təsis olunan bu rəsm qalereyası 3 mərtəbədən ibarətdir. Qalereya fəaliyyət göstərdiyi gündən bir sıra sərgilərə evsahibliyi edib.

Bunlardan 7 görkəmli qadın rəssamın əsərlərindən ibarət “Sıxılmış yaddaş”, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illik yubileyinə həsr olunmuş “1918” və digərlərini misal göstərmək olar.

Bir neçə gündür ki, “Dalğalar kolleksiyası” adlı sərgi öz işinə başlayıb. Buraya Fərhad Fərzəli “Ağ nərildəyən pələng”, “Blasckho cizgiləri”, Aqil Ab-



dullayev “Sonra da, bizə qayıdıram”, Elnarə Nəsirli “Portal – Duyğuların rəngi”, “Gül”, “Ekspansiv enerji – Ana sevgisi”, “Naminoru(Göy)”, “Naminoru(Qara)”, Vaqif Mustafazadənin eyniadlı kompozisiyasından ilham alaraq yaradılmış “Qara qaşın vəsməsi” və digər rəsm nümunələri daxildir. Səs dalğaları və işıq vasitəsilə yayılaraq nümayiş olunan əsərlər imitasiya yolu ilə təqdim olunur.

Burada əsərlərin üzərində şeirlər də yazılıb. Görmə məhdudiyyətli şəxslər bu şeirlərə toxunaraq rəsmdə əks etdirilən cizgiləri hiss edə bilərlər. Ştrix kod vasitəsilə də bu əsərlər haqqında məlumat əldə etmək mümkündür. Burada əsas özəlliklərdən biri də hər rəsmin öz musiqisinin olmasıdır. Xüsusi qulaqlıqlar vasitəsilə bu musiqiləri dinləyə və eyni zamanda rəsmlərdən zövq ala bilərsiniz.

Hər bir rəsm əsərinin öz mənası var. Məsələn, “Dalğalar kolleksiyası” mövzusunda çəkilmiş rəsmlərdə rəssam hər bir fırça toxunuşunu dalğa kimi görür. Əsərlər dalğavari şəkildə, hərəkətli olaraq nümayiş etdirilir. Diqqətlə baxanda burada əks olunan cizgilər insanın gözündə dəyişməyə və hərəkət etməyə başlayır.

“Duyğuların rəngi” əsərində rəssam uşaqların hisslərini rənglər vasitəsilə dünyaya çatdırmağa çalışıb. Səs tezliklərindən ibarət “Gül” adlı əsər həm də canlıdır. Bitki əsasında qurulmuş səs tezliklərindən ibarətdir. Burada rəssam çəkdiyi rəsmlərdə səs dalğaları, musiqi elementləri, mətnlər və fırça toxunuşları vasitəsilə öz hisslərini ifadə edir.

Xarici ölkələrdən qonaqlar da sərgiyə baxmağa gəlir. Onlar daha çox Orxan Qarayev, Zöhrab Salamzadə, Aqil Abdullayev, Fərhad Fərzəliyev və digər gənc rəssamların interaktiv işlərini bəyənirlər.

Bu rəsm qalereyası Londonda yerləşən eyniadlı rəsm qalereyası ilə sıx əməkdaşlıq edir. Burada nümayiş olunan əsərləri, həmçinin Dubayda hər il təşkil olunan “Art Dubay” rəsm sərgisində də görmək mümkündür. Əsərlər həm də satış məqsədilə nümayiş olunur.

Sərgi sentyabrın 24-dək davam edəcək.

***Fidan HÜQUQQIZI,***
***Elşən AĞALAROV (foto),***
***XQ***

# “Kənddə səyyar qəbul idi...”

## *Ölkə Prezidentinin tapşırığı ilə keçirilən belə görüşlər Tovuzda ictimai məmnunluq doğurur*

**Tovuzda rayon icra hakimiyyəti başçısının hər həftə bir kənddə, qəsəbədə keçirdiyi səyyar qəbullar elə həmin axşam və ya ertəsi gün geniş müzakirələrə səbəb olur. Elə ki, sakinlərdən hansısa pürrəngi çaydan bir qurtum alıb ucadan “dünən səyyar qəbul idi...” dedi, diskussiya başlanır. Biri deyir ki, “daha əvvəlki vaxtlar deyil, indi sağ olsunlar, özləri gəlir yanımıza, biz də dərd-sərimizi deyə bilirik”, bir başqası “Məmməd müəllim sözünün üstündə duran adamdır, görəcəksiniz günü sabah texnika göndərəcək, kəndimizin əsas yolu xırlanacaq da, genişləndiriləcək də”...Bax, beləcə istirahət guşələrində, parklarda, adamların daha çox toplaşdığı yerlərdə söhbətlərin əsas mövzusu bir neçə gün səyyar qəbullar olur. Təkliflərin, şikayətlərin necə həll edilməsi, işlərin gedişi də beləcə müzakirə obyektinə çevrilir.**





– Bilirsiniz, adətən, əvvəlki səyyar qəbullar zamanı qaldırılan məsələ həll olunmayıbsa, növbəti qəbulda həmin kəndə getməyə dəyməz, – deyə rayon icra hakimiyyəti başçısının sosial-iqtisadi məsələlər üzrə müavini Niftalı Qasımov söhbətimizə aydınlıq gətirir. – Söz vermisənsə, gərək ona əməl edəsən. Doğrudur, bəzən bu görüşlərdə elə problemlər ortaya çıxır ki, o, artıq nə rayon icra hakimiyyətinin səlahiyyətindədir, nə də daxili imkanlar hesabına onu həll etmək mümkündür.

Bir dəfə şura iclasında səyyar qəbullarda qaldırılan məsələlərin həlli ilə bağlı icra vəziyyətini müzakirə edirdik. Müxtəlif şöbələr, təsərrüfat rəhbərləri, icra nümayəndələri hesabat verirdilər. İcra nümayəndələrindən biri çıxış edib dedi ki, o məsələnin həlli bizdən asılı deyil. Başçımız çox sərt şəkildə qayıtdı ki, “80 yaşlı Hüseynqulu kişinin nəyinə lazımdır o iş kimdən asılıdır?! Kişi istəyir ki, evində normal istilik olsun, dəqiqədə bir elektrik lampası sönməsin...”

Həmin müşavirədən sonra rayon icra hakimiyyətində “bu, bizlik deyil” söhbəti birdəfəlik yığışdırıldı.

Niftalı müəllim sonra izah elədi ki, regional idarələr, onların nazirlikləri və baş idarələri, müvafiq şirkətlər bu işlərə cəlb olunur, vətəndaşların qaldırdıqları problemlərin bir çoxunun bilavasitə onlardan asılı olduğu nəzərlərinə çatdırılır və işin gedişi nəzarətə alınır.

Qeyd edək ki, vacib məsələyə bu cür yanaşma son illər yerlərdə bir sıra problemləri həll etmişdir. İcra hakimiyyətində vətəndaşlar tərəfindən qaldırılan məsələlərin vaxtında və obyektiv həlli istiqamətində ardıcıl tədbirlər həyata keçirilmişdir. Xüsusilə səyyar qəbulların yerlərdə daha çox keçirilməsi vətəndaşların razılığına səbəb olmuş və onun səmərəli nəticələri artıq göz qabağındadır. Bir məsələni də qeyd edək ki, qəbullar zamanı vətəndaşların müraciətlərinin böyük əksəriyyətinin elə yerindəcə həll olunması dövlətə və dövlətçiliyə, yerli icra orqanlarına inamı bir qədər də artırmışdır. Adamlarda artıq belə bir əhval-ruhiyyə yaranıb ki, müraciət etmək, problemi dilə gətirmək lazımdır, çünki o nəyin bahasına olursa- olsun, həll ediləcəkdir. Məsələ yerində həll olunursa, yuxarı orqanlara yazmaq, necə deyərlər, müxtəlif qapıları döymək nəyə lazmdır?! Yeri gəlmişkən, son vaxtlar Tovuz Rayon İcra Hakimiyyətinin fəaliyyətindən, digər idarə, müəssisə və təşkilat rəhbərlərinin işindən Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, hüquq-mühafizə orqanlarına ərizə və şikayətlər, müraciətlər nəzərəçarpacaq dərəcədə azalmışdır. Bu da əvvəlki illərlə müqayisədə müraciətlərin azalmasına səbəb olmuşdur.

Bütövlükdə, cari ildə 33 yaşayış məntəqəsində icra hakimiyyəti başçısının səyyar qəbul-görüşləri keçirilmişdir. Bu görüşlərdə 221 müraciət qeydə alınmış, onların 109-u həll edilmiş, 33-ü ilə bağlı müvafiq izahat verilmiş, 11 məsələ ilə əlaqədar aidiyyəti qurumlar qarşısında məsələ qaldırılmış, 68 məsələnin həlli müvafiq idarə və müəssisə rəhbərlərinə tapşırılmışdır.

Səyyar qəbullardan sonra həllini tapmış məsələlər az deyil. Təbii ki, onların hamısı haqqında məlumat vermək mümkün deyil. Amma Şıxheybət, Mollalar, Almalıtala dağ kəndləri yollarının texnika ayrılaraq xırlanması, Qəribli, Sarıtala, Ağacqala, Ağbulaq, Kirən kəndlərində qəzalı vəziyyətdə olan elektrik dirəklərinin dəyişdirilməsi, Tovuz şəhərinin E.Quliyev küçəsində ikimərtəbəli binanın həyətinin asfaltlanması, bilavasitə icra hakimiyyətinin səyyar qəbullarda qaldırılan problemlərə biganə qalmamasının nəticəsidir.

Hər həftənin çərşənbə axşamı rayon icra hakimiyyəti başçısı aparatında vətəndaşların qəbulu da rayonda bir sıra problemlərin həllinə kömək edir. Məsələn, avqust ayında vətəndaşların qəbulu zamanı Qazıqulu kəndinin sakinlərinin müraciəti əsasında 2 kilometr uzunluğunda kəndin mərkəzi yollarından birinə texnika və işçi qüvvəsi ayrılmış, yol genişlənmiş və hamarlanmışdır. Sakinlərin istəyinə əsasən həmin küçəyə dayanacaq quraşdırılması məqsədilə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə müraciət olunmuş və məsələ həllini tapmışdır.

Rayon icra hakimiyyəti başçısının səyyar qəbulu təkcə görüşlə məhdudlaşmır. Belə görüşlərdən ya əvvəl, ya sonra Məmməd Məmmədov sakinlərin məişət şəraiti ilə tanış olur, onların təsərrüfatlarına baş çəkir, əkin-biçinlə məşğul olanların sahələrinə gedir, öz tövsiyələrini verir, problemlərinin həllinə kömək göstərir. Xüsusilə texnika, toxum, dərman preparatlarının alınması ilə bağlı yarana biləcək hər hansı bir problem həll olunur, müvafiq təşkilatların rəhbərləri ilə əlaqə saxlanılır, məsələlər nəzarətə götürülür. Bu işlərə bir sıra sahibkarlar da cəlb olunur ki, əkin-biçinlə məşğul olanların qayğıları azalsın. Məhz bunun nəticəsidir ki, son illər Tovuzda taxılçılıq, kartofçuluq, tərəvəzçilik xeyli inkişaf edib. Digər tərəfdən, məhsul istehsalı hər dəfə əvvəlki illəri üstələyir. Məsələn, keçən il 50 min 381 ton buğda, 173 min 500 tona yaxın kartof istehsal edildiyi halda, bu il 59 min 656 ton buğda, indiyədək isə 136 min tondan çox kartof tədarük edilmişdir. Biçin kampaniyasının hələ bir sıra yerlərdə başa çatmadığını nəzərə alsaq, kartofçuluqda əvvəlki ilin göstəricisinin üstələnməsi gözlənilir.

Səyyar qəbullar hər cür rəsmiyyətçilikdən uzaqdır, sadədir, səmimidir, başlıcası isə səmərəlidir. Belə qəbulların əsas təşkilatçılarından biri, RİH ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Fuad Rzayev deyir ki, daha əvvəllər olduğu kimi, rayon icra hakimiyyəti aparatına gələnlərin sayı çox deyil. Çünki icra hakimiyyətinin rəhbərliyi kənd və qəsəbə icra nümayəndələrinin fəaliyyətinə həm də bu aspektdən yanaşır. Məmməd müəllim deyir ki, “icra nümayəndəsi yerdə bizim görən gözümüzdür. Onun başının üstündən bizə və ya daha yuxarı orqanlara müraciət, şikayət gedirsə, deməli, o nümayəndə ümidləri doğrultmur.

... Tovuz son illərdə inkişaf edib, abad kəndlərin sayı artıb. Şəhərdə də az iş görülməyib, yeni obyektlər istifadəyə verilib, yollar təmir olunub, bir sıra küçələr asfaltlanıb. Adamlar haqlı olaraq deyirlər ki, səyyar görüşlər bu işlərin bir növ təkanı olub, istiqamət verib. Həm icra strukturları razı qalıb, həm də Tovuzun on minlərlə sakini. Nədənsə, kimdənsə narazı olanlar isə heç darıxmırlar. Bilirlər ki, səyyar qəbulların vaxtı onlara da gəlib çatacaq və heç kimin ürəyində sözü qalmayacaq.

***Hamlet QASIMOV, XQ***

**Tovuz rayonu**

# Sosial xəbərlər

## Qarabağ Regional DOST Mərkəzi açılıb



***Bərdə şəhərində yerləşən Qarabağ Regional DOST Mərkəzində vətəndaşlara xidmət göstərilməsinə başlanıb. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildiriblər ki, vətəndaşlar həftənin 5 günü saat 9:00-dan 18:00-dək mərkəzin xidmətlərindən yararlana bilərlər.***

Qeyd edək ki, mərkəzdə məşğulluq, əmək, əlillik və sosial müdafiə sahələrində “bir pəncərə” prinsipi ilə 15 istiqamət üzrə 159 xidmət göstərilir. Mərkəzdə ilk iş günündə 208 vətəndaş müxtəlif xidmətlərdən yararlanıb.

Prezident İlham Əliyevin iştirakı ilə bugünlərdə açılışı olan mərkəzin dördmərtəbəli binası lazımi avadanlıqla təchiz olunub və ən yüksək tələblərə cavab verir. Burada 123 işçi çalışır, eyni zamanda, “Könüllü DOST” proqramı üzrə 50 könüllü fəaliyyət göstərir. Mərkəzdə gün ərzində orta hesabla 650–700 vətəndaşın qəbulu nəzərdə tutulur.

Regional mərkəzin əhatə dairəsinə 9 inzibati rayon daxildir. Burada, ümumilikdə 900 mindən çox əhaliyə xidmət göstəriləcək. Onlardan 220 mini bilavasitə sosial müdafiəyə cəlb olunan şəxslərdir.

## “Rehabus” əlilləri gətirir və aparır



***Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin layihəsi çərçivəsində bu il əlilliyi olan 400 şəxsə “Rehabus” xidməti göstərilib. Yeni tətbiq edilən həmin xidmət həssas qrupa göstərilən daha bir dəstək növüdür.***

Bu xidmət çərçivəsində xüsusi ayrılmış avtobuslar hər gün reabilitasiya kursuna cəlb olunmuş şəxsləri yaşadıqları ünvanlara yaxın ərazilərdən götürür, agentliyin Bakı şəhərindəki 2 saylı Uşaq Reabilitasiya Mərkəzinə və Bakı Reabilitasiya Mərkəzinə ödənişsiz şəkildə çatdırır. Ambulator şəkildə reabilitasiya proqramına cəlb edilənlər prosedur bitdikdən sonra yenidən geri qaytarılırlar.

Layihənin məqsədi Bakı və ətraf ərazilərdə yaşayan əlilliyi olan şəxslərin ambulator və icmaəsaslı reabilitasiya xidmətlərinə əlçatanlığını artırmaq, müvafiq müəssisəyə asan, rahat şəkildə çatmasını təmin etməkdir.

## “İşsizin dostu” – DOST

***DOST İş Mərkəzi tərəfindən “İşsizin dostu” proqramı üzrə ödənişli ictimai işlərə cəlb edilən şəxslər arasında müharibə veteranları, şəhid ailəsi üzvləri, əlilliyi olan şəxslərə üstünlük verilir.***

Mərkəzin icra etdiyi proqram üzrə müxtəlif işlərdə çalışanların 8 min nəfəri həmin həssas kateqoriyalardan olan



vətəndaşlardır.

“İşsizin dostu” proqramı çərçivəsində 56 min ictimai iş yeri yaradılıb və onların böyük əksəriyyəti ölkəmizin regionlarındadır. Proqrama cəlb olunanlarla əmək müqaviləsi bağlanıb ki, bu da işə cəlb edilənlərin gələcək əmək və sosial təminat hüquqlarının formalaşmasına əsas yaradır.

## Əlil və ahıllara mobil xidmət

***Hərəkət qabiliyyəti zəif olan əlil və ahıl şəxslərə sosial xidmətlərin operativ şəkildə göstərilməsi üçün mobil xidmət mərkəzləri yaradılacaq.***



Dövlət başçısı tərəfindən təsdiq edilmiş yeni “Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023–2026-cı illər üçün Dövlət Proqramı”nın icrası ilə bağlı tədbirlər planında 2024–2026-cı illərdə bu sahədə qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi və ölkəmizdə tətbiqi ilə bağlı müvafiq tədbirlərin görülməsi nəzərdə tutulur.

Planda 4 şəhər və rayonda mobil xidmət mərkəzləri vasitəsilə azı 200 nəfər əlil və 150 ahıl şəxsə mobil xidmətlərin göstərilməsi imkanının yaradılacağı bildirilir. Bu xidmətlər onların lazım olan yardım və sosial xidmətləri daha çevik şəkildə əldə etmələrinə yönəlib.

Sənədə əsasən, həmçinin 6 şəhər və rayonda ahıl şəxslərin ictimai faydalı fəaliyyətə cəlb edilməsi, onların bilik və bacarıqlarından məqsədyönlü istifadə edilməsi və asudə vaxtlarının səmərəli təşkili ilə bağlı layihələr də həyata keçiriləcək.

***Zərifə HÜSEYNOVA, XQ***

**GÜNÜN SUALI**

# Məktəblərimiz tədris ilinə hansı dərsliklərlə gedir?




**2023-2024-cü tədris ilinə sayılı günlər qalır. Orta təhsil müəssisələrində yeni dərs ilinə hazırlıq tədbirləri sırasında dərsliklərin bölüşdürülməsi və hazırlanması xüsusi diqqət və intizam tələb edir. Buna görə də, şagirdlər, eləcə də onların valideynləri böyük intizarla dərsliklərin paylanılması gününü gözləyirlər.**

**Valideynlərin bir neçəsi ilə həmsöhbət olub yeni tədris ilinə hazırlıqdan danışdıq. Bakı şəhər sakini Zəminə Osmanova ilk övladının rus bölməsində təhsilini başa vurduğunu, bu sahədə müəllim çatışmazlığını nəzərə alıb ikinci övladını Azərbaycan bölməsinə verdiyini bildirdi:**

– Fikrimcə, dərsliklər kökündən yenilənməlidir. Əvvəllər 1-ci sinifdə əlifba sırası ilə çətinlik çəkmədən hərfləri öyrənərdik. İndi kələfin ucunu elə itiriblər ki, əlifba sırası ilə ilk və son hərfləri görmürsən. Uşaq ilk hərfi öyrənmək üçün çoxlu sözlər oxumalıdır, hətta tələffüzü çətin sözləri. Üstəlik, tanınmamış şairlərin mənasız, çətin qavranılan, demək olar ki, söz yığınından ibarət şeirləri əlifba kitabına salınıb. Mürəkkəb olduğu qədər də gərəksiz tapşırıqlar uşaqları təhsildən soyudur. 1-ci sinifdə ingilis dili dərsliyində hətta çalışmanın şərtləri xarici dildə yazılır. Eləcə də 6-cı sinifdən başlayan rus dili dərsliyində. Elə 1-ci sinifdən məcbursan ki, artıq repetitora müraciət edəsən. Hamı repetitorluğun qarşısının alınması üçün çağırış edir. Nöqsanlar isə elə dərsliklərdən başlayır.

Valideyn haqlıdır. Pedaqoqlar da dərsliklərin keyfiyyətindən narazılıq edirlər. Bəs rəsmi qurumlar durumu necə qiymətləndirirlər. Dərsliklərlə bağlı növbəti tədris ilində hansı yeniliklər var.

**Elm və Təhsil Nazirliyinə bununla bağlı ünvanladığımız sorğuya cavab olaraq bildirilib ki, 2023-2024-cü tədris ilinə 24 adda dərslik təkmilləşdirilib, 37 adda dərslik isə yeni hazırlanıb. Ümumilikdə, 318 adda dərslik olmaqla 7 milyon 758 min 970 nüsxə dərslik çap edilərək yerlərə çatdırılıb. Növbəti tədris ilinə I-IV siniflər üzrə 4 azsaylı xalqın dilində olan dərsliklər yenilənib və çap edilərək təhsil müəssisələrinə çatdırılıb. Digər azsaylı xalqların dili üzrə dərsliklər üzərində işlər davam etdirilir.**

Dərsliklərin rəqəmsal versiyaları www.e-derslik.edu.az portalında, pdf nüsxələri www.trims.edu.az saytında yerləşdirilib.

Ötən illər ərzində ümumtəhsil məktəblərində (xüsusən də aşağı siniflər üçün) dərsliklərin yaş səviyyəsinə uyğun olmaması ilə yanaşı, müasir standartlara da cavab verməməsi ilə bağlı suala isə nazirlikdən belə cavab aldıq: “Müasir dərslik müəllifləri bildirirlər ki, qabaqcıl təhsil sisteminə malik ölkələrin dərslik hazırlanması təcrübəsindən bəhrələniblər. Onlar ibtidai siniflərdən başlayaraq dərsi düşündürücü suallar əsasında qurmağa çalışırlar. Etiraf etməliyik ki, 20 – 30 il əvvəlin dərslik nümunələri müasir şagird üçün yeknəsəkdir. Azərbaycan Respublikasının Təhsil İnstitutunda bu sual ətrafında tədqiqat aparılır. Tədqiqatın ilkin nəticələri göstərilən faktın kütləviliyini sübut etmir”.

**Təhsil eksperti Elmin Nuri isə dərslik probleminə münasibətini belə açıqladı:**



– Ümumtəhsil müəssisələri üçün hazırlanan dərsliklərin əsas problemi onların çağdaş təhsilin tələbləri ilə uzlaşmamasıdır. Təbii ki, bu, bütün fənlərə və mövzulara aid deyil. İctimai humanitar profilli “Azərbaycan dili”, “Azərbaycan ədəbiyyatı”, “Azərbaycan tarixi”, “Ümumi tarix”, “Həyat bilgisi” və s. dərsliklərdə modern kurikulum yanaşması öz əksini tapmır.

Akademik dil, məzmun ağırlığı, üslub əsas göstəricidir. Şagirdləri təhsildən soyudan, mövzunun qavranılmasını çətinləşdirən əsas meyar məhz budur. İbtidai siniflərdə bu, daha ağır fəsadlara səbəb olur. Müəllimləri, valideyinləri qınamamalıyıq. Onlar etirazlarında haqlıdırlar. Əsasən də ibtidai siniflər üçün hazırlanan dərsliklər çağdaş dünya təhsilinin standartlarına cavab vermir. Dərsliklər oyun, əyləncə, nitqi qavrama, analitik təhlil əsaslı olmalıdır. Faktlarla çox yüklənən, mürəkkəb üslublu mətnlər anlaşılmamazlığa gətirib çıxarır. Müxtəlif mövzuların ümumi toplusu olan dərsliklərdə 1 mətn qavranılmadıqda, ümumi boşluq yaranır və həmin dərslik şagird üçün əhəmiyyətliliyini itirir.

Dərsliklərimizdə təfəkkür və analitik metodlar, faktlara deyil, situasiyaya görə hərəkət metodikası kimi detallara az rast gəlinir. Dərsliklərin yaddaşa deyil, analitik təfəkkürün inkişafına yönəlik metodlardan istifadə edilməklə, uşaqların yaş psixologiyasına və maraq dünyasına uyğun hazırlanması vacibdir. Bunu da qeyd etməliyik ki, son zamanlar bu tendensiya aradan qalxır. Xüsusən, Azərbaycan Respublikasının Təhsil İnstitutunun bu istiqamətdəki işlərini vurğulasaq yetərlidir. Təhsil İnstitutunun bazasında Dərsliklərin Müstəqil Monitorinq Mərkəzi yaradılıb. İnstitutun direktoru Rüfət Əzizov özü sosial şəbəkə vasitəsilə müraciət edir ki, dərsliklərlə bağlı hər hansı problemlə rastlaşdıqda məlumat verilsin. Elm və Təhsil Nazirliyinin də bu məsələyə münasibəti həmişə ciddi olub. Dərslik komanda işidir. Ona görə də güclü bəndi kimi, zəif bəndi də olur. Bəzən dərsliyin hansısa fəsli yüksək səviyyədə hazırlanır, digəri isə yox.

Ekspertin dediklərinə əlavə olaraq qeyd edək ki, dərsliklərimizdə Azərbaycanın yeni reallıqlarının – 44 günlük Zəfər tariximiz, ölkəmizin siyasi və iqtisadi göstəricilərinin yüksək səviyyədə əksi müsbət haldır. Bunu xüsusən, 11-ci sinif Azərbaycan tarixi dərsliyi, 9-cu sinif “Zəfər tarixi”, eləcə də ədəbiyyat dərsliklərində görürük.

Elmin Nuri qeyd etdi ki, məktəblərdə əsas dərsliklərlə yanaşı, törəmə vəsaitlərə də ehtiyac duyulur. Məktəblilərin bu vəsaitlərlə pulsuz və güzəştli şərtlərlə təmini yaxşı olardı. Bu gün saysız-hesabsız iş dəftərləri, test kitabları, kimlərinsə marağına xidmət edən və o qədər də faydalı olmayan vəsaitlər var ki, onların əvvəlcədən təftiş edilməsi yaxşı olardı. Çünki bu vəsaitlərin bəziləri kommersiya məqsədi daşıyır, uşaqlarda zehni, valideynlərdə isə maddi çətinliyə səbəb olur. İlk növbədə məktəbdə satışına icazə verilən vəsaitlərin siyahısı tərtib olunmalıdır. Xüsusi komissiya yaradılmalı və həmin komissiyanın müsbət rəyini alan vəsaitlərin istifadəsinə icazə verilməlidir.

Azərbaycanda xarici tədris metodikasına əsasən işləyən “LANDAU School”, Bakı Oksford Məktəbi, Böyük Britaniya Məktəbi kimi özəl təhsil müəssisələrindən də nələrisə öyrənmək olar. “LANDAU School”un dərsliklərini vərəqləyəndə əldən qoymaq istəmirik. İnsan, sanki, istirahət edir, əylənir. Bununla belə, lazımsız yamsılamalara yol vermək olmaz. Xarici dərsliklərin çətin dildə yazılmasına valideynlər, müəllimlər dəfələrlə irad bildiriblər. Burada ilk növbədə şagirdin yaş psixologiyası, dilə bələdçilik səviyyəsi nəzərə alınmalıdır. Bu dərsliklər xarici dilli məktəblərdə həmin dili bilənlər üçün yazılır. Ölkəmizin milli təhsil müəssisələrində isə uşaqlar xarici dili yenicə öyrəndiklərinə görə onların hazırlıq səviyyəsi nəzərə alınmalıdır.

***Leyla QURBANOVA, XQ***

# Ukraynada müharibə: Sülh işartıları görünmür

**Son günlər Rusiya-Ukrayna müharibəsində döyüşlərin miqyası və vüsəti artır. Min kilometrlərlə uzanan cəbhə boyu ağır silahlar gecə-gündüz susmaq bilmir. Artilleriya və raket zərbələri intensiv xarakter alır. Nəticədə isə itki və dağıntılar kəskin çoxalır.**



Bu humanitar fəlakətin sonu olacaqmı?! Bakı Dövlət Universitetinin İqtisadi-siyasi coğrafiya və turizm kafedrasının müdiri, professor Aydın İbrahimovla redaksiyada söhbətimiz məhz bu mövzudadır. Hörmətli alimə ilk sualımız belə idi:

**– Aydın müəllim, sizcə Rusiya-Ukrayna savaşına nə vaxt və hansı şərtlərlə son qoyula bilər?**

– Bu, İkinci Dünya müharibəsindən sonra Avropada baş verən ən böyük silahlı münaqişədir. Rusiya-Ukrayna müharibəsi il yarımdan çoxdur ki, davam edir. Çoxları onun tez bitəcəyini düşünürdü. Göründüyü kimi, belə olmadı. Müharibə tamam başqa bir ssenari ilə davam edir. Tərəflər nəyin bahasına olursa-olsun, bir-birilərinin texniki və canlı resurslarını tükətməyə çalışırlar. Beləliklə, savaş uzun çəkən bir münaqişəyə çevrilib.

Müharibənin nə vaxt və hansı şərtlərlə bitəcəyi sualına konkret cavab verməkdə isə çətinlik çəkirəm. Məncə, hər iki tərəfi haldan və gücdən salan bu münaqişə hələ xeyli vaxt davam edə bilər. Təəssüf ki, hələlik üfüqdə sülhün işartıları belə görünmür.

**– Müharibənin qarşısını vaxtında almaq olardımı?**

– Əlbəttə, olardı. Bəs münaqişə niyə başladı? Hesab edirəm ki, bu ağır silahlı qarşıdurma son 20-30 ildə planetimizin ictimai-siyasi həyatında baş verən özbaşınalığın və anarxiyanın nəticəsidir. Necə deyərlər, qanunlar işləməyən yerdə, güc, zor meydanda at oynadır.

İlk baxışda Rusiyanın öz qonşusu olan digər bir slavyan xalqına qarşı belə genişmiqyaslı hərbi əməliyyata başlaması gözlənilmirdi. Ola bilər ki, Moskvanı buna təhrik etdilər. Hər halda, bu, çox riskli bir addım idi. Sağlam düşüncə də deyir ki, bu qanlı müharibə Rusiya və Ukrayna dövlətlərinin və xalqlarının mənafelərinə ziddir.

**– Siz müsahibələrinizin birində deyibsiniz ki, Rusiya ilə Ukrayna arasında hazırkı savaşa hələ 1940-cı illərdə sovet hökumətinin səhv siyasəti səbəb olub. Bunu necə izah edərdiniz?**

– Gəlin həmin tarixi dönəmə qısa ekskurs edək. 1939-cu ildə Almaniya Polşanı işğal etdi. Bunu görən Stalin dedi ki, Polşada yaşayan ukraynalıları və rusları qorumaq üçün o torpaqları mən alıram. Beləliklə, Polşanın, eləcə də Macarıstan və Rumıniyanın şərq əraziləri Sovet qoşunları tərəfindən işğal olundu. İkinci Dünya müharibəsi qurtarandan sonra isə Şərqi Avropada sosialist dövlətləri yarandı.

Lakin Moskva Macarıstan, Polşa və Rumıniyadan zor gücünə qopararaq Ukraynaya qatdığı torpaqları geri qaytarmadı. Burada bir incə məqam var. Stalinin belə bir geopolitik baxışı var idi. O, Qərb ölkələrini sovet ittifaqının sərhədlərindən mümkün qədər uzaqda saxlamaq istəyirdi. Kreml öz mövqeyindən bu gün də əl çəkməyib.

Hətta sonrakı dönəmdə SSRİ dağılanda Qorbaçov məsələni belə qoydu ki, keçmiş sosialist düşərgəsində olan dövlətlər NATO üzvlüyünə qəbul edilməsinlər. Qərb liderləri Qorbaçova bu məsələ ilə bağlı şifahi söz vermişdilər. Bununla bərabər, heç bir rəsmi protokol imzalamamışdılar.

Rusiyanın indi ən böyük problemlərindən biri budur ki, NATO üvzləri olan Rumıniya, Bolqarıstanın hərbi gəmiləri Qara dənizdədir. Rusiya bu reallığı qəbul etmək istəmir. Ukraynanın da həmin ölkələrin sırasına qoşulması ideyasını Rusiya yaxın buraxmaq belə istəmir. Yaxud qəbul edirsə, çətin qəbul edir.



**– NATO-dan söz düşmüşkən, alyansın Rusiya-Ukrayna müharibəsinə birbaşa müdaxiləsi gözlənilirmi?**

– Məncə, yox. NATO bu münaqişəyə birbaşa qatılmaq niyyətində deyil. Bu, olduqca böyük bir fəlakətə yol aça bilər. Qərb siyasətçiləri bu məsələdə çox ehtiyatlı davranırlar. Düz edirlər.

Albert Eynşteyn deyirdi ki, planetin taleyini qumara qoymaq olmaz. Siyasətçilər, dövlət xadimləri atdıqları hər bir addımın fərqində olmalıdırlar. Eskalasiyaya yol vermək olmaz.

Bu kontekstdə Türkiyə dövləti, onun lideri Rəcəb Tayyib Ərdoğan müdrik yol tutub. O, Rusiya və Ukrayna prezidentlərini sülh danışıqlarına başlamağa səsləyir və bunun üçün real işlər görür.

**– Müharibənin davam etməsinin böyük güclərin marağında olduğunu iddia edənlər də az deyil...**

– Əlbəttə. Müharibənin mümkün nəticələri əvvəlcədən hesablanıb. Qərb, xüsusilə Birləşmiş Ştatlar Avropada baş verən hadisələri idarə etməklə öz maraqlarını təmin etməyə çalışırlar. Vaşinqton Avropanı özünün bir nömrəli rəqibi hesab etdiyi Çinə qarşı öz ətrafında birləşdirmək niyyətindədir.

Bundan başqa, böyük iqtisadi maraqlar var. Avropa İttifaqı faktiki olaraq dünyanın ən böyük iqtisadi bazarıdır. Bu bazarı Pekinə güzəştə getmək ABŞ-ın milli maraqlarına ziddir.

**– Hesab olunur ki, Rusiya-Ukrayna müharibəsi yaxın onilliklər üçün dünyada qüvvələr nisbətinin müəyyənləşdirəcək. Bu barədə fikirlərinizi bilmək maraqlı olardı...**

– Hələlik, müharibənin bitməsi gözlənilmir. Məncə, Rusiyanın öz ssenarisi var. Moskva gözləyir ki, Ukraynada dövlət çevrilişi olsun. Yəqin ki, Ukrayna da eyni ümidlərlə yaşayır. Geniş ictimaiyyət üçün açıqlanmayan, bizim bilmədiyimiz şeylər də var.

O ki qaldı yeni dünya düzəni ilə bağlı sualınıza, bununla bağlı onu deyə bilərəm ki, həqiqətən, planetin gələcək nizamı hazırda Ukraynadakı proseslərin nəticələrindən asılı olacaq. Böyük ehtimalla, Ukraynanın tərəfdarları və əleyhdarları iki böyük qütbə bölünəcəklər.

Yəqin ki, xatırlayırsınız, "Soyuq müharibə" dönəmində dünyada bir-birilə kəskin düşmənçilik edən sosialist və kapitalizm düşərgələri vardı və onların arasında ciddi rəqabət yaranmışdı. Sovet ittifaqı bu yarışda uduzdu.

Bu dəfə də dünyanın siyasi meridianlarında iki böyük qütb formalaşa bilər. Eyni zamanda, Rusiyanın kimin tərəfində, Qərbin, yaxud Çinin yanında olmasından çox şey asılıdır. Bundan başqa, digər siyasi, hərbi güc mərkəzləri meydana çıxa bilər. Ümid etmək istərdik ki, türk dövlətlərini birləşdirən Böyük Turan real təsirlərinə malik olsun.

**– Sizcə, münaqişəyə cəlb olunan tərəflərdən hansının qələbə şansı daha yüksəkdir?**

– Hər bir müharibə ilk növbədə maliyyə resurslarından asılıdır. Napoleon deyirdi ki, müharibəni udmaq üçün 3 şey lazımdır: pul, pul və pul.

Görünən budur ki, Rusiya iqtisadi cəhətdən zəifləyir. Türklərin sevimli bir rəvayəti var: "Meymun oturur dağın başında. İki pələng birgə hasilə gətirdikləri şikar uğrunda vuruşur. Nəhayət, hər ikisi yorulub əldən düşür. Ondan sonra meymun enir aşağı və şikarı həzm-rabedən keçirir".

Bəlkə Çin oturub baxır bunlara. Qərb, yoxsa Rusiya taqətdən düşəcək? Onu da anlamaq lazımdır ki, Amerika olduqca zəngin ölkədir. Türklər demişkən, Amerika heç zaman çökməz. Bir sözlə, Rusiyanın vəziyyəti o qədər də yaxşı deyil.

**– Amma, deyilənlərə görə, ABŞ Rusiyanın tam çökməsini istəmir. Qorxur ki, Çin Şərqi Sibirdə böyük əraziləri tuta bilər və bundan sonra super gücə çevrilər...**

– Çin, sözsüz ki, Rusiyadan daha təhlükəlidir. Amma texnoloji baxımdan Çin ABŞ-dan xeyli zəifdir. Anqlosaksların bu rəqabətdə uduzacağına inanmıram. Böyük ehtimalla, ümumi məxrəcə gələcəklər. Bu, bəşəriyyətin xeyrinə olardı.

Hər halda, bu gün dünyamız böyük dəyişikliklərə hamilədir. Rusiya–Ukrayna müharibəsinin nəticələri çox şeyi dəyişəcək. Zamana ehtiyac var.

***Söhbəti qələmə aldılar: Ceyran CƏFƏRLİ, Məsaim ABDULLAYEV, Elşən AĞALAR (foto), XQ***

# Niger Fransadan qurtulacaqmı?

**Niger ordusunun hərbi bölmələri Niameydəki Fransa bazasına göndərilib. Bu barədə Qətərin "Əl-Cəzirə" telekanalı məlumat yayıb. Mənbə fransız qoşunlarının bazanı tərk etməməsi ilə bağlı məlumatı da təsdiqləyib.**



Avqustun əvvəlində məlum olub ki, Nigerdə hakimiyyətə gələn üsyançılar Fransa ordusunun ölkədə yerləşdirilməsi ilə bağlı razılaşmaları pisləyib və fransız hərbçilərinin ölkədən çıxarılmasını tələb ediblər. Fransa isə bu tələbi qəbul etməyib. Bunu Nigerin keçmiş hakimiyyət orqanları ilə ordunun yerləşdirilməsinə dair bağlanmış sazişlərlə əlaqələndirib.

Bu günlərdə isə Nigerin Ali Məhkəməsi Fransa səfiri Silven İtteni diplomatik toxunulmazlıqdan məhrum edib və onun ölkədən qovulmasını tələb edib. Nigerin daxili işlər naziri isə Fransa səfiri Silven İtteni vizadan məhrum edib. Sənədə əsasən səfir avqustun 28-dək ölkəni tərk etməli idi.

Beşinci respublikanın xarici işlər naziri Ketrin Kolonna bildirib ki, onlar heç bir legitimliyi olmayan nazirin göstərişlərinə tabe olmaq məcburiyyətində deyillər: "Üsyançıların səfirin ölkəni tərk etməsini tələb etmək hüququ yoxdur, çünki razılıq Nigerin müstəsna qanuni hakimiyyəti tərəfindən verilib.

Fransanın rəsmi Niameyin tələblərini yerinə yetirməməsi isə etiraz aksiyalarına səbəb olub. Hər gün həm səfirliyin, həm də hərbi bazanın yaxınlığında etiraz aksiyaları keçirilir. Minlərlə insan iyulun sonunda hakimiyyətə gələn hərbçilərin tələbinə uyğun olaraq Fransa qoşunlarının və səfirinin ölkədən çıxarılmasını tələb edirlər. Hazırda Niameydə 1500-ə yaxın fransız əsgəri var.

Bu arada Qərbi Afrika İqtisadi Birliyi (ECOWAS) Nigerdəki vəziyyətlə əlaqədar bu ölkəyə hərbi müdaxiləyə hazırlaşır. Bu barədə respublikanın devrilmiş prezidenti Məhəmməd Bazum hökumətinin xarici işlər nazirliyinin rəhbəri Asumi Məsudu LCI telekanalının efirində bildirib: "İqtisadi Birliyin planı həyata keçirilir: sanksiyalar öz təsirini göstərməyə başlayır. Hərbi müdaxiləyə hazırlıq tam sürətlə davam edir. Xuntanın hakimiyyətdə necə qala biləcəyini başa düşmürəm. Bu, Nigerə qarşı müharibə deyil, prezident Bazumun hakimiyyətini bərpa etmək məqsədi daşıyan əməliyyatdır".

***P.ƏFƏNDİYEV, XQ***



# Soçidə Rusiya–Türkiyə sammiti

## Görüş qlobal medianın diqqət mərkəzindədir

**Dünən Soçidə Rusiya və Türkiyə prezidentləri Vladimir Putin və Rəcəb Tayyib Ərdoğan arasında işgüzar görüş keçirilib. Bu, bütün dünyanın böyük maraqla gözlədiyi sammit idi. Şəhərin "Rusiya" sanatoriyasında aparılan müzakirələr bir saat yarım davam edib.**

Görüşdən əvvəl "ev sahibi" – Rusiya Prezidenti tədbirin jurnalistlər üçün açıq hissəsində media mənsublarına deyib ki, iki ölkə arasında əlaqələr heç kimin gözləmədiyi şəkildə inkişaf edir və bu, təqdirəlayiq haldır.

Rusiya lideri həmçinin söyləyib ki, R.T.Ərdoğanla təhlükəsizlik kimi çox əhəmiyyətli məsələləri müzakirə edəcəklər: "Ukraynadakı vəziyyəti, "Taxıl sazişi", Suriya məsələsindən danışacağıq. Bir çox başqa istiqamətlərdə də məsələlər var ki, onları da müzakirə edəcəyik".

Prezident V.Putin Türkiyə ilə Rusiya arasında mövcud layihələrin icrasından da bəhs edib. O, Türkiyənin tezliklə "qaz xab"ına çevrilməsi ilə bağlı müzakirələrin uğurla başa çatacağına əminliyini bildirib.

Türkiyə Prezidenti R.T.Ərdoğan əvvəlcə Rusiyanın Türkiyədə meşə yanğınları ilə mübarizə sahəsində ölkəsinə göstərdiyi yardıma görə V.Putinə təşəkkür edib.

R.T.Ərdoğan sonra deyib ki, dünya, xüsusilə Afrikanın az inkişaf etmiş ölkələri bu görüşdən "Taxıl sazişi" ilə bağlı müzakirənin nəticələrini gözləyir. Qeyd edək ki, 2022-ci il iyul ayında Türkiyə, Rusiya, Ukrayna və BMT-nin iştirakı ilə "Taxıl sazişi" imzalanıb. Sənədin müddəti bu il iyulun 17-də başa çatıb və Moskva sazişdə iştirakını dayandırıb.

Yeri gəlmişkən, BMT Təhlükəsizlik Şurasının bu il iyulun 21-də keçirilən iclasında çox sayda ölkələr Rusiyanı "Taxıl sazişi"nin müddətini uzatmağa çağırıb. Avqustun 31-də Moskvada Rusiya xarici işlər naziri Sergey Lavrov ilə türkiyəli həmkarı Hakan Fidan arasında "Taxıl sazişi" ilə bağlı fikir mübadiləsi aparılıb.

H.Fidan həmin görüşdən sonra BMT-nin "Taxıl saizişi" ilə bağlı yeni təkliflər hazırladığını bildirmişdi. Analitiklərin fikrincə, məhz "Taxıl sazişi" sammitin gündəliyinin əsas məsələsi olub.

Rusiya-Türkiyə iqtisadi əlaqələri davamlı olaraq inkişaf edir. Qeyd edək ki, hazırda iki ölkə arasında ticarət dövriyyəsinin həcmi 62 milyard dollar təşkil edir. Türkiyə lideri qeyd edib ki, tərəflər bu göstəricini 100 milyard dollara çatdırmaq əzmindədirlər. R.T.Ərdoğan həmçinin bildirib ki, ölkələr ticarət üzrə qarşılıqlı hesablaşmaları özlərinin milli valyutaları ilə həyata keçirməyi planlaşdırırlar.

R.T.Ərdoğan Rusiya şirkətləri tərəfindən inşa edilən "Akkuyu" atom elektrik stansiyasının tikintisinin uğurla davam etdirildiyini və mühüm obyektin təhvil verilməsindən sonra burada 25 min insanın çalışacağını vurğulayıb. Məlumat üçün bildirək ki, son illər iki ölkə arsında müdafiə sənayesi, eləcə də turizm sahəsində sıx əməkdaşlıq yaranıb.

Sonra danışıqlar qapalı rejimdə davam edib. Rusiya və Türkiyə liderləri bir çox aktual ikitərəfli əlaqələri, qlobal və regional məsələlərə dair fikir mübadiləsi aparıblar.

Türkiyə Prezidentini səfərdə bu ölkənin xarici işlər naziri Hakan Fidan, texnologiya naziri Mehmet Fatih Kaçır və başqa rəsmilər müşayiət ediblər.

Soçidə Rusiya və Türkiyə liderlərinin iştirakı ilə keçirilən sammit qlobal medianın gündəmində olub. Siyasi təhlilçilər Soçidə görüşün pozitiv ruhda keçdiyini, dünya üçün mühüm mesajlar verildiyini vurğulayırlar.

***M.HACIXANLI, XQ***

# Türkiyənin Kərkük narahatlığı




**"Biz Kərkükü dinc yanaşı yaşama mədəniyyətinin simvolu kimi görürük". Bu sözləri Türkiyənin xarici işlər naziri Hakan Fidan Tehranda iranlı həmkarı Hüseyn Əmir Abdullahian ilə görüşündən sonra təşkil edilən birgə mətbuat konfransında söyləyib.**

Fidan əlavə edib ki, İraqın Baş naziri Məhəmməd Şia əl-Sudaninin rəhbərliyi ilə qurulan hökumət ölkəyə sabitlik gətirib: "Biz onun və hökumətinin infrastrukturun yenidən qurulması və investisiyaların cəlb edilməsi sahəsində göstərdiyi səyləri dəstəkləyirik. Bunun İraqın bugünü və gələcəyi üçün nə qədər vacib olduğunu anlayırıq. Belə bir dönəmdə İraqın əsas və təməl ünsürlərindən biri olan türkman soydaşlarımızın vətəni olan Kərkükdə insan ölümünə yol açan gərginliyin yaranmasına kədər və böyük narahatlıqla baxırıq".

Bu cür gərginliyin qarşısının alınmasının zəruriliyi ilə bağlı fikirlərin əvvəllər də İraq hakimiyyətinə bildirildiyini vurğulayan Türkiyə xarici işlər naziri deyib:

"Biz İraq hakimiyyətindən PKK-nın şəhərdə son vaxtlar artan varlığına son qoymasını tələb edirik. Kərkük böyük iztirablara və qırğınlara məruz qalmış qədim şəhərdir. Hesab edirik ki, bu şəhərdə həssas sosial tarazlığı qorumaq üçün təmsilçilik və idarəetmə məsələlərində bütün sosial təbəqələr bərabər şəkildə təmsil olunmalıdır. Biz bu formulun tərəfdarıyıq. Türkman soydaşlarımızın hüquq və mənafelərinin qorunması bizim İraqla bağlı siyasətimizin əsas prinsiplərindən biridir. Bundan sonra da türkmanların hüquqlarının siyasi intriqalara mövzu olmasına qarşı çıxacağıq və onları bütün sahələrdə dəstəkləyəcəyik".

Xatırladaq ki, son vaxtlar PKK terror təşkilatı İraqda fəallaşıb. Onların türkmanlara qarşı hücumlar təşkil edəcəyi ilə bağlı məlumatlar yayılıb. İraq Türkmən Cəbhəsinin (İTC) sözçüsü Məhəmməd Saman məsələ ilə bağlı Anadolu agentliyinə danışıb. M.Saman PKK-nın türkman məmurlara və siyasi partiya binalarına hücum edə biləcəyi ilə bağlı İraq kəşfiyyat bölməsindən xəbərdarlıq aldıqlarını təsdiqləyib.

Gərginliyin yaranmasına digər səbəb isə İraq hökumətinin Kərkükdə qərargah binasını KDP-yə (Kürdüstan Demokratik Partiyası) verilməsidir. Bu qərar türkmanlar tərəfindən böyük etirazla qarşılanıb. Onların qətiyyətli etirazından sonra şəhərdə yaşayan kürdlər təhlükəsizlik qüvvələrinə hücum ediblər. Kürd məhəllələrində yaşayan azı 40 nəfər İraq təhlükəsizlik qüvvələri tərəfindən saxlanılıb.

Hazırda İraq ordusu şəhərin kürdlər yaşayan rayonlarına tam nəzarət edir. Şəhərin məhəllələrində İraqın antiterror xidmətinin qüvvələri yerləşdirilib.

***Ə.PÜNHAN, XQ***

QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ

# “Ruhumuz qədim yurd yerlərimizdə cövlan edir”



**Sentyabrın 3-də Heydər Əliyev Mərkəzinin qarşısındakı açıq məkanda “Qərbi Azərbaycanın etno-mədəni mühitinə səyahət” adlı tədbir təşkil edilib.**

Tədbir Mədəniyyət Nazirliyi ilə Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə keçirilib. Milli Məclisin deputatları, media nümayəndələri, paytaxt sakinləri və xarici qonaqlar tədbirdə iştirak ediblər. Başlıca məqsəd Qərbi Azərbaycanın etnomədəni mühitinin, habelə qeyri-maddi mədəni irs nümunələrinin nümayişi idi.

Qədim Azərbaycan yurduna məxsus milli geyim və mətbəx stendi, gündəlik həyatda istifadə olunmuş məişət əşyaları, seçilmiş tarixi abidələrin 3D maketləri ilə tanışlıq seyrçilərdə zəngin təəssürat yaradıb. “XQ” üçün aldığımız müsahibələrdən də bu aydın hiss olunur.

**Səadət YUSİFOVA, Mədəniyyət nazirinin müavini:**

– Tədbirdə Qərbi Azərbaycandan gələn tarixi eksponatları sərgiləməkdə məram vaxtilə həmin torpaqlarda, mahallarda, yaylaqlarda xalqın keçirdiyi bayram şənliklərinin əhval-ruhiyyəsini canlandırmaqdır. Bu tədbirin Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi çərçivəsində onun adını daşıyan möhtəşəm Mərkəzin qarşısında keçirilməsi də rəmzi xarakter daşıyır. Ümummilli lider inanırdı ki, nə vaxtsa ədalət bərpa olunacaq və Qərbi azərbaycanlılar öz yurdlarına qayıda biləcəklər.

Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində əldə edilmiş zəfərdən sonra bütün mümkünsüz olan şeylər artıq gerçəkləşir. Yeni siyasi reallıq yaranıb. Artıq keçmiş məcburi köçkünlər Qarabağa, Şərqi Zəngəzura qayıdırlar. Dövlətimizin başçısı çıxışlarında öz yurdlarına qayıdacağını bildirib. Biz buna qəlbən inanırıq. Həmin torpaqlarda Azərbaycan mədəniyyətini yenidən çiçəkləndirəcəyik.

**Milli Məclisin deputatı, Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri Əziz ƏLƏKBƏRLİ:**

“Qərbi Azərbaycan icması olaraq əsas məqsədimiz tarixi torpaqlarımızdakı Azərbaycan mədəni irs nümunələrinə sahib çıxmaq, bunu dünya ictimaiyyətinə çatdırmaqdır. Bu tədbir də həmin silsilədən atılan addımlardan biridir. Şübhəsiz ki, biz bu cür sərgilərin davamlı olmasını nəzərdə tuturuq. Sentyabrın sonuna qədər ölkədə bir neçə belə sərgi keçiriləcək. Qərbi Azərbaycan icması olaraq belə sərgiləri xarici ölkələrdə də təşkil etməyi nəzərdə tutmuşuq. Qarşımızda Ermənistan kimi hər cür yalana, üsula əl atan düşmən dayanır. Biz onların qarşısına ancaq faktlarla, sənədlərlə, sübutlarla, mənbələrlə çıxmalıyıq ki, ermənilərin yüz illər ərzində dünya ictimaiyyətinin beyninə yeritdiyi yalanları, saxtakarlıqları qazıb çıxaraq və Qərbi Azərbaycan həqiqətlərini qəbul etdirə bilək.



**Elman ORUCOV, hərbi ekspert:**

– Özünüz də şahidi oldunuz ki, burada Azərbaycan ictimaiyyəti ilə yanaşı, digər ölklərin vətəndaşları – əcnəbi qonaqlar da iştirak edirlər. Tədbirdə tarixi abidələrin maketlərinin nümayişi adamı duyğulandırır. Bütövlükdə, İrəvan mətbəxi, milli geyim növləri – qadın, kişi və uşaq geyimləri və digər atributlar insanın xəyalını haralara qanadlandırır! Yəni, sözün əsl mənasında, bizim Qərbi Azərbaycana qayıdış konsepsiyamız mövcuddur. Vaxt gələcək, biz öz əzəli torpaqlarımıza qayıdacağıq. Amma indidən dünyaya çatdırmalıyıq ki, Qərbi Azərbaycanda, İrəvanda hansı mədəni irsimiz olub. Biz bunların hamısını təqdim və təbliğ etməliyik ki, insanlar maariflənsinlər, dünya ictimaiyyəti məlumatlı olsun. Bu baxımdan tədbiri ürəkdən alqışlayıram.



**Hikmət BABAOĞLU, Qərbi Azərbaycan İcmasının sədr müavini, Milli Məclisin deputatı:**

– Tədbirin təşkilinə bizim Qərbi Azərbaycan İcması yaxından köməklik göstərib. Bu, əslində, milli yaddaşa xitab edən mühüm bir tədbirdir. Eyni zamanda, biz bu yolla beynəlxalq ictimaiyyətə mesaj veririk ki, Azərbaycan xalqının tarixi mədəniyyətinin çox böyük bir hissəsi bu gün qondarma Ermənistan Respublikası tərəfindən məqsədyönlü şəkildə dağıdılıb məhv edilir. Qoy, dünya bir daha görsün ki, bizim etno-mədəni arealımız necə böyükdür və bu coğrafiyanın bir tərəfi də Qərbi Azərbaycan, İrəvan, Göyçə mahalı olub.

Zaman-zaman Qərbi azərbaycanlılar Ermənistanın etnik təmizləmə siyasətinin qurbanına çevriliblər. İşğal dövründə nə bəlalar çəkmədik? Həmişə Qərbi Azərbaycanın bizim halal-hümmət torpaqlarımız olması fikri milli yaddaşımızda olub. Nəhayət, tarixi zəfərimizdən sonra, 2022-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev Qərbi Azərbaycan ziyalıları ilə görüşündə tarixi torpaqlarımıza qayıdışın strateji əsaslarını, konseptual əsaslarını dilə gətirdi. Artıq Qərbi azərbaycanlılar öz tarixi torpaqlarında yaşamaq hüquqlarnını gur səslə hayqırırlar, bu yöndə aktiv mübarizə aparırlar. Artıq nəticə də var. Çünki Azərbaycan–Ermənistan sülh danışıqlarının 6-cı raundunda Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişel dedi ki, Qərbi azərbaycanlıların Ermənistana qayıtması sülh danışıqlarının bir parçasıdır. Yəni bu, artıq yeni bir çağırışdır. Bu, yeni bir milli vəzifədir. Düşünürəm ki, Qərbi Azərbaycana qayıdış həm də bu cür təbliğ və özünütəqdim yollarından keçir.

Belə tədbirlərin digər bir əhəmiyyəti ondan ibarətdir ki, Qərbi azərbaycanlılar qayıdışla bağlı Ermənistan dövlətinə rəsmi müraciət etsələr də, heç bir reaksiya verilməyib. Ancaq biz əminik ki, bir gün cavab vermək məcburiyyətində qalacaqlar. Ona görə ki, bu, bizim hüququmuzdur, beynəlxalq hüquqla tanınan təməl haqlarımızdır.

Tədbirə qala konsertlə, Qərbi Azərbaycan motivli musiqilərin ifası ilə yekun vuruldu.

***XQ***

# Milli ədəbiyyatın peşəkarlıq, nəşr və oxucu problemləri

## *Azərbaycan Dili və Ədəbiyyatı Forumu başa çatdı*

**Ölkəmizdə ilk dəfə keçirilən və geniş elmi-ədəbi ictimaiyyətin cəlb olunduğu söz-sənət bayramı ötən bazar günü tarixə qovuşdu və orada qaldırılan məsələlərin, səsləndirilən fikirlərin, verilən əməli təkliflərin ümumiləşdirilərək, “Azərbaycan mədəniyyəti–2040” Dövlət Proqramına daxil edilməsi qərara alındı.**



Heydər Əliyev Fondu ilə Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin, Azərbaycan Milli Elmlər Akademiyasının dəstəyi ilə keçirilən forum sentyabrın 1-də Şamaxıda başlanıb, sonrakı 2 gündə isə Bakının “Gülüstan” sarayında davam edib. Panel formatında təşkil olunan iclaslarda qloballaşma kontekstində ana dilimizin qorunması, milli ədəbiyyatımızın cəmiyyətə çatdırılması metodikası, teatr və kinonun inkişafında ədəbiyyat faktoru, uşaq ədəbiyyatının ideoloji mahiyyəti, dil və tərcümə problemləri, kitab nəşri kimi məsələlər ətraflı müzakirə edilib.

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan tədbirlər çərçivəsində təşkil edilmiş forumun son panel iclasında Mədəniyyət Nazirliyinin nümayəndələri, Milli Məclisin deputatları, elm və mədəniyyət xadimləri, qonaqlar iştirak ediblər. Azərbaycan ədəbiyyatına və M.F.Axundzadə adına Azərbaycan Milli Kitabxanasının 100 illik yubileyinə həsr olunan videoçarxların nümayişi maraqla qarşılanıb. Tarixi-xronikal və son dövrlərin videokadrları vasitəsilə milli ədəbiyyatımızın inkişaf yoluna, həmçinin Prezident sərəncamı ilə 1 əsrlik yubileyinə hazırlıq görülən “Axundov kitabxanası”nın cəmiyyətin intellektual potensialının artırılmasında baza kimi oynadığı mühüm rola nəzər salınıb.

Forumun sayca 5-ci olan bu panel iclasında yazıçı Əkbər Qoşalının moderatorluğu ilə “Dəyərlər və etik davranış kodeksləri: kitabın fərdi və sosial həyatda əhəmiyyəti və funksiyaları” mövzusunda işgüzar müzakirələr aparılıb. Paneldə Xalq yazıçısı Çingiz Abdullayev, Xalq şairi Ramiz Rövşən, Azərbaycan Milli Kitabxanasının direktoru Kərim Tahirov, Azərbaycan Nəşriyyatları Assosiasiyasının İdarə Heyətinin sədri Şəmil Sadiq, Bakı Kitab Mərkəzinin direktoru Günel Anarqızı, “Təhsil” nəşriyyatının direktoru Tural Axundov, "Qanun" nəşriyyatının direktoru Şahbaz Xuduoğlu, “AudioKitab”ın direktoru Əhliman Ərşadlı iştirak ediblər.

Natiqlər "Azərbaycanda kitab sənayesi: mövcud vəziyyət və hədəflər", "Ölkəmizin kitab bazarına daxil olan xarici ədəbiyyatın milli dəyərlər və düşüncə sisteminə təsiri", "Kitab satışı sistemi: innovativ həllər və kredit mexanizmləri", "Kitab sənayesinin inkişafına dövlət dəstəyinin mexanizmləri" və "Vətəndaşların ədəbi, elmi və informasiya tələbatının ödənilməsində Azərbaycan Milli Kitabxanasının üzərinə düşən vəzifələr" kimi mövzuları sərf-nəzər edib, dəyərli təkliflər veriblər.

Panel iclası başa çatandan sonra iştirakçılar “Xalq qəzeti”nə verdikləri müsahibələrdə forumun təşkilini yüksək qiymətləndirib, layihənin hər il keçirilməsinin vacibliyini vurğulayıblar.

**Elçin HÜSEYNBƏYLİ, yazıçı-dramaturq, AYB-nin katibi, Əməkdar incəsənət xadimi:**

– Fikrimcə, forum çox uğurlu keçdi. Heydər Əliyev Fondu ilə Mədəniyyət Nazirliyinin təşkilatçılığı ən yüksək səviyyədə idi. Elm və Təhsil Nazirliyinin, Azərbaycan Milli Elmlər Akademiyasının sanballı dəstəyi bütün forum boyunca hiss olunurdu.

Bu gün ölkəmizdə milli-mənəvi sərvətlərin etibarlı şəkildə qorunması və onun gələcək nəsillərə çatdırılması istiqamətində silsilə tədbirlərin gerçəkləşdirilməsi fərəh doğurur. Sevinirik ki, ana dilimizin qorunması, ədəbiyyatımızın dünyada təbliği, kitab nəşrində qabaqcıl texnologiyaların tətbiqi ilə bu işin dövrün tələbləri səviyyəsində qurulması başlıca mərama çevrilib.



Düşünürəm ki, forumda aparılan fikir mübadilələrinin sayəsində perspektiv vəzifələrə konkret aydınlıq gətirildi. Forumda söylənilən fikirlər, təkliflər diqqətə alınacaq və gələcəkdə ana dili və ədəbiyyatımızın daha da inkişafına kömək edəcək.



**Aybəniz ƏLİYAR, AYB üzvü, şair:**

– Ədəbiyyat hər bir xalqın milli sərvətidir. Bu sərvətə qayğı baxımından forumun təşkili təqdirəlayiqdir. Panel iclasları yüksək səviyyədə keçdi, konkret əməli təkliflər səsləndirildi. Əsas qayənin ana dili və ədəbiyyatımızın daha da inkişafı olduğu aydın görünürdü. Xalq şairləri Sabir Rüstəmxanlının və Vahid Əzizin, akademik Rafael Hüseynovun, Milli Məclisin komitə sədri Qənirə Paşayevanın, yazıçı Şərif Ağayarın çıxışları öz konseptuallığı ilə daha böyük maraq oyatdı.

Milli ədəbiyyatımızın bütün bölgələri əhatə etməsi, ucqarlarda yaşayan ədəbi qüvvələrin birləşməsi, istedadların üzə çıxarılması səylərini alqışlayıram. Baxın, 3 il əvvəl bizim Şabranda AYB-nin regional bölməsi elə həmin amalla yaradıldı və istedadlı yazıçı Aydın Tağıyev bölməyə sədr seçildi. Biz orada vaxtaşırı əbədi-bədii tədbirlər keçirir, Şabran, Siyəzən və Xızıda yaşayıb-yaradan yazarların əsərlərini müzakirə edir, çapına və təbliğinə yardımçı olmağa çalışırıq.

Söz-sənət bayramı sona yetsə də, orada səsləndirilən fikirlər, təkliflər aktuallığını saxlamaqdadır. Mədəniyyətimizin inkişafı və təbliğində Azərbaycan dili və ədəbiyyatının rolu əvəzsiz olduğu kimi, bu sahələrin daim diqqətdə qalması da mühüm zərurətdir.

***Əli NƏCƏFXANLI, XQ***

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC

tabeliyindəki idarələr üçün elektrik mallarının satın alınması məqsədilə

## AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il sentyabrın 11-i saat 17.00-dəkdir. Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu– (012) 404-37-00, daxili:1177.

Ünvan– AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

## BİLDİRİŞ

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən “Ağcabədi rayonun, Q.Əliyev adına Hindarx kənd, 528 şagird yerlik, 3 nömrəli tam orta məktəbi binasının tikintisi işlərinin satınalınması” üçün 2023-cü il avqustun 31-də “Xalq qəzeti”ndə dərc edilmiş açıq tender prosedurunda predmetin adında mexaniki səhv olmuş və predmetin adı “Ağcabədi rayonunun, Q.Əliyev adına Hindarx kənd, 528 şagird yerlik, 3 nömrəli ümumi orta məktəbi binasının tikintisi işlərinin satınalınması” kimi qəbul edilməlidir. Nəzərə almaq xahiş olunur.

***Tender komissiyası***

Xalqın qəzeti!
# Xalq qəzeti
№ 190 (30306) 5 sentyabr 2023-cü il, çərşənbə axşamı
veb-sayt: www.xalqqazeti.az

## İdman xəbərləri

## Gimnastlarımız qızıl və bürünc medal qazanıblar

**İdman gimnastımız Nikita Simonov "Challenge" seriyasına aid dünya kubokunda uğurla çıxış edib.**



Azərbaycan atleti Türkiyənin Mersin şəhərində keçirilən yarışda halqalarla hərəkətlərin icrasında bütün rəqiblərini qabaqlayaraq qızıl medala layiq görülüb.

Azərbaycanın digər idman gimnastı İvan Tixonov isə Rumıniyanın Buxarest şəhərində keçirilən "Roam-Gym Trophy 2023" beynəlxalq turnirində bürünc medal alıb. O, dəstəli atda hərəkətlərin icrasına görə fəxri kürsünün üçüncü pilləsinə qalxıb.

## Kikboksçularımızın uğurlu çıxışı

**Daxili İşlər Nazirliyinin "İdman" Cəmiyyətinin İdman təlim şöbəsinin rəisi, polis polkovnik-leytenantı Eduard Məmmədov və "ZV Fight Academy"nin məşqçisi Ayaz Mehdiyevin tələbələri kikboksinqin WAKO versiyası üzrə Avropa çempionatında uğurla çıxış ediblər.**



Onlar Türkiyənin İstanbul şəhərində keçirilən yarışda 6 medal qazanıblar. Komanda üzvlərindən Kənan Cəfərli (57 kq) və Ramal Həsənli (81 kq) lokek versiyasında qızıl medala sahib olublar. "Fulkontakt" növündə mübarizə aparan Əli Əmirli (48 kq) turniri gümüş medalla tamamlayıb. Rinat Qiyasov lokek, Bilal Nuriyev "Fulkontakt", Tahir Abdullayev isə kik-layt versiyasında bürünc medala yiyələniblər.

## Ölkəmizin ən güclü çimərlik voleybolçuları

**Çimərlik voleybolu üzrə Azərbaycan çempionatının qalibləri müəyyənləşib.**



"Heydər Əliyev İli" çərçivəsində Su İdmanı Sarayında təşkil olunan yarışda qadınlar arasında Larisa Smeltsova - Fidan Əhmədxanova tandemi qalib adını qazanıb. Leyla Parşkova və Fidan Fərzullayevadan ibarət komanda ikinci, Nərmin Musayeva - Çinarə Quliyeva cütlüyü isə üçüncü pillələrdə qərarlaşıblar.

Kişilərin mübarizəsində isə Vadim Kutukov - Elmin Alışanov dueti qızıl medala sahib çıxıb. Vüqar Bayramov - Ülvi Rəcəbli, Asif Əliyev - Heydər Məmmədli cütlükləri gümüş və bürünc medalları qazanıblar.

Oyunların ardından mükafatlandırma və bağlanış mərasimi keçirilib. Qaliblərə diplom və medalları gənclər və idman naziri Fərid Qayıbov, Azərbaycan Voleybol Federasiyasının prezidenti Şahin Bağırov təqdim ediblər.

*Leyla SABİRQIZI, XQ*

## Texnologiya yenilikləri



## "Globalstar" peyki "iPhone"lara xidmət edəcək

**"SpaceX" şirkəti "Apple" cihazları üçün yeni peyklər buraxacaq. Belə ki, müəssisənin tərəfdaşı "Globalstar" "iPhone"larda SOS təcili peyk funksiyalarının əhatə dairəsini genişləndirmək üçün İlon Maskın şirkəti ilə müqavilə bağlayıb.**

Qurum keçən il istifadəyə verdiyi yeni "iPhone 14" modelləri ilə SOS peyk axtarış xidmətini aktiv etmişdi. Bu texnologiya "WiFi" və ya mobil əlaqə olmadıqda təcili xidmətlərlə əlaqə saxlamağa imkan verir. "Globalstar" gələcəkdə şəbəkə tutumunun 85 faizini "iPhone"lara ayırmağa razılaşıb.

Qeyd edək ki, "Globalstar" "SpaceX"ə 64 milyon dollar ödəyəcək. Bu, peyklərin istismar xərclərinin yalnız bir hissəsidir və buna görə də "Apple"ın SOS xidmətindən istifadə ödənişli olacaq.

*Əfsanə ƏHƏDLİ, XQ*

## Hadisə

## Şimşək 26 nəfəri vurub

**Hindistanın şərqindəki Odişa ştatında ildırım vurması nəticəsində azı 12 nəfər ölüb, 14 nəfər yaralanıb. Bu barədə "The Times of India" qəzeti məlumat yayıb.**



Məlumata görə, iki saat ərzində ştatda ən azı 61 min ildırım çaxması qeydə alınıb.

Hindistanın meteorologiya departamenti daha əvvəl Benqal körfəzindəki siklonlar səbəbindən hava şəraitinin pisləşəcəyi və leysan yağışları ilə bağlı xəbərdarlıq etmişdi.

Rəsmi məlumatlara görə, 2022-ci ildə Hindistanda ildırım vurması nəticəsində 907 nəfər ölüb.

*XQ*

## Sosial şəbəkələrdən seçmələr

## Yaddan çıxmaz Ana dilim!

**Dünən "Facebook"da filologiya elmləri namizədi, tanınmış dilçi Aynur Familqızı ana dilimizlə bağlı dəyərli fikirlər paylaşıb. Diqqətlə oxusanız, şərhə ehtiyac qalmayacaq.**



Orada yazılır: "Ana dilində düşünmək, danışmaq, təbliğ etmək milli ideologiya məsələsidir. Millətin, dövlətin təhlükəsizliyinin önəmli strateji hədəfi milli dil məsələsidir. Bunu niyə anlamırıq?!

Ən böyük səhvimiz Ana dilini digər xarici dillərlə müqayisə etməkdir və dünyaya çıxış üçün xarici dilə üstünlük verməkdir. Niyə özümüzə - dilimizə dəyər vermirik, bəyənmirik?

Bu torpağın suyunu içirik, çörəyini yeyirik… Sabah dilini "sevə-sevə öyrəndiyiniz" imperiyalar çökəndə yenə üz tutacağınız, qoynuna sığınacağınız doğma Ana dilimiz olacaq. Tarix bunu orta əsrlərdən bəri bizə görk edibdir: ərəb dili, fars dili, rus dili…

Atam balası, dilə sevgi deməklə, danışmaqla olmur, bulaq kimi içəridən qaynamalıdır! "Nə qədər ki, tədbirlərdə ana dilimizdə "ürəkdolusu" danışıb, hətta gözdən pərdə asaraq "mübahisələr" edirik, evə çatanda dediklərimizi unuduruq dilimizi bəyənməyib dost-tanış, ailə içində başqa dillərə üstünlük veririk, onda "vay" bizim halımıza. Ömrümüzün ahıl çağında mənəvi borcumuzu qaytara bilməyəcəyimiz üçün ölüb dirilirik, "köçəri quş" kimi uçmağı düşünürük, qonmağa "budaq" axtarırıq… Nə isə…

Nə yaxşı ki, şair demiş:
**Ana dilim ölən deyil,**
**Başqa dilə çönən deyil.**

*Təqdim etdi: M.HACIXANLI, XQ*

## Maraq dünyamız

## Tereza Ananın adı Qonça Boyaçı imiş



**5 Sentyabr Beynəlxalq Xeyriyyəçilik Günüdür. Bu günün qeyd edilməsi ilə bağlı BMT Baş Assambleyası qərar verib.**

Xeyirxah əməlləri ilə insanların qəlbində əbədi yer tutmuş şəxsiyyətlər heç vaxt unudulmur. Belə insanlardan biri – bütün dünyada Tereza Ana adı ilə tanınan albaniyalı məşhur xeyriyyəçi qadının əsl adı isə Aqnes Qonça Boyaçıdır. O, 1910-cu ildə avqustun 26-da hazırda Kosovonun ərazisində yerləşən Uskub şəhərində anadan olub, 5 sentyabr 1997-ci ildə Hindistanın Kəlküttə şəhərində dünyasını dəyişib.

Tereza Ana insanlara tövsiyəsində demişdir: "Yoxsulları sevməyin verdiyi sevinci həmişə hiss edin. Unutmayın, sevgi ilə dolu olmaq, sülhlə dolu olmaq deməkdir. Tanrı hər birinizi qorusun".

Həyatının mənasını insanlara daim yaxşılıq etməkdə tapan Tereza Ana yardımsevərliyinə görə 1979-cu ildə Nobel sülh mükafatına layiq görülüb. Sentyabrın 5-nin Beynəlxalq Xeyriyyəçilik Günü kimi qeyd edilməsi məhz onun vəfat etdiyi günlə əlaqədardır.

*Zülfiyyə ZİYA, XQ*

## Mars peykindən torpaq gətiriləcək

**Rusiyada Marsın peyki - Fobosdan torpaq gətirə bilən planetlərarası "Bumeranq" stansiyasının buraxılması planlaşdırılır. Xəbəri "RİA Novosti" agentliyi yayıb.**



Məlumatda deyilir ki, Expedition-M layihəsinin birinci mərhələsi çərçivəsində Mars, onun Fobos və Deimos peyklərini uzaqdan və əlaqə üsulları ilə tədqiq etmək üçün işlər görülür. "Bumeranq" adlanan stansiyanın 2030-cu ildən sonra buraxılması planlaşdırılır.

Xəbərdə həmçinin qeyd edilir ki, missiyanın əsas vəzifələri cazibə qüvvəsi olmadıqda cisimlərə enmək və Fobosdakı maddə nümunələrini Yerə çatdırmaqdır.

*XQ*

## "Kənarplanetlilər" saytı

**ABŞ Müdafiə Nazirliyi UNO-lar (uçan naməlum obyektlər) haqqında məlumatların və videoların yer aldığı internet saytı – "www.aaro.mil" açıb. Artıq hər kəs naməlum uçan obyektlər haqqındakı hesabatları oxuya biləcək.**




Sözügedən internet saytında hazırda ABŞ ordusu və onun pilotları tərəfindən çəkilmiş səkkiz video var. Şəkillərdə səmada sürətlə hərəkət edən qəribə formalı cisimlər əks olunub. Həmçinin saytda ictimaiyyət üçün faydalı olacaq UNO hesabatları, transkriptlər, press-relizlər və digər resurslar (tayyarə, şar və peyk izləmə saytları) var.

Qeyd edək ki, 2022-ci ilin avqustuna kimi olan məlumata görə, son 17 ildə 500-dən çox UNO hadisəsi qeydə alınıb.

*Aytən NƏCƏFOVA, XQ*

## Sağlamlıq

## ...Dərd verir limonlu su da...



**"Veçernyaya Moskva" qəzetinə müsahibəsində qastroenteroloq Nikita Xarlov limonlu suyun neqativ təsiri barədə xəbərdarlıq edib.**

Onun sözlərinə görə, limonlu su eroziya və ya xorası olan insanlara pis təsir göstərir. "Onlar özlərini dərhal narahat hiss edəcəklər. Limon turşusu mədənin yaralı divarlarına daxil olduqdan sonra qıcıqlanma başlayacaq. Amma bunu yeməkdən sonra və ya yemək zamanı etsəniz, insana heç bir zərəri olmayacaq", - Xarlov izah edib.

Qastroenteroloq deyib ki, mədə-bağırsaq traktının bir sıra xəstəliklərində, o cümlədən yemək borusu və mədənin iltihabı zamanı limonlu su içmək əks göstərişdir. Bundan başqa, həkim xəbərdarlıq edib ki, limonlu su çox içildikdə diş minasını zədələyir.

Böyük Nizami deyirdi: "Artıq içiləndə dərd verir su da". Göründüyü kimi, çox içiləndə limonlu su da fəsada səbəb olur.

*Z.HÜSEYNLİ, XQ*

## Proqnoz




***Milli Hidrometeorologiya Xidmətindən redaksiyamıza verilən xəbərə görə, sentyabrın 5-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir.***

Gecə və səhər bəzi yerlərdə zəif duman, az çiskin olacaq. Cənub-şərq küləyi axşam şimal-qərb küləyi ilə əvəz olunacaq. Havanın temperaturu gecə 20-24° isti, gündüz 28-33° isti olacaq. Atmosfer təzyiqi 758 mm civə sütunu olacaq. Nisbi rütubət gecə 70-80 faiz, gündüz 40-50 faiz olacaq.

Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 17-22° isti, gündüz 30-35° isti, dağlarda gecə 10-15° isti, gündüz 18-23° isti olacaq.

*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4902
SİFARİŞ 2271
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır
00:00